ƏHMƏD HƏMDİ PAŞA

# MİSSİONER

## (MİSSİONERLƏR NECƏ YETİŞDİRİLİR)

Nəşrə hazırlayan
Prof. M.Camal Sofuoğlu

BAKI -2008

**BBK 8.1**
**H-56**

Ön sözün müəllifi:
**Akademik, Vasim Məmmədəliyev**

Editor:
**Halil ÖZTÜRK**

Nəşriyyatın direktoru:
**Zahid MƏMMƏDRZAYEV**

Azərbaycan türkcəsinə çevirən:
**Azad YAŞAR**

Redaktor:
**Azad AĞAOĞLU, Taryel FAZİLOĞLU**

**H-56** AHMET HAMDİ PAŞA**,** Missioner**,**
**Qismət, Bakı, 2008, 120 səhifə.**

**H** $\frac{0801000000}{M\text{-}085\text{-}63\text{-}08}$

© **Qismət,** 2008



# ÖN SÖZ

## MİSSİONERLİK VƏ MİSSİONERLƏR

İslam ənənəsində dinin insanlara təbliğ edilməsi və tanıdılmasına "*təbliğ*" və ya "*dəvət*", bu fəaliyyəti yerinə yetirən insana isə "*təbliğçi*" və ya "*dəvətçi*" deyilir. Lakin xristianlıqdakı "*missiya*" və ya "*missionerliklə*" İslamdakı təbliğ və dəvət anlayışı arasında dərin fərqliliklər mövcuddur. İslam təbliğində və dəvətində yalnız və yalnız həqiqətlərin elan edilib insanlara çatdırılması hədəflənərkən missionerlikdə məqsəd insanların xaç suyuna salınaraq xristianlaşdırılmasıdır. Nəticə etibarilə missionerlik sadəcə xristian inancının hər tərəfə tanıdılması deyil, xristianların özlərinin də dediyi kimi "əlindən gələn hər bir şeyi edib insanların xristianlığa cəlb edilməsi və xristianlaşdırılması" fəaliyyətidir.

Missionerliyin hərfi və ya termin mənası da eyni həqiqəti ortaya qoyur. Beləki, latın dilində olan "missio" kökündən meydana gələn "missiya" sözü "vəzifə" və "səlahiyyət", "missioner" sözü isə "vəzifəli" və "səlahiyyətli şəxs" mənasına gəlir. Xristianlığın ilk dövrlərində Ata tərəfindən oğulun, ata və oğul tərəfindən isə Müqəddəs Ruhun göndərilməsinə, insanlara dini söhbətlər etmək üçün rəsmi şəxslərin vəzifələndirilməsinə missiya deyilməsilə bərabər XVI əsrdə bu söz daha geniş mənanı ifadə etməyə başlamışdır. XVI əsrdə xristian xalqlarının öz koloniyalarına, müstəmləkələrinə kilsə nümayəndələrini göndərməsini ifadə

edən misyon və missionerlik (missionary) zəbt edilən torpaqların, xalqların və ya bölgələrin xristianlaşdırılması kimi istifadə edilmişdir.

Katolik kilsəsinin Xristianlığın yerli insanlar arasında yayılmasını təmin etmək məqsədilə vəzifələndirdiyi kilsə təmsilçilərinə missioner, bunların getdikləri ölkələrə isə missiya ölkələri deyilir. Xristian missionerliyinin teoloji əsaslarını və dəyərləndirilməsini ələ alan elm sahəsi "missiya teologiyası", ümumilikdə missionerliklə əlaqəli bütün fəaliyyətləri tətbiq edən elm isə "missiologiya (missiology)" adlanır. Günümüzün xristian missionerləri bu kəlmənin müstəmləkəçilik, imperializm ilə bərabər işlədilməsindən və kəlmədə istismar kimi mənfi bir əhval-ruhiyyənin olduğundan narahatçılıqlarını gizləmir və missionerlik yerinə başqa kəlmələrdən istifadə etmək istədiklərini açıq şəkildə bəyan edirlər. Bu kəlmələr arasında ən çox rastlananı "evangelizm" və "evangelizasiya", bəzən də şahidlik (witnessing) və bəyan (proclamation) kimi kəlmələri burada qeyd edə bilərik.

Hər nə qədər missionerlər öz adları ilə bağlı reformlar etmək istəsələr də, bütün dünya, missionerliyə xristian dininin yayılmasını həyata keçirməyi hədəfləyən bir cərəyan kimi baxır. Bu cərəyanın nümayəndələri öz ideyalarını həyata keçirmək üçün müxtəlif dini və teoloji referanslardan istifadə edirlər. Məsələn Xristian baxış tərzinə görə missionerlik vəzifəsilə bir nəfərin əcnəbi bir ölkəyə və ya millətə göndərilməsi ilahi oğul İsa Məsihin missiyasına iştirak etməkdir.

Missionerlik vəzifəsini yerinə yetirən kilsə və missionerlər, İsa Məsihin bütün dünyadan insanları öz gününə və gələcəyinə hazırlıq üçün bir araya toplayacağı ümidini daşıyırlar. Müqəddəs Ruhun fəaliyyətilə xristian əxlaqına, inanc və təlimlərinə yaxın bir davranış ortaya qoymağa hazır olan bu insanlar "anonim xristianlar" olaraq adlanırılır.

## MİSSİONER

Xristianlara görə onların missiyası və missionerlik hərəkatı İsa Məsihin vəfatından sonra başlamışdır. O gündən bu günə missionerlik fəaliyyəti müxtəlif mərhələlər keçirmiş, üslub və metod baxımından daha da genişlənərək dünyanın əksər bölgələrinə yayılmışdır. Yalnız dini təbliğ vəzifəsini yerinə yetirən rahiblər olaraq deyil, eyni zamanda müxtəlif regionlarda təhsil, təlim-tərbiyə, həkim, sosial müdafiəçi, siyasətçi və buna bənzər vəzifələrdə hətta böyük fədakarlıq göstərərək işləyən missionerlərin insanları xristianlaşdırmadakı müvəffəqiyyət amillərinin başında, onların mənsub olduqları xristian dövlətləri və xalqları tərəfindən maddi və mənəvi olaraq yüksək səviyyədə dəstəklənmələri, açdıqları monastırlar, inşa etdikləri kilsələr, qurduqları cəmiyyətlər, təsis etdikləri fondlar, tikdikləri xəstəxanalar, məktəblər və buna bənzər ictimai, iqtisadi, elmi, mədəni, siyasi fəaliyyətləri həyata keçirərək xristianlaşdırmağı hədəflədikləri xalqların və insanları ətraflarına toplayaraq professional şəkildə onların içinə girmələri və güclü propaqandalarını qeyd etmək olar. Əlbəttə ki, bu cür fəaliyyətlər, onların həyata keçirilməsi eyni zamanda böyük insan və kadr potensialına sahib olmaq ehtiyacını doğurur.

Əhməd Həmdi Paşanın şəxsən qələmə aldığı, Türkiyəli məşhur ilahiyyatçı professor M.Camal Sofuoğlunun nəşrə hazırladığı və nəhayət Azad Yaşarın Azərbaycan dilinə uyğunlaşdırdığı "*MİSSİONER*" kitabı bir ingilis missionerinin və ya bir missioner kadrın necə yetişdirildiyini ortaya qoyan qiymətli əsərdir. "*Qismət*" nəşriyyatında hazırlanıb siz dəyərli oxuculara təqdim edilən bu kitabda missionerlərin xüsusilə İslam dünyasındakı fəaliyyətləri, onların İslamı və müsəlmanları parçalayaraq təfriqəyə salma ideyaları, müsəlman cəmiyyətinin içinə girərək, şəhər, kənd, qəsəbə, dağlıq, səhralıq, düzənlik bilmədən müxtəlif yollarla, hətta adlarını, geyim-keçimlərini, həyat tərzlərini dəyişərək və özlərini bölgə insanından biri kimi ta-

nıdaraq burada xristianlaşdırma siyasətini aparmaları və xristian dəyərlərinin təbliğatı, tarixi faklar işığında ortaya qoyulur.

Tarixdən məlumdur ki, missionerlərin müsəlmanlara qarşı fəaliyyətləri İslamın yayıldığı ilk dövrdən etibarən başlamış, xüsusilə də müsəlmanların xristianlardan bu və ya digər şəkildə əldə etdiyi torpaqlarda missioner aktivliyi daha bariz şəkildə özünü göstərmişdir. Suriya, Şimali və Mərkəzi Afrika, Əndəlüs İspaniyası, Cənubi İtaliya kimi bölgələr və Xaç yürüşləri kimi tarixi - hərbi - siyasi hadisələr hər zaman missionerliyin fəaliyyət sahəsi olmuşdur.

Qeyd etmək lazımdır ki, keçmişdən bu günümüzə qədər olan zaman içində İslam dünyasında aparılan missioner fəaliyyətləri sadəcə müsəlmanların xristianlaşdırılması siyasəti ilə məhdudlaşdırılmamış, bu fəaliyyət eyni zamanda İslamın güclü dövrlərində müsəlmanların və İslam dövlətlərinin hər cəhətdən zəiflədilməsi, maddi və mənəvi cəhətdən çökəldilməsi, bu coğrafiyada yaşayan xalqın istismar edilməsi, müstəmləkəyə çevrilməsi, yeraltı və yerüstü sərvətlərin ələ keçirilməsi kimi məqsədləri olan geniş bir hərəkata çevrilmişdir.

Oxuculara təqdim olunan "MİSSİONER" kitabı məhz yuxarıda qeyd edilən bu incəlikləri və nüansları tarixi faktlar əsasında ifşa edir və missionerliyin iç üzünü açıb göstərir. Müəllifin kitabda missionerliklə bağlı, xüsusilə də ingilis protestan missionerlərinin Yəmən, Ərəbistan yarımadası, Mərkəzi Afrika və Osmanlı Türkiyəsindəki fəaliyyətləri haqqında verdiyi qiymətli məlumatlar, missionerlərin həqiqi foto rəsmləri ilə onların yerli müsəlman xalq içindəki və müsəlman libasındakı şəkilləri diqqət çəkicidir.

Missioner yetişdirən məktəb, kollec və buna bənzər digər təlim-tədris mərkəzləri və müvafiq mütəxəssislər haqqında ətraflı məlumat verilməsi əsərə başqa bir dəyər

qazandırır. Müsəlman ölkələrin və siyasi hakimiyyətlərinin siyahısı, müsəlmanların (müəllifin yaşadığı dövr etibarilə) bütün dünyadakı sayları əsərdəki qiymətli tarixi məlumatlar arasında yer alır. Nəhayət, müəllifin missionerlərə qarşı mübarizə taktikası haqqındakı fikirləri milli və mənəvi dəyərlərinə sahib çıxan hər bir müsəlman üçün böyük əhəmiyyət kəsb edir. Missionerlərin müsəlmanlar, İslam xalqları, dövlətləri üçün ortaya qoyduqları zərərli, təhlükəli fikir, düşüncə və fəaliyyətlərdən uzaqlaşmaq, onların təsirinə düşməmək, müsəlmanların mövcud vəziyyətlərini düzəltmək üçün son tövsiyələri də diqqət çəkicidir.

Müsəlmanları birlik və bərabərliyə çağıran müəllif, onlara İslamdan möhkəm yapışmalarını, gözəl əxlaq sahibi olmalarını, yəni öz milli və mənəvi dəyərlərinə sahib çıxmalarını məsləhət görərək, hər kəsin qəbul edəcəyi bu həqiqətləri belə ifadə edir: "Əgər biz tam mənada müsəlman olsaq, Allah Təala heç xatirimizə, xəyalımıza gəlməyən, nə alman pulu, nə də ingilis hiyləsi ilə baş verdiyinə inanmadığım rus inqilabı kimi hadisələri ard-arda bu böyük dövlətlərin də başına gətirməklə bizi onlardan xilas edər. İnancsızlıq, dinsizlik şəraitində isə heç bir niyyət gerçəkləşə bilməz".

Milli-mənəvi dəyərlərinə sahib çıxan və bu dəyərləri hər şeydən üstün tutan hər müsəlmanın missioner tələsinə düşməmək üçün Əhməd Həmdi Paşanın "*MİSSİONER*" kitabını oxumasını tövsiyə edir, siz qiymətli oxucularımızı bu kitabla baş başa buraxırıq.

Akademik **Vasim M. Məmmədəliyev**
İlahiyyat Elmləri Namizədi **Elşad Mahmudov**

## GİRİŞ SÖZÜ VƏ YA BU KİTABLA BAĞLI KİÇİK BİR HEKAYƏT

Uzun müddətdir ki, Əbdülqadir Şənər və Mustafa Yıldırım ilə birlikdə "**Qur'ani-Kərim**"in izahlı şərhini yazmaqla məşğuluq. Bir ara xristianlıq və Hz. İsadan bəhs edən ayələri müzakirə edərkən Əbdülqadir Şənər xocamız hələ gənclik illərində missionerlərin İslam dünyasındakı fəaliyyətləri ilə bağlı, həm də köhnə əlifba ilə yazılmış çox ibrətli və gözəl bir kitab oxuduğunu söylədi. Amma xocamız həmin kitabın nə adını, nə də müəllifini xatırlayırdı. "Görən bu kitabı necə tapa bilərəm?" sualı bir müddət zehnimi məşğul elədi. Sonra isə "Bu axtarışlarda mənə, olsa-olsa, hələ Ankara Universitetinin İlahiyyat fakültəsində çalışdığım illərdən bəri tanıdığım və biliklərinə heyran olduğum Əli bəy Birinci yardımçı ola bilər" deyə, düşündüm. Yaxın dostları tərəfindən "kitab qurdu" (=kitab bilicisi və ya sərrafı – A.Y.) kimi tanınan bu adam çox dəyərli bir tarix professorumuzdur. Yaxın dostların birindən onun telefon nömrəsini öyrənsəm də, məni necə qarşılayacağını, düzü, təsəvvür etmirdim. Salamlaşandan sonra ondan M.Camal Sofuoğlunu xatırlayıb-xatırlamadığını xəbər aldım. Verdiyi "Xocam, heç sizi unutdummu ki?!" cavabı ilə məni çox sevindirmiş oldu. Axtardığım kitabdan bəhs edincə isə on dəqiqə sonra ona təkrar zəng etməyimi xahiş elədi. On dəqiqə sonra zəng etdiyimdə mənə belə bir məlumat verdi:

"Xocam, dediyiniz kitab əlimin altındadır. Adı "**Aləmi-İslam və ingilis missioneri**", yardımçı adı isə "**İngilis missionerini necə yetişdirirlər"**dir." Öz kitablarına nə dərəcədə düşkün birisi olduğunu bildiyimdən, düzünü deməliyəm ki, kitab barəsində xahiş ətməq üçün özümdə cəsarət tapmadım. Amma o: "Hər halda bu kitabı tanıtmaq istəyirsiniz, onun surətini sizə göndərə bilərəm" dedi və göndərdi də.

Kitabın məni dərindən sarsıtdığını, gözyaşlarımın vaxtaşırı axmasına səbəb olduğunu mübaliğəsiz söyləyə bilərəm. İstədiyim odur ki, hər bir müsəlman türkün də ürəyi eynilə mənimki kimi alışıb-yansın...

Düşünürəm ki, bu kitabı oxuya bildiyi üçün hər kəs ilk növbədə Əli bəyə təşəkkür etməyə borcludur, çünki məhz onun bilgisi və nəzakəti sayəsində bu kitabı oxuma imkanı qazanmışıq. Əli bəyə ikinci bir təşəkkürümüz isə onun bu kitab müəllifi barədə çox ciddi bir araşdırma aparması və onu bu kitaba əlavə etməyimizə icazə verməsidir.

Bu kitabçanın əlimizdə bulunmasına kömək etdikləri üçün bir çox dostuma minnətdaram. İlk öncə Əbdülqadir Şənər xoca ilə mən nisbətən sadələşdirilən mətni əsliylə qarşılaşdıraraq oxuduq.

Ancaq köhnə əlifbayla yazılan bir qism isimlərin çoxsunu düzgün oxumaq çətin bir işdir. Müəllifimizin sadaladığı islam dövlətlərinin adlarının oxunmasında öz yardımlarını əsirgəməyən, "qızım" deyə xitab etməyi çox sevdiyim, Ankara Universitetinin İlahiyyat fakültəsində "İslam tarixi" fənnindən dərs deyən, professor Nahidə Bozkurt xanıma və yenə də eyni məsələlər üzrə qeyrət göstərən Mərmərə Universitetinin İlahiyyat fakültəsində arxivçi vəzifəsində çalışan Gülgün Uyar xanıma təşəkkürlərimi çatdırıram.

✼

Kitabı oxuduğunuz zaman missionerin türklərə tarix və sosiologiya dərsləri verdiyinə şahid olacaqsınız.

**Dəyərləndirmələr zamanı kitabın 1914-cü ilin şərtləri çərçivəsində qələmə alındığı unudulmamalıdır.**

Müəllifin o dövrün şərtlərinə görə ortaya atdığı bəzi fikirlər tarixlə bağlı məlumat kimi diqqətə alınmalıdır. Osmanlı dövlətinin bir İslam dövləti olması faktı kitab müəllifini İslam dinini yaymaq üçün bir "**İslam Cəmiyyəti**" qurma fikrinə salmış və o, belə bir təkliflə çıxış etmişdir.

Bu sətirləri bitirdiyimiz vaxt Narlıdərənin müəzzinləri (=azançıları – A.Y.) qaranlığı yaran azan səsləriylə insanları oyandırmağa çalışırlar. Bu durum mənə sevimli Mehmed Akifin (=Türkiyənin istiqlal şairi M.A.Ersoy (1873-1936) nəzərdə tutulur – A.Y.):

*Bu əzanlar ki, şəhadətləri - dinin təməli,*
*Əbədi yurdumun üstündə mənim inləməli!*

misralarını xatırlatdı. Əhməd Həmdi bəy öz kitabını "İslam dünyası üçün xəbərdarlıq kitabı" deyə tanıtdırıb. Onun bu arzusunun gerçəkləşməsini diləyir və "*Allahım! Bu yurdu azansız və bayraqsız qoyma!"* duasıyla müəllifin ruhuna Fatihələr göndəririk.

**M.Camal Sofuoğlu, Professor,**
30 may 2006-cı il, Narlıdərə-İzmir

## İSLAM DÜNYASI VƏ İNGİLİS MİSSİONERİ

*(İngilis missioneri necə yetişdirilir?)*

Kitabımın başlığı təqdim edəcəyim bilgilərin nələrdən ibarət olacağını əhatə etdiyinə görə bu əsərin mətnindən söz etməyə, bununla bağlı uzun-uzadı söz açmağa ehtiyac görmürəm, bir müqəddimə (=giriş) yazmaqla kifayətlənirəm.

Yəməndə dövlət qulluğunda olduğum dövrdə Səna şəhərində Hacı Əli və Mənaha şəhərində Abdullah Mənsur deyə iki ingilisin yaşadığı və bunların yerli xalqla qaynayıb-qarışma xəbəri qulağıma gəlib çatmışdı.

Havamı dəyişmək üçün bir aylığına Xudəybədən Sənaya gedərkən mən Tihamə ilə dağı ayıran xətt üzərindəki Vəslə (xalq arasında bu yeri "Əvsəl" adlandırırlar) gəlməklə, bu bölgənin şeyxi Kanısın evində qonaq qalmışdım. Şeyx Kanısın evi Vəsl təpəsinin zirvəsində, həm də kərpicdən inşa olunmuşdu. Özünü müdafiə məqsədiylə tikilən bürcü (=qala) xatırladır, çünki buradan hər yeri nəzarətdə saxlamaq mümkündür.

Şiybam və Məsar təpələri kimi, Səfan dağı da bu yerdən bütün ehtişamıyla seyr edilə bilərdi. Dolanbaclı görünüşə malik Hiyca vadisinə çox gözəl bir mənzərə açılırdı. Vəsl, bir mövqe olaraq, Tihamədə yerləşən əs-

gərlərimiz üçün çox gözəl bir senatoryum (= hərbi təlim yeri – A.Y.) ola bilər. Havası mülayim, suyu isə təmizdir. Əzyəbə[1] və dağdan əsən küləklərə qarşı qorunmaqdadır. Bürküdən narahat olan və soyuqdan əziyyət çəkən xəstələr burada dincələ bilərlər. Ərkani-hərbiyyə (=ştab kapitanı - A.Y.) ikən kaymakam (=qubernator, vali – A.Y.) polkovnik-leytenant, əslən rizəli kapitan Mustafa bəyin, missionerlərlə bağlı başına gələn bir hadisəni öz dilindən dinləmiş və bundan yetərincə ibrət dərsi aldığımdan, müsəlman olan bu iki ingilisin yerli qəbilələr arasında yaşamalarının səbəblərini araşdırmaq məndə bir vicdan borcuna çevrilmişdi. Elə bunun üçün də başqa bir yerdə iki saatlığına dincəlmə imkanım olmasına baxmayaraq, Şeyx Kanısın evinə qonaq düşməyi və orada qalmağı uyğun bildim.

Şeyx Kanıs əsl diplomat olmağa layiq biriydi. Sözünü-söhbətini bilirdi, şəraitə və zamana uyğun söz danışırdı, fikrini açıqlayarkən bütün tərəfləri nəzərə alırdı. Həmsöhbətinin durumuna, sözünə, hətta üzünün alacağı rəngə və turşumasına (=qırışmasına) görə onun ar-



Şeyx Kanıs və vasıldakı evi



Şeyx Nasır paşa

zusunu, niyyətini və fikrini az-çox təxmin edə bilən, onun mövqeyinə görə ortaya fikirlər atan ağıllı bir zəmanə adamıydı. Yəmənin tarixindən, yəni Ad bin İvazdan başlayaraq İrəm bağlarına, bir az da irəli gedərək Kəhdan bin Xuddan, onun oğlu Yarəbdən, Yəşcəbdən və Amirdən söhbət açdı. Himyerdən dərin bir araşdırmaya söykənən gen-bol bigilərini ortaya qoydu, ardınca isə Numana, Barana, Cəbarəyə, Nəcrana və Abinə dair xeyli məlumatlar açıqladı. Abinin iştirak etdiyi müharibə və döyüşlər barədə rəvayətləri danışdı. İsgəndər Zülqərneynin Yəmən hökmdarı olduğunu da unutmadı. Əbrəhənin Məkkeyi-mükərrəməyə (=müqəddəs Məkkəyə – A.Y.) hücum çəkməsi faktını xatırlatdı. Bəlkisin Süleyman həzrətləriylə görüşünü parlaq cümlələrlə bizə çatdırdı. Hədhadın əmisi Yamirin oğlu Şəmməri Bəraşın Qüdsə gedərək, şəhər divarına yazdırdığı "*Himyerin tanrısı Allahın adıyla kral Zü Məraş buranı ələ keçirmişdir. Mənə qədər bu, heç kimə nəsib olmadığı kimi, məndən sonra da heç kəsə qismət olmayacaqdır*" cümləsini uca səslə oxudu. Yəmən hökmdarlarından Zeydin, Malikin, Əkranın, Züceyşanın, Tübbanın, Əsədin, Əbu Kərbin gördüyü işləri qısa şəkildə söylədi. Sunaya hökmdarının davranış və hərəkətini, etdiyi zülm və zilləti tənqid elədi. Zu Nuvasın alicənab hərəkətlərini təriflərlə yad etdi. Şeyx Kanısın haqqını vermək lazımdır, xeyli bilgili və mədəni adamdır. Şeyf Zül-Yəzənin hər kəsə bəlli olan cəsarətini və həssaslığını təqdir etdiyini gizlətmədi. Nuşirəvan Adilin öz qənaətlərindən, mövqeyindən imtina etməsi üçün pul təklif etdiyi Şeyf Zül-Yəzən göz yaşlarına boğularaq ona deyibmiş ki: "*Vətənimin dağlarıdaşları mənə görə qızıl və gümüşdür. Vətənimi işğal-*

*çıların caynağından qurtarmağı hədəfləyən mövqeyimi mən belə xırda şeylərə satacaq qədər alçaq deyiləm. Mən ya bu əlimdəki ox-yayla öz uca qayəmə, mübarək dəyərlərimə çatacağam, ya da ki, bu yolda şirin canımı fəda edəcəyəm. Mənə kömək edin ki, ayaqlar altda tapdanan namusumuzu və izzəti-nəfsimizi qurtarım. Yardım əlinizi mənə uzadın ki, hər gün qanları boş yerə axıdılan yüz minlərlə günahsızı bu amansız vəhşilərin zülmündən və təhqirindən qurtarım. Mənə lütf edin ki, yenilməz ruha malik böyük bir milləti bu azğın Həbəş sərsərilərinə nökərçilikdən,qulluqdan azad edim. Bütün aləmə bəlli olan mərhəmətinizdən və yardımınızdan yararlanmaqdan ötrü durub buralara qədər yol qət etdim. Sizin kimi məşhur birinin məni öz hüzurundan məhzun və məlul yola salacağını heç zənn etmirəm*" cavabını gözü yaşararaq söylədi.Yəməndə ilk müsəlman olan Bazanı rəhmətlə yad etməyi də unutmadı. Yəmənə (ezam olunan) böyük səhabələrdən Əli bin Əbu Talib, Muaz bin Cəbəl, Əbu Musa əl-Əşari, Xalid bin Vəlid, Ziyad bin Ləbid, Əban bin Səyid və Muaviyyə bin Kində haqqında xoş sözlər danışdı. Yəmən bölgəsində Zeydiyyə məzhəbini yayan şəxsin Əli həzrətlərinin səkkizinci qurşaqdan övladı, hicri 254-cü (miladi 868-ci) ildə Mədinədə dünyaya gələn Yəhya bin Hüseyn olduğunu, onun ardınca İmam Nəsir Əhməd bin Yəhyanın, Mənsur Yəhyanın, Müntəsrihinin və Yüsif bin Yəhyanın imamlıq etdiklərini, hicri 404-cü (miladi 1013) ildən hicri 912-ci (miladi 1506) ilə qədər Yəmənin imamsız qaldığını, bunun ardınca İmam Şərəfüddinin Zeydi imamı olduğunu açıqladı, çünki Zeydi məzhəbində imamın ən azı 14 şərtə uyğun gəlməsi tələb olunur.Mən də: "bunlar *Os-*

*manlı tarixinə aiddir, bilirəm. Bir az da Yəmənin bitkilərindən və heyvanlarından danışa bilərsinizmi?*" dedim. Şeyx Kanıs sualıma belə cavab verdi:

-"*Bizim vətəndə, xüsüsilə də Tihamədə yumurtadan çıxan bir həftəlik cücə cikkildəməyə, altıncı ayında isə yumurtlamağa başlayar. Başqa cinsə mənsub rəngli quşlar da var. Ancaq digər məmləkətlərə səyahət etmədiyimdən digər ölkələrdəki quşlarla fərqlərindən xəbərsizəm.Yalnız Mənahada qalan və vaxtını Beyti-Müddəa adlı kənddə keçirən Abdullah Mənsur adlı müsəlmanlığı qəbul etmiş bir ingilis vardır. Bu şəxs London Zoologiya Cəmiyyətinin üzvüdür və ovla məşqul olur. Quşların cinslərinə və fərqlərinə çox yaxşı bələddir. Onunla bircə kərə görüşsəniz, xeyli bilgi əldə edərsiniz, yalnız bir şey söyləmək istərdim: Mərkəzi Mənaha qəsəbəsi olan Hiraz*[2] *qəzamızın hüdudları daxilində elə quşlar da var ki, dünyanın heç bir guşəsində bunların bənzəri yoxdur deyən və bu zavallı heyvanları ovlamaq üçün bizim qəzada ömrünü keçirən Abdullah Mənsurun vəziyyətindən, sözlərindən və bol pul xərcləməklə qəlblərə yol tapma ustalığından və hərəkət tərzindən şübhələnirəm.* Əlbəttə ki, hökumət nümayəndələri bu şəxsi araşdırmaqda və izləməkdədirlər. Mənim bildiyim və anladığım şey isə Abdullah Mansurun zəngin birisi olmasıdır. Pul xərcləyərkən sağını-solunu düşünmür. Yəməndə isə dinar ilə dinini dəyişənlər çoxdur. Buna görə də bir çox insanımız ona bağlıdır. Hirazı adi qəsəbə kimi dəyərləndirməyin, strateji baxımdan o, çox önəmlidir. Cəbələ və Tihaməyə qarşı ondan bir manevra mərkəzi kimi istifadə etmək olar. Yəni siyasət manivelasının (=mexanizminin) ən önəmli nöqtəsidir. Tihaməyə və Cəbələ qarşı istifadə ediləcək hər iki tərəfi iti qılınca bənzər. Tihamə və Cəbəlin iltisaq (=bitişmə – A.Y.) yerinə yaxındır. Hər iki tərəfə

buradan qüvvə yeridilə bilər. Mənaha qəsəbəsi Səna və Xudeybə kimi məmurları çox olan bir yer deyildir. Abdullah Mənsur buna görə öz işini sərbəstliklə görə bilir; Allah sonunu xeyir eləsin. Peyğəmbər həzrətləri "***Tədbir – yaşamağın, təvəddüd*** (=sözünü sevdirmə, özünü istətmə - A.Y.) ***isə ağlın yarısıdır***" buyurmuşdur;[3] Peyğəmbərimiz "***Xalqın rəğbətini qazanıb xoş davranmaq və aləmin nifrətini qazanmamaq da ağlın yarısıdır***" buyurub. Hədisi açıqlayan adam belə deyir:

"*Zənginlər iki cür olur. Birincisi əldə etdiyi mala görə zəngindir. İkincisi isə mala-mülkə ehtiyac duymadığından zəngin, yəni könül zənginidir.*" Siyasətdən, dövlət işlərini idarə etməkdən duyulan zənginlik, yəni heç nəyə ehtiyac duymamaq isə sadəcə axmaqlıqdır. Bu məsələ ilə bağlı Hz.Peyğəmbər "***Öncə dəvənin başını bağla, sonra Allaha təvəkkül et***."[4] demişdir. Tədbir almaqda səhv edib, "*təvəkkül edirəm*" demək isə kökündən yanlışdır və caiz sayılmaz. Tədbir almanın, tale ilə bağlılığını bu hədis çox gözəl bir şəkildə açıqlayır. Məsələ aydın, nəticələr isə bəlli, hətta yarımədəni yəmənli belə bunları bildiyi halda, bizim səlahiyyət sahiblərimiz mürgüləyirlər.

Hiraz qəzasında Zeydilər və Mükərrəmilər yaşamaqdadırlar. Mükərrəmilər dövlətin dostudurlar və dostluqlarını hər zaman göstərdilər. Zeydilərə qarşı aparılan savaşda daim mövqelərini dəyişməyə məcbur olan Osmanlı ordusunun həmişə tərəfində olublar. Mənahaya çatdığımızda Mükərrəmilərin ağsaqqalı sayılan Şeyx Nəsir Paşa ilə Şeyx Naci ziyarətimə gəldilər.

Bu iki şəxsdən ihtida (=İslamı qəbul) edərək, müsəlman olan Abdullah Mənsur haqqında bilgi istədim. Şeyx Naci mənə aşağıdakı məlumatları verdi:

Abdullah Mənsur – Bari (=Bury) ailəsindən çıxan bir ingilisdir. London Zoologiya Dərnəyinin üzvüdür. Şərqşünaslıq institutunda (=Enstitue Oriantale) təhsil alandan sonra uzun illər Ərəbistanda yaşayıb, ərəb dilini olduqca gözəl bir şəkildə bilir və bu dildə rahat danışır. Ədən məhmiyəsində (=nahiyəsində, bölgəsində – A.Y.) yeddi il yaşayıb və buradakı nadir quşları ovlayıb. Ovda keçən bu illər ərzində başqa nələrlə məşğul olduğundan xəbərsiz olsam da, yaxşı xəritə çəkdiyini və həmin ərazini hərtərəfli araşdırdığını bilirəm. Hətta xərc çəkərək quyular qazdırır, oradan çıxan daşları mikroskopla öyrənir və gördüklərini cib dəftərinə yazır, bəzilərindən kiçik parçalar seçib, saxlarmış. Kiçik ölçüdə alətlər işlətdiyi kimi, bir neçə fotoaparatı yanında gəzdirərək önəmli bəzi yerlərin fotolarını çəkirmiş. Özüylə dəfələrlə görüşüb söhbətləşmişəm. Dindar kimi görünməyə həvəs göstərən bu şəxs bəktaşilik təriqəti ilə protestantlıq arasında çox az fərq olduğunu sözarası söyləməkdən çəkinmir. Vaxtlı-vaxtında namaz qıldığını, oruc tutduğunu, yaxşılıq etməklə yamanlığa əngəl olma prinsipinə əməl etdiyini iddia edir. Cümə axşamları və bazar ertəsi günləri oruc tutduğunu deyir, həmin günlərdə evdən bayıra çıxmır və doğma ailəsindən başqa heç kimlə görüşməz. Digər günlər sərbəstdir. Haqqında söz açdığım bu şəxs guya Peyğəmbər əleyhissalamın "***Hər etdiyini və eşitdiyini dilinə alıb danışması da bir insandan ötrü günah sayılır***"[5] hədisinə uyğun hərəkət etdiyi üçün belə davranır.

Abdullah Mənsur vaxtının çoxunu Beyti-müddəa adlanan kənddəki evində keçirir. Təsadüfən Mənahadadırsa, bugün axşamüstü, deyilsə xəbər göndərərəm, sabah səhər gələr. Günortadan bir saat əvvəl yanınıza gətirib

sizinlə görüşdürərəm. Abdullah Mənsur ingilis olduğu halda aralarında yaşadığı ərəblər kimi yeyib-içir, geyinir, yatıb-durur, əsla işrətə (=içkiyə) meyl etməz. Bir sözlə, ərəblərlə həmhaldır. Yoxsullara sədəqə paylayır, ehtiyac sahiblərinə yardım göstərir. Dostlarına hörmətini əskik etməz. Gəlirini çıxarını bilən adamdır. Belələrinə İngiltərədə "missioner" deyirlər. Mən öz savadsızlığımla və dar dünyagörüşümlə anlıyıram ki, bu adamın işləri sirlidir. Aydın məsələdir ki, hökumət məmurları da onun kimliyindən agahdırlar, çünki yaxşı deyiblər:

"*Subaşı* (Subaşı - Osmanlı imperiyasında şəhərin su təsisatına baxan məmur - A.Y.) *olarsa oyanıq* (=ayıq-sayıq); *su, başından olmaz bulanıq*."

O gün Mənaha valisi Məhmət bəyi gördüm və missioner barədə məlumat istədim. Məhmət bəy də bunları söylədi:

*-Mənahada və Beyti-Müddəa*[6] *kəndində yaşayan, müsəlmanlığı qəbul etmiş bir ingilis var. Onunla bir neçə dəfə görüşmüşəm. Ova çox marağı olduğundan vaxtının çoxunu ov heyvanlarının bol olduğu Hiraz qəzasında keçirir. Elm və təhsillə məşğul olanlar siyasətlə maraqlanmazlar. Buna görə də o, siyasi baxımdan zərərli birisi olmaz hər halda. Zoologiya Cəmiyyətinin üzvü olduğuna görə, ömrünü-gününü bu elmin inkişafına faydalı olacaq bilgiləri toplamağa fəda edib və bütün sərvətini də bu yolda xərcləyir*" dedi. Mən də:

- Söylədiyiniz sözlər sizə görə bir nəzəriyyədir (yəni şəxsi düşüncənizdir). Amma belə bir adamın nə ilə məşğul olduğunu öyrənmək gərəkməzmi ki? Bir adama izləməyi tapşırsanız yaxud münasibətdə olduğu adamlardan məlumat toplasanız olmazmı? Alim və fəzilət sahibi şəxs-

lər hər şeyə maraq göstərirlər. Xüsusilə də siyasətlə məşğul olanların çoxu dərin biliyə sahib olurlar, çünki cahildən diplomat çıxmaz. “Dübarəçi” adlandırılan bəzi madrabazlardan (=fırıldaqçılardan - A.Y.) törəyən siyasətçilərin isə fəaliyyəti uzun sürməz, tez bir zamanda gözdən düşərlər. Bununla yanaşı, “*Elm və təhsillə məşğul olanların beynində siyasətə yer qalmaz*” nəzəriyyəniz (=qənaətiniz) doğru bir düşüncə sayıla bilməz, -dedim.

-“Bu şəxsdən daha hiyləgər, bundan daha bilgili və çoxbilmiş birisi də var. Onun adı Hacı Əlidir. İl yarımdan bəri Yəmən vilayətinin mərkəzi olan Sənada, vali və sərkərdələrin gözləri önündə yaşayır, imamla (=dini liderlə) əlaqə saxlayır, cami və məscidlərdə, məclislərdə edilən söhbətlərə qatılır. Hökumət onu görməməzliyə vurur. Tək bircə polisi olan Mənahada mən nə edə bilərəm, əlavə məmuru haradan tapım? Tapsam belə, onun maaşını haradan verim?! Əslində hökumətimə buna görə bir problem yaradım? Əgər hər hansı bir çətin vəziyyət yaranarsa, o halda yuxarı orqanlara vəziyyəti xəbər verib, nə etməli olduğumu soruşaram; nə əmr etsələr, onu da yerinə yetirərəm” dedi. Halbuki “örtülü ödənək” (=gizli məsrəflər – A.Y.) adlanan vəsaitlər hədər yerə xərclənməməli, belə önəmli işlərə sərf olunmalıydı.

Ertəsi gün günortadan bir saat əvvəl Abdullah Mənsur ilə Şeyx Naci qonağı olduğum Huceylə nahiyəsinin müdiri Əli Rza əfəndinin evinə gəldilər. Onları gözəl qarşıladım, səmimiyyət göstərdim. Dərədən-təpədən, ordan-burdan bir az danışandan sonra Abdullah Mənsura ovçuluqla məşğul olduğu barədə eşitdiyimi söylədim. Fransız dilində mənə aşağıdakı cavabı verdi:

Zoologiya Cəmiyyətinin üzvü və “Quşlar” bölümü-

nün əməkdaşıyam. Mütəxəssisi olduğum bu elmin inkişafı yolunda ömrümü və sərvətimi qoydum. Atamdan miras qalan böyük sərvəti insanların maariflənməsi üçün xərcləyirəm. Hiraz qəsəbəsi - cürbəcür quşların toplandığı tünəkdir (=yığnaqdır, oylaqdır - A.Y.). Yaşıl vadilərdə rast gəldiyim rəngarəng quşları, vulkanik dağların yarıqları arasında tutduğum, qəhrəman xislətli quşları, mübaliğə ilə deməliyəm ki, dünyamızın heç bir yerində görmədim. Yırtıcı, köçəri, dırmanıcı, toyuğa bənzər (=tavukcul), uzunayaqlı, sahildə yaşayan quşlar da daxil, bir çoxlarını buralarda gördüm. Hirazdan dağa doğru getdikcə yüksəklərdə və ılıq iqlimli yerlərdə yaşayan quşlar, Hazə bölgəsində, Tihamədə və sahildə isə isti iqlimli və çökək bölgələrdə yaşayan quşlar var. Pərdəli ayaqlılardan "Kotan" adlandırılan quşun müxtəlif rənglilərinə burada rast gəldim. Böcəklərlə bəslənən quşların hər növünü tutdum.



Köçəri quşların da bir çox növlərini ovladım. Xüsusilə puhu quşları çox qorxunc görünür. Hüthütlərin (=şanapipiklərin – A.Y.) nəğmələri könül oxşayır. Səhərlər oxuyan bülbüllər məni çox əyləndirirlər. Yeriyən quşlardan həm qaratoyuq var, həm də yırtıcı quşlar. Hirazın Şibam və Kahil dağlarında topa-topa gəzirlər. Məsar dağının ala qarğaları da gözlərimi qamaşdırır. Şirb vadisində xeyli ağacdələn tutdum. Bəni-Əhməd vadisindəki vəhşi arıquşlarının bağırıb çığırmaları insanın qulaq pərdələrini incidir. Gəzdiyim yerlərdə kor-koranə hərəkət etmirəm, oraların şəraiti ilə bağlı məlumat toplayıram. Ouz bölgəsi haqqında yazdığım “Land of Uz” (=bu kitab 1911-ci ildə nəşr olunub.) adlı əsərim olduqca dəyərlidir. Əgər oxusanız, məmnunluq duyarsınız. Zat-alilərinizə bir nüsxəsini təqdim edərəm. Adım Abdullah Mənsurdur. İngilis adım isə C.Ueyman Baridir (=G.Wayman Bury). Şərq dilləri içərisində ən zəngini olan ərəb dilini, öyrənmək üçün seçmişdim və bu düzgün seçimimdən xeyli məmnunam. Çünki bu dil mənə Haqq yolunu və doğru olanı öyrətdi. Mənə Haqqımın rizasını qazanmaqda kömək etdi, hidayətə çatdım və müvahhid oldum (=Allahın birliyinə inandım, tövhid dininə girdim), axirətimi qazandım. Bundan sonra ərəb millləti arasında yaşamağa, övrad və əzkari-Bari (=dualar oxumaqla Allahı zikr) ilə məşğul olaraq ruhumu təslim etməyə söz verdim. İndi də, gördüyünüz kimi, burada yaşayıram. Londonda qohumlarım, yaxınlarım və nişanlım vardır. Müstəmləkələrin ticarət və sənayesi ilə məşğul olan Henri Kimbert (=Henry Kimbert) ilə sosioloq Çarlz Buş (=Charles Bush) çox dəyərli dostlarımdır. Onlarla xəbərləşməkdən ötrü üç ayda bir kərə Hudeydəyə

gedir və konsulumuz Riçardsonun qonağı oluram. İnşallah geriyə dönüşünüz zamanı Hudeydədə sizinlə görüşmək şərəfi qazanaram, - dedi və icazə istəyərək bizlərdən ayrıldı.

Bu zaman Nəsir Paşa evimə gəlmişdi. Nəsir Paşa çox az danışır, təmkinli bir insan olduğundan qiymətli sözlər danışırdı. Mənə müraciətlə dedi:

- Mən sizin şübhələrinizi dağıdacaq və doğru məlumat verəcək bir adam tapdım, istəyirsiniz yanınıza göndərim.

Məmnunluğumu bildirdikdən sonra onun kim olduğunu soruşdum.

-Sözünü etdiyimiz Abdullah Mənsurun xidmətçisi və mühafizəcisi (=cangüdəni) taizli Məhmət Əlidir.

Axşamüstü Şeyx Naci və Məhmət Əli yanıma gəldilər. Yəmən əhlini danışdırmaqdan ötrü ona nargilə və qəhvə qabığı suyu təklif etmək, bəxşiş veriləcəyini hiss etdirmək gərəkdir. Bütün bunları etməklə bərabər güləruzlə ondan haralı olduğunu soruşdum. Taiz nahiyəsinin Qətəba qəzasıyla həmsərhəd Tanəb kəndindən və Dali sultanına tabe olduğunu, son beş ildə Abdullah Mənsurun xidmətində durduğunu, Şəfii məzhəbindən olub, Zeydiləri heç sevmədiyini açıb söylədi. Abdullah Mənsurun nə ilə məşğul olduğunu soruşdum. Şeytan xislətli bu adam belə cavab verdi:

- Öyrənmək, anlamaq və hətta iş görmək üçün gəzib-dolaşmaq, hər künc-bucağa girməyə çalışmaq lazım gəlir. Şeyx Abdullah Mənsur da bütün bunları edir və uzun məktublarla bütün gördüklərini mənsub olduğu yerə çatdırır. Təbii ki, mənim kimi cahil bir bədəvi onun niyyətlərini anlaya bilmədiyi üçün o da ağzını açıb bir

şey söyləmir. Sizə verəcəyim məlumat bu qədərdir. Ancaq Abdullah Mənsurun qəbilələr arasında və Ləhc ərazisində olarkən çəkdirdiyi və digər bəzi şəkilləri sizə verərəm . Bu şəkillər sizə xeyli məlumat verər.


Mr. Veyfel Missioner haci əfəndi


Fəthiye kalyonu


Sosioloq Çarlz Buş


Henri Kimbert

Ardından: “***Bir adamın evinin içindəki şeylərdən müttəli*** (=xəbərdar, agah – A.Y.) ***olmaq istəyən kəsin ev sahibi tərəfindən gözünün çıxarılması halal sayılar***”[7] hədisi-şərifini oxudu.

Doğrudan da, Abdullah Mənsur buqələmun kimi rəngdən-rəngə, cilddən-cildə girən bir adamdır. Mənahada gördüyüm zaman saqqalı vardı, başına çalma qoyurdu. Daha sonra Hudeydədə görəndə isə qəribə bir külahda və avropalı geyimindəydi. Gah ərəb kimi görünmək, gah da hər mənada ingilis olmaq insanda çox böyük aktyorluqdur. İnsanlar məqsədlərinə çatmaq üçün hər cildə girə bilirlər, hər şəklə və qiyafəyə uyğunlaşırlar. Halbuki ərəb və ingilis irqləri (=millətləri) arasında heç bir münasibət, heç bir bənzərlik yoxdur. Dilləri arasında zərrə qədər bənzəyiş mövcud deyildir. Məncə indiyə qədər ingilislər ərəbcədən, ərəblər isə ingiliscədən öz dillərinə bircə kəlmə də almayıblar.

İndi Bəhriyyə (=dəniz) işləri rəisi, əslən rizəli kapitan Mustafa bəyin başına gələnləri sizlərə anladım:

Qənaətimcə, bütün bunlar son dərəcə önəmli və yararlıdır. İyirmi beş il əvvəl eşitdiyim və yalnız vacib məqamlarını qeyd dəftərimə yazdığım bir hadisəni təfərrüatıyla xatırlamadığım üçün buradakı bəzi isimlərdə qarışıqlıqlar (=yanılmalar) ola bilər. Amma bu hekayə mənə nəql edildiyi kimi təqdim olunub. Ondakı yanlış da, doğru da birbaşa anladana məxsusdur.

Mərhum Mustafa bəy belə bir əhvalat danışmışdı:

"Sultan Abdulməcid xanın səltənəti (=hakimiyyəti) zamanı mən Dəniz qüvvələrində bölük komandiri idim. O zamanlar "Fəthiyyə" qalyonu (=yelkənli gəmisi - A.Y.) müəyyən mexanizmlərin montajından ötrü İngiltərəyə göndərildi. Onun heyətinə mən də daxil idim. İstanbuldan yola çıxıb, Cəbəllüt-tariq boğazından keçəndən sonra dəhşətli fırtına ilə rastlaşdıq. Bütün yelkənlərimiz yırtıldı, bütün iplərimiz qırıldı. Gəmi avadanlığının təxminən yarısı sıradan çıxsa da, kapitanımızın ustalığı sayəsində bəzi hissələri təmir etdik, gərəkli tədbirlər aldıq, min bir zəhmət və məşəqqətlə, bir çox təhlükələrdən keçərək İngiltərənin Britaniya adası sahilindəki Plimut (=Plymoth) limanına çatdıq. Köhnə dənizçilər yelkənli gəmiləri idarəetmədə usta idilər, hətta Sultan Mahmud xan zamanında İngiltərədən hədiyyə olaraq göndərilən "Tairi-bəhri" motorlu gəmisinə təyin olunan bir süvari (=gəmi kapitanı - A.Y.):

- Mən arabaçı deyiləm, gəmiçiyəm. Belə motorla çalışan gəmiyə kapitan ola bilmərəm, - deməklə vəzifəsindən istefa etmişdi.

O zaman dənizçilərdə əsl sənət və ustalıq, ən təh-

lükəli zamanlarda gəmini manevralar yoluyla sağ-salamat sahilə yanaşdırmaq və istənilən yerə çatdırmaq idi. Gəmimiz limana girib lazımi işlər bitəndən sonra gəmimizə iki ingiliz gəldi. Biri bığlı, digəri bığsız olmaqla, hər ikisi saqqalsız olan bu şəxslərin yaşları ən azı qırxı keçərdi. Bizə:

- “Xoş gəldiniz!” dedilər.

Türk dilində o qədər gözəl danışırdılar ki, hamımız buna heyran qaldıq. Bizə çox iltifat göstərdilər, hər birimizdən ayrıca hal-əhval soruşdular. Əsgərlərin arasında yazma-oxuma bilən təkcə mən idim. Yoldaşlarım içərisində ən ağıllısı və yaraşıqlısı da yenə mən sayılırdım. Elə buna görə də ingilislər mənə daha çox maraq və sevgi ilə yanaşırdılar. Bunlardan birinin adı mister Con (=John) idi. Bu Con mənə daha çox yaxınlaşır, daim söhbətləşməyə can atırdı. Bu adamların davranışı məndə maraq yaratdı. Nəçi olduqlarını, türk dilini harada öyrəndiklərini dəqiqləşdirməkdən ötrü mister Con ilə səmimi söhbətə başladım. Hətta ikilikdə sahilə çıxıb, Plimutun bazar və dükanlarını, görməli yerlərini gəzdik, bir kazinoda oturduq. Axşamüstü gəmiyə qayıtmaq üçün ondan icazə istədim. Cavabında:

- *Yaxşı, Mustafa əfəndi, - dedi, mən sabah gəlib, səni gəmidən götürərəm, şam yeməyini bizim evdə yeyərik. Madam Con və oğlum Ernest ilə sizi tanış edərəm. Daha sonra birlikdə teatra yollanarıq.* Mən: -Gündüz gəzintiyə çıxa bilərəm, amma axşam sahildə qala bilmirəm, çünki buna icazə yoxdur. dedim. Mister Con da:

-*Əgər elədirsə, onda bir neçə gün içində mən sizin üçün icazə aldıraram.*- dedi və ayrıldıq.

Mən gəmiyə qayıtdım. Aradan on beş gün keçdi.

Günorta yeməyindən bir saat sonra mister Con gəmiyə gəldi və kapitanımıza bir teleqraf verdi. Teleqraf Dəniz Qüvvələri Nazirliyindən idi və sənəddə gəminin xidmət heyətindən arzu edənlərin gecəni sahildə qalmalarına və hətta Londona qədər səyahət etmələrinə izin verildiyi açıqlanırdı. Londondakı səfirimiz bu əmri bizə rəsmən elan edəndən sonra biz də sərbəst gəzib-dolaşmağa və gecələri sahildə qalmağa başladıq. On beş gün içində İstanbuldan kimin belə bir əmr və ya razılıq almaq iqtidarında olduğunu heç cür ağlıma sığışdırmırdım. Hər şeyə rəğmən, mister Conun evinə getdik. Həyat yoldaşı madam Con və oğlu Ernest ilə tanış olduq. Yeməkdən sonra teatra getdik. Teatrdan çıxınca son dərəcə gözəl şəraiti olan bir otelin rahat otağında istirahət imkanı qazandım. Beləcə bir neçə gün keçdi. Bir gün mister Conla söhbət əsnasında türk dilini haradan öyrəndiyini soruşdum.

- Canım Mustafa əfəndi, necə də hər şeyə maraq göstərirsən, mütəcəssissən (=bilgiyə düşkünsən və ya təşnəsən - A.Y.). "***Bir millətin dilini öyrənən kəs onların tələlərindən xəbərdar olar***"[8] hədisi-şərifini nə tez unutdun?! Türklərin hiylə və tələlərinə düşməmək üçün bu dili öyrəndim, - dedi. Mən də:

- Siz türk dilində bir türk kimi danışırsınız, ingilis şivəniz heç hiss olunmur. Mənim marağımı körükləyən də məhz budur, - dedim.

- Elə isə sabah günorta yeməyindən sonra sənə macəramı anladaram, marağın səngiyər, - cavabını verdi.

Gəmiyə getdim, amma o gecə maraqdan yata bilmədim. Səhər açıldı. Gəminin göyərtəsində mister Conun gəlişini gözlədim. Günorta yeməyindən iki saat əv-

vəl mister Con filiqası (=qayığı, kateri - A.Y.) ilə gəldi və məni evinə apardı. Ümumi mövzularda bir az söhbət edəndən sonra marağımı söndürmək üçün onun macərasını dinləməkdə səbrsizləndiyimi dedim.

- Gündüz yeməyindən sonra bunu danışacağımı söz vermişdim, lütfən səbrli olun, - dedi.

Yeməkdən sonra mister Con bu sözlərlə söhbətə başladı:

- Əzizim Mustafa əfəndi! Protestant məzhəbinin dünyanın ən doğru və səhih məzhəbi olduğunu deyə bilmərəm, çünki hər kəs öz dinini daha doğru sayar, ona iman gətirər. Amma mövcud dinlərin ən asanı (insanı çətinə salmayanı), sərbəsti, sadəsi və ən çox mədəniyyətə yönəldəni protestant dinidir (=məzhəbidir). Protestantlığın hər cür nöqsanına rəğmən, onun yayıldığı istənilən qitədə düzən (=qayda-qanun, intizam - A.Y.), mükəmməllik və gözəl idarəetmə ilə rastlaşırıq, çünki bu məzhəbə mənsub olanlar çox əzmli və fədakardırlar. Xristianlığı sadələşdirən və bəzi zəif inancları ortadan qaldıran protestantlığın yayılması üçün ağla gələn hər şeyi etməkdə nə zərrə qədər gecikər, nə də səhlənkarlıq edərlər. Geniş bir təşkilat sisteminə malikdirlər. İngiltərədə xeyli qüvvətli, zəngin və son dərəcə fəal bir missionerlik cəmiyyəti (=dərnəyi) vardır. Bu dərnək təsəvvürünüzə gətirmədiyiniz dərəcədə böyük işlər görməkdədir. İngiltərə millətinin və hökumətinin bu dərnəyə dərin minnətdarlıq borclu olduğuna əmin ola bilərsiniz, çünki dörd yüz milyonluq bir xalqı (əhalini) İngiltərəyə bağlayan, onlara tanıtdıran məhz bu missioner dərnəyidir. Bununla yanaşı, ticarət və sərvət yığımında İngiltərəni hakim edən bu güc-

dür. Missionerlər Xalid bin Bərməkinin oğlu Fədlə aid olan və doğrudan da gözəl bir söz olaraq qəbul edilən "Qərarlı insan – əlindəkini qoruyan və bu günün işini sabaha qoymayan kimsədir" öyüdünə uyğun hərəkət etməyə məcburdurlar. Əllərində olanı gözəl şəkildə mühafizə etməklə bərabər, onlar bugünkü işlərini də sabaha saxlamaq fikrinə düşməzlər. Missionerlər hələ uşaq ikən xidmətə alınarlar. Yerinə yetirəcəkləri vəzifələrə uyğun olaraq onlar elm, əxlaq və düşüncə baxımından yetişdirilir. Belə ki, İngilis Missionerlik Cəmiyyəti hər il bütün Rüşdiyyə məktəbi şagirdlərinin (=yetirmələrinin) savadlılarından - təbii ki, bu məqsədlə atalarının razılığı alınmaq şərtiylə - ehtiyaca görə otuz-qırx nəfər seçərək öz himayəsinə alır. Onlar qabiliyyətlərinə görə üç-üç, beş-beş olmaqla, özlərinin seçdikləri dünyanın müxtəlif bölgələrinə göndərilirlər. Məsələn, ikisini Türkiyəyə, üçünü Nubiyaya və Sudana, dördünü Hindistana, üçünü Tibetə, beşini Rusiyaya və sair yerlərə səpələyirlər. Bu uşaqlar ölkəmizin həmin ölkədəki səfirlik və ya konsulluqlarına əmanət edilirlər. Bütün ingilis səfirlik və ya konsulluqlarında missionerlik cəmiyyətinin mükəmməl hazırlanmış bir təlimatı vardır. Uşaqlar məhz bu təlimatlara görə böyüdülür, tədris və təlim alır, yetişdirilirlər.

Mən və yoldaşım Herbert on yaşında ikən missioner cəmiyyəti tərəfindən İstanbula göndərilmişdik. Birbaşa səfirliyimizə getdik. Səfir məni səfirlikdə kavas (=kuryer – A.Y.) işləyən və Cihangir məhəlləsində yaşayan Əli ağaya tapşırdı və belə bir tapşırıq verdi:

- Əli ağa, bu uşağın adı İbrahimdir və sənin oğlundur. Hər kəsə belə söyləyəcəksən. Hər ay sənə on lirə

verəcəyik. Həmin pulla bu uşağı məhəllənizdəki məktəbdə oxudacaqsan və eynilə öz sulbündən (=nəslindən, zatından - A.Y.) olan övladın kimi yedirəcək, içirəcəksən, geyindirəcəksən. Adətləriniz necədirsə, elə də tərbiyə edəcəksən. Ayda bir dəfə gecə vaxtı onu səfirliyə gətirib, mənə göstərəcəksən.

Kuryer Əli ağa qolumdan tutaraq məni evinə apardı və arvadı Gülsüm xanıma tapşıraraq dedi:

- Bax, sənə hazır övlad gətirdim. Bunu böyüdəcəksən.

Alt paltarı, köynək və əntari (=xələtə bənzər qısa üst paltarı – A.Y.) tikdirib, əynimə geyindirdilər. Səliqəylə tikilmiş iki başmaq alaraq ayağıma keçirdilər. Bir gün ovcuma on paralıq kağız halvası (=vafli kimi incə və kövrək halva növü - A.Y.) qoyüb, məni məhəllə uşaqlarının arasına göndərdilər. Bir neçə ay sıxıntı çəkdim. Türkcə bilmədiyim üçün heç kəs mənə fikir vermir və “lal” deyirdilər, elə hey mənimlə məzələnirdilər. Evdə də, getdiyim məhəllə məktəbində də türkcədən başqa bir dildə danışan olmadığından, yavaş-yavaş qulağımı alışdırmaq yoluyla türkcəni öyrənməyə başladım. Axşamüstüləri evimizin önündə toplaşan uşaqlarla top oynamağa başladım. Bir il sonra məhəllə uşaqlarının başçısı olmuşdum. Məktəbdə də müəllim mənə diqqət yetirməyə başladı. Səsim gur və məlahətli olduğundan “Ammə”[9] cüzünü çox gözəl oxuyurdum, hətta onu əzbərləmişdim. Dərslərimdə xeyli bacarıqlı olsam da, bir az dələduz idim. Yaşıdlarıma nisbətən xərcliyim bir az çox olduğundan, vaxtaşırı çərəz və qırmızı şəkər alıb cibimə tökərdim. Sinif yoldaşlarımdan birisi “Quran” oxumağa başlayanda ağzıma bir meyvə və ya bir şəkər atıb, marçıltı ilə yeyirdim. “Quran” oxuyan uşaq da udqun-

maqdan oxuya bilməzdi. Bunu sezən müəllim əfəndi əlindəki çubuğu başıma endirmək istəyərdi. Həmin an cəld yana yatardım və çubuq zərbəsini böyrümdə oturan yoldaşıma hədiyə edərdim. Müəllim gözəl danışan, şirindilli bir şəxs idi. Heç yadımdan çıxmaz, bir dəfə o:

*O qədər yeyər, o qədər yeyər ki yemiş,*
*Boğular "Quran" oxurkən bizim bu heyvan İbiş*[10]

beytini oxuyaraq məni çubuqla döymüşdü də.

Müəllimimdən arada-sırada iltifat (=xoş rəftar – A.Y.) da görürdüm. Hətta bir neçə dəfə barəmdə sinif yoldaşlarıma: "Ay tənbəllər, içinizdə bu sarı ilan qədər çalışanınız yoxdur" kimi tərifli sözlər demişdi. Sözün qısası, bu yolla ilk məktəbi və Rüşdiyyə dərslərini tamamlayandan sonra Bəyazid məscidində şələbığ Əli əfəndinin "Halqayi-tədris" sisteminə (=tədris proqramına - A.Y.) daxil oldum. Cübbəm, çarıqlarım, çalmam çox gözəl, düzgün və təmiz idi. Yolda qarşılaşdığım insanların heç birisi mənə, bir kərə də olsun, "yobaz" (=fanatik dindar – A.Y.) demədi. Daima "Nə ağıllı uşaqdır!" deyirdilər. Təsbehim əlimdə, kitabım qoltuğumda evdən məktəbə, məscidə və dərsxanadan evimə gedib-gəlir, gecələr dərslərimə hazırlaşırdım. Qısa və sarı saqqalımı daramaqdan ötrü şəmşir darağım, dişlərimi təmizləmək üçün kiçik misvaqım cibimdən və divitim (=yazı ləvazimatlarım – A.Y.) isə belimdən əskik olmazdı. Anam Gülsüm xanım məni yatırana qədər yuxulamaz və daim zehin açıqlığı üçün dualar edərdi. Əli ağanın övladı olmadığından mən Gülsüm xanımın öz övladı, daha doğrusu, gözünün nuru idim. Sərf, nəhv, əvamil, qafiyə, məntiq, təsəvvürat, təsdiqat, kəlam, fiqh, təfsir və bu kimi bir çox mövzulardakı kitabları sıra

ilə oxuyub, öyrəndim. Yoldaşlarım arasında oxuyanlar xeyli çox idi. Amma öyrənənlər bir neçə nəfər idi. Fransız dilini öyrənmək həvəsinə düşdüm. Dəllal oğlu Dikran (=Tiqran – A.Y.) əfəndi adlı bir erməni tapdım. Bu adam həm türkcəni, həm də fransızcanı yaxşı bilirdi.

Vaxtaşırı bu adamın evinə gedib, dərs almağa başladım. Tədris metodu o dərəcədə gözəl və mükəmməl idi ki, qısa bir zaman içində fransızca danışmağa başladım. Ərəb dili dərslərində sinif yoldaşlarım arasında birinci idim. Müəllimə bəzən elə suallar verirdim ki, o, belə çətinlik çəkirdi. Nəhayət adıma bir zəkilik əlavəsi taxıldı, çalışmam təqdir olundu və buna görə hörmət qazandım.

Məsciddəki dərslərimi tamamlayaraq icazət sənədi (=diplom – A.Y.) aldım, yəni sünni bir müdərris (=din xocası və ya müəllimi) oldum. Yaşım artıq otuz idi. İstanbula gəlib, icazət aldığım günə qədər hər ay bir kərə gecə vaxtı səfirliyə gələr və səfirimizin iltifatına layiq olardım. İngiliscə, fransızca, türkcə, ərəbcə yazıb-oxuduğum üçün "Babi-Ali"yə daxil oldum. Xarici İşlər Nazirliyinin Tərcümə şöbəsinə məmur olaraq işə alındım. Maaşım 500 quruş idi. Bir gün İngiltərə elçisi Sədrəzəm (=Baş nazir) Rəşid paşanı ziyarətə gəlir. Söz arası səfirliyin kuryeri Əli ağanın oğlu İbrahim Zəki əfəndinin 500 quruş maaş qarşılığı "Babi-Ali"də vəzifə aldığını müjdə ilə xəbər verir və "Məmnun oldum, təşəkkürlərimi bildirirəm" deyir. Sədrəzəm Paşa da: "Tərcümə şöbəsinə bir neçə katib alıblar, onlardan hansı olduğunu bilmirəm. Gəlin, çağıraq və bir görək onu" buyurur. Məni hüzurlarına çağırdılar. Rəşid paşa mənə iltifat göstərdi və o gündən etibarən mən həmişə irəli çəkildim. Siyasi və xarici işlər-

də məndən istifadə etməyə başladı. İngiltərə səfirliyi ilə bağlı ümumi və xüsusi işlərdə daim oraya məni göndərirdilər. Az müddətdən sonra maaşım 2000 quruşa qalxdı və Xarici İşlər Nazirliyinin Tərcümə şöbəsinin baş məsul katibi oldum. Missioner cəmiyyətindən gələn bir əmrə əsasən, Londona dönməm lazım gəldi. Saqqalımı və bığımı qırxdırdım, elmi qiyafətimi (=geyimimi) çıxartdım. Bir Avropalı qiyafətinə girdim, başıma bir şlyapa taxdım, dəyərli iş yoldaşlarıma vida edib, İngiltərəyə döndüm. Məni yeni cilddə görən köhnə tanışlarım çaşqınlığa qapılırdılar.

Missionerlik cəmiyyətindən Herbertə verilən tapşırıq isə Bəktaşilik təriqətini öyrənmək olduğundan o da mənim kimi yetişdirilmişdi, yəni Sünniliyə, dörd məzhəbin künhünə (=əsaslarına - A.Y.) vaqif olduqdan sonra Konyaya göndərildi. Bu yoldaşım ingilislərə yerli-dibli zidd olan, nəşəli, deyib-gülən birisiydi. Rind məşrəbliyi (=düşüncə və yaşam tərzini - A.Y.) sevirdi, gecə həyatına bayılırdı, dünyəviliyə önəm verməzdi, kimsənin əleyhinə ağzını açmaz, hər şeyi “eyvallah” (=”Allah kərimdir”) deyərək xoş qarşılayan bir adam olduğundan yaradılışdan bəktaşi idi. Şeyxə hədsiz maraq göstərən Herbert türkcə, ərəbcə və farsca bir çox qəsidələr, mərsiyələr, mədhiyyələr əzbərləmişdi. Yeri gəldikcə onlardan birisini oxuyardı.

Mister Herbertin müsəlmanca adı Mehmet Əli idi. Mehmet Əli hər axşam qəhvəxana və bozaxanalara (=boza satılan dükan. Boza – arpa, darı, buğda və qarğıdalı unundan yoğrulmuş xəmirin turşuması nəticəsində alınan qatı, şirin və ya meyxoş tamlı içki - A.Y.) baş çəkərdi. Orada qarşılaşdığı adamlarla dostluq qurmuşdu, çünki Türkiyədəki meyxanalarda bir-iki qədəh rakı içdikdən sonra insan önünə

gələnlə dost olar. Herbert, demək olar ki, hər gecə dostlarına qonaqlıq verirdi və bu yolda xeyli pul xərcləmişdi. Xüsusilə də beyinlər bir az dumanlanandan sonra Herbert bütün ustalığını və bacarığını ortaya qoyar, oranın daimi müştərilərinin ("corde vibrante") zəif nöqtələrinə toxunan sözlər söyləməyə başlar, ardından isə bir-iki mərsiyə oxuyardı. Herbertin hər halı dostlarının sevgisini qazanmasına, qəlblərində məhəbbət oyanmasına səbəb olurdu. Bir gün ərənlərdən biri ona: "Adına qurban olum, Mehmet Əli, imanım! Sən anadangəlmə hal əhlisən və xam ərvahlar (=ruhən yetkinləşməyənlər - A.Y.) arasında yerin yoxdur. Nöqsanın isə nəsibini almamağındır. Haydı, gəl, bir pirə gedək. O mərasimi də edək hər şey olsun və bitsin." Oradakılar bu təklifi alqışla qarşılayırlar. Herbert, yəni Mehmet Əli də: "Haydı, gedəlim, canıma minnət olsun. Əhli-beytə, Ali-əbaya mənim canım fəda!" dedi. İki-üç gün içərisində gərəkli yemək tədarükü görüldü və hədiyyələr alındı.

Manqırlar (=xırda pul – A.Y.) ehtiyatı hazırlandı və dostlar pirə getdilər. Ayinlər icra olundu. Herbert, yaxud Mehmet Əli, Bəktaşi təriqətinə intisab etdi. (=girdi). Sonralar təriqətdə "xəlifə" dərəcəsinə qədər yüksəldi. Herbert burda idi, hətta gəminiz Plimuta gəldiyi zaman sizin ziyarətinizə birlikdə gəlmişdik. Bir həftə öncə o, işiylə bağlı Londona yollandı. Onunla, inşallah, Londonda görüşəcəyik. Bax, missionerlər belə yetişdirilirlər. Hindistanda, Çində, Bəlucistanda, hətta o çətin Əfqanıstanda, Afrikada, Amerikada, Avstraliyada və bu qitələrin ən ucqar guşələrində, adalarda, bir sözlə, dünyanın hər nöqtəsində olan, bizim kimi yetişdirilən, oralardakı məzhəblərin, yerli adətlərin, inancların bilicisi və şahidi olmuş bir

çox məlumatlı insanın bir araya gəlməsiylə meydana gəlmiş bu cəmiyyətə “missionerlik cəmiyyəti” deyilir. *Bu cəmiyyətin ilk baxışdakı vəzifəsi - protestantlığı yaymaq və təbliğ etməkdirsə, gizli missiyası - ingilis siyasətinin çıxarlarını (=mənafelərini) təmin etməkdən ötrü araşdırmalarla və təşviqlərlə (=həvəsləndirmələrlə – A.Y.) məşğul olmaqdır. Mustafa əfəndi, bunu yaxşı bil ki, nə bir insan, nə də hökumət özəlliklərini və durumunu heç bilmədiyi bir torpaqda, əxlaq və adətindən xəbərsiz olduğu bir qövm (=xalq) və qəbilə arasında uzun müddət qala bilməz. Çünki tarixən sübuta yetirilmişdir ki, kor-koranə istila (=işğal) edilən yerlərin əldə saxlanması çətindir. İngiltərə ələ keçirdiyi yerlərə çox gözəl bələd olduğu kimi, istila edəcəyi qitələri də öncədən incələyərək öyrənir, ondan sonra siyasi alətlər vasitəsilə planlarını qurur və uyğun zaman yetişən kimi bir göz qırpımında oranı işğal edir, həmin qitəyə girdiyi zaman tanımadığı bir evə deyil, öz doğma evinə girərmiş kimi girir. Sizin də bilməniz gərəkdir ki, Məhəmməd həzrətləri də qonşu qəbilələri və hökumətləri araşdırmışdır. Buna misal olaraq deyə bilərəm ki, kəşfiyyat üçün o, həm Hudeybiyyə müzakirəsinin davam etdiyi on gün içində Məkkəyə, həm də Bədr müharibəsindən öncə Şam şəhərinə Huzəə qəbiləsindən bir çox kəşfiyyatçı göndərmişdi. Bu ənənə müsəlmanlar üçün məşru (=qəbuledilən- A.Y.) olduğu halda, onların tənbəlliyi ucbatından unudulmuşdur. İngilislər isə faydalı şeyləri əsla unutmaz, ona səhlənkarca yanaşmazlar, heç bir ayrı-seçkilik aparmadan bütün dahi insanların tövsiyələrini qəbul edərlər. İngilislər soyuqqanlıdırlar, hərəkətləri də ləngdir, özlərindən başqa heç kəsi bəyənməzlər. Amma hər işdə əvvəlcə uzun-uzadı dü-*

*şünülmüş bir proqram çərçivəsində hərəkət edərlər. Həmişə uğur qazanıb-qazanmadıqları barədə bir şey deyə bilmərəm. Əmin ol ki, yüz il sonra görüləcək bir işin planı artıq bugün düşünülüb hazırlanmışdır. Bu cür işlərdə isə missionerlik cəmiyyətinin çox böyük xidməti olur*" dedi.

Bu hekayəti dinləyərkən bir dənizçi kimi içimdə ingilislərin ünvanına o qədər söyüşlər yağdırdım ki, çoxusu heç xoruz səsi eşitməmişdi. Biz yuxudaykən ingilislər işləyirlər. Oyandığımız zaman isə "məhsullarını" bazara çıxardıqlarını görürük.

Bir gün bütün xərcləri mister Cona aid olmaq şərtiylə Londona getdik və xeyli təntənəli (=lüks) bir otelə yerləşdik. Mister Conun oğlu Ernest də bizimlə idi. Bu ağıllı uşaq yanımdan ayrılmaz və addımbaşı mənə: "*Mustafa əfəndi, atam səni çox sevir. Nə olar, Allahın lütfünə və mükafatına yetişmək üçün protestant ol da! Dünyada protestantlıq qədər asan bir din (=məzhəb) yoxdur*" deyirdi. Mən də: "*Protestantlığın nə olduğunu öyrənmədən dinimi necə dəyişdirə bilərəm? Qoy bir araşdırıb öyrənim, doğruluğuna inansam protestant olaram*" deyirdim. Mister Con missionerlik təşkilatına baş çəkib, yüksək vəzifəli şəxslərlə görüşdü və otelə qayıtdı. Axşamüstü missioner cəmiyyətinin sədri, daha öncə adını andığımız Herbert və digər bir şəxs ziyarətimizə gəldilər. Üçüncü şəxs missioner cəmiyyətinin Farmason şöbəsinin müdiri imiş. Bu adamlar bizi sabahısı gün missioner cəmiyyətinin rəsmi ofisinə dəvət etdilər. Ofisi ziyarət edəndən sonra axşamüstü cəmiyyət sədrinin evinə gedəcəyimizi və şam yeməyini orada yeyəcəyimizi anladım. Sədrlə Farmason şöbəsinin müdiri getdilər. Herbert və mister Con yanımda qaldılar. Söhbətə başladıq. Mister Herbertdən sədrin adı-

nı soruşdum. O da: “Bunların biri mister Botinqress (=Botingress)”, digəri isə mister Uolsteddir (=Wohlstead). Mister Botinqress söyləyəcəyi kəlmələri ölçüb-biçən, özünü tox tutan bir şəxsdir, Hindistanda təhsilini başa vurub, Sırtilərlə[11] çox oturub-durub, qucerat və hind dillərini çox gözəl öyrənmişdir. 1810-cu ilə qədər Hindistanda bir çox səyahətlər etməklə araşdırmalar aparmış, gözəl və dəyərli bir əsər yazmışdır.

Hindistanda cürbəcür dillərdə danışırlar. Onlardan nisbətən çox tanınanı bunlardır:

**1**. Hindu
**2**. Pəncabi
**3**. Bihari
**4**. Sindi
**5**. Mərvari
**6**. Məratihi (=Marathi)
**7**. Kuçi
**8**. Qucerati (=Qucarati)
**9**. Haləbi
**10**. Oriya
**11**. Benqali
**12**. Urdu
**13**. Əsamis
**14**. Təmuli (=Tamil)
**15**. Teluqu
**16**. Künuri
**17**. Malayam (=Malayal)
**18**. Tulu
**19**. Qondi (=Konet). (Sadalanan bütün bu dillər Hind-Avropa dilləri ailəsinə aiddir. “Hind dilləri” və ya “Hind-Ari dilləri” də adlandırılırlar – A.Y.)

Təkcə Hindistanda deyil, dünyanın istənilən nöqtəsində iş görməkdən ötrü hər şeydən əvvəl o yerin dilini öyrənmək şərtdir. Məsələn, Hindistanda xalqın səksən yeddi milyonu hindu dilində, iyirmi milyonu məratihi, qırx beş milyonu benqali və on altı milyonu teluqu dilində danışır. Bunlar arasında təbliğat aparmaq üçün isə ən azı dillərini bilmək lazımdır. Buna görə də ingilis missionerləri bütün Hindistan dillərinə bələddirlər, çünki iki yüz milyondan çox bütpərəst və səksən milyon nəfər müsəlman əhaliyə sahib nəhəng Hindistanı üç milyon xristianın idarə etməsinin nə dərəcədə müşkül bir iş olduğunu siz də etiraf edərsiniz. Hindistanda Əmir Qasımın, Qəznəli Mahmudun, Şəhabəddin Gurinin, Qütbuddin Aybəkin, Şəmsəddin Altamışın, Sultan Bəlbinin və Şir Şahın təlqin etdikləri dini hissiyyat, Humayunun, Cahangirin və şah Cahanın xalqa aşıladıqları məzhəb təəssübü, Babur şah, Aləmgir, Şahalim Bahadır, Fərrux Şir və Mehmed şah kimi "*Şaribul-leyl vən-nəhar*" (=gecə-gündüz içkiyə qurşanan) hökmdarların yaydığı fəsad qarşısında, ötəri də olsa yenilsə belə, yenə də bunların önünə keçmək xeyli çətindir. Müsəlmanlar bütpərəstlərə nisbətən daha çox diqqəti cəlb edirlər. Müsəlmanlar birlik içindədirlər. Bütpərəstlər isə öz aralarında beş min məzhəbə ayrılıblar.

Mister Uolsted isə 1829-35-ci illərdə Turi-Sina (=Sinay) yarımadasında Ərəbistan və Nuqya tərəflərini gəzib-dolaşmış, Umman ilə Hədrəmavtda xeyli işlər görmüşdür. Ərəbcə və nobicə (=nubicə) çox gözəl danışır. Uolsted o qədər kətum (=qapalı - A.Y.) bir adamdır ki, sizə adını belə söyləmədi. Gözlərinin xeyli parlaq və qaynar

olması isə dərin zəkasının bir əlamətidir. O bölgələrin coğrafi durumu, mədəniyyəti və biblioqrafiyası haqqında yazdığı kitablar İngiltərədə böyük maraq oyandırmışdı. Eyni zamanda o bacarıqlı bir rəssamdır.

Bu şəxslərin hər ikisi yetmiş yaşlarını geridə qoyublar. Mister Con qədər boşboğaz bir adam yoxdur. Həm öz macəralarından, həm də mənim bioqrafiyamdan bəhs etdiyini özündən eşitmişəm. Nələri söylədiyini bilirəm. Qalanını mən söyləyim, çünki həm qısa, həm də mənalıdır. Əzizim! Ərəblər "*Sirrini qoruyan kəs işinə hakim olar.*"deyirlər. Dərvişlərdə də belə bir şərt var: "*Sər* (=baş) *vermək olar, amma sirri əyan eyləmək* (=hamıya yaymaq) *olmaz*." Bunları sizə xatırlatdıqdan sonra deməliyəm ki, bəktaşilik ilə protestantlıq arasında bənzərliklər vardır. Baxın, bizlər "uknum"a ("uknum" sözü ərəbcə "əsas, mahiyyət" deməkdir, amma burada "üçləmə", "təslis" mənası daşıyır - A.Y.) inanırıq, "Ata, oğul və Ruhül-Qüds (=müqəddəs Ruh) birdir" deyirik. Bəktaşilər isə "*Allah, Məhəmməd və Əli birdir*" deyirlər. Bizim on iki həvarimiz (=apostolumuz – A.Y.) vardır, bəktaşilərin isə on iki imamı.

*Qəddi yarə kimi "arar" dedi, kimi "əlif",*
*Hər kəsin məqsudu bir, amma rəvayət müxtəlif.*

(Yarın qəddini (=boyunu) kimisi sərv ağacına, kimisi əlif hərfinə bənzətdi. Bunda hər kəsin məqsədi bir olsa da, özünüifadə tərzi, təhkiyəsi fərqli oldu.)

"Təvəlli və təbərri[12] üzərində ikrar (=razılıq, etiraf - A.Y.) verdik. Mürşidim - Allah və Əlidir, rəhbərim - Məhəmməd nəbidir. Üçünü birgə tanıdıq, birgə gördük və bir bildik. Biri üç kimi öyrəndik, buna tapındıq, üç düyünlü kəmənd taxdıq, mürşidə arxalandıq. Anladınızmı? Mən, bir mis-



Missioner Mr. John



Mr. Welsteand

sioner olsam belə, bəktaşiliyimi kimsəyə vermərəm. Onsuz da isimlər və cəsədlər (burada: bədənlər, vücudlar – A.Y.) ayrıdır, ruh isə birdir" dedi.

Sabahısı gün səhər tezdən mister Con, mister Herbert və Ernest ilə birlikdə missioner cəmiyyətinin böyük binasına yollandıq. Botinqressin otağına keçib, onunla görüşdük. Bu bina bir neçə iri bölməyə ayrılmışdı. Hər bölmə də ayrıca bir dinə ayrılmışdı. İslam bölməsinin çoxlu şöbələri vardı. Sünni məzhəbi qisminin dörd şöbəsi, ələvi, yəni şiə qisminin isə iyirmi beş sektoru vardı. Hər təriqət üzrə xüsusi missioner mövcud idi. Hər şöbənin özünəməxsus kitabxanası və iclas zalı vardı. İndiyə qədər çapdan çıxan bütün elmi əsərlər bu kitabxanalarda toplanmışdı. Hətta burada əllə yazılmış yüzlərlə ərəbcə dini kitab qorunmaqdaydı. Ceyran dərisi üzərində yazılmış bir neçə "Qurani-Kərim"i öz gözlərimlə gördüm. Onların birini əlimə alıb, üzümə və gözümə sürtdüm. Doğrusu bu kitabların bu cür kirli əllərə düşdüyünə görə ağladım. Hətta mister Con "*Vay! Mus-*

*tafa əfəndi, sən bu dərəcədə mütəəssibsənmi? Elə isə səni heç cür yola gətirə bilmərik*" dedi. Digər bölmələri də gəzdik.Adlarını o vaxtadək eşitmədiyim bəzi məzhəblər də varmış. Bir dənəsi xatirimdə qaldı ki, o da "Zərdüşt" (=Zoro Aster) adlı bir şəxsin ortaya atdığı bir məzhəb imiş və adına "məzdəizm" (= məzdəkizm, məzdəkiyyə, məzdəkilik – A.Y.) deyirlər. Bu məzhəbin tərəfdarları iki tanrının var olduğuna inanırmışlar. Onların inandıqları bu tanrıların birisi xeyirxahlıq, digəri isə şər tanrısı imiş, buna çaşıb qaldım. Dedilər ki, bu dinə mənsub olanlar atəşə sitayiş edirlər.

- "*O halda bu, bizim "atəşpərəst", yəni "məcusi" kimi tanıdığımız dindir*" dedim. Oradakı missionerlərdən biri mənə geniş məlumat verərək belə dedi:

- Türklər arasında "Zərdüşt" adlandırılan və qədim iranlıların şərii (= şəriətə görə, din qanunlarına görə – A.Y.) lideri sayılan Zoroastre adlı şəxsin insanlar arasında təbliğ etdiyi məzhəb (=din) haqqında bildiklərimi qısaca belə açıqlayım: "*Bəli, bu din - sizin bildiyiniz məcusilikdir (=atəşpərəstlikdir, oda və Günəşə tapınmadır – A.Y.). Kəyanilərdən Küştəsbin hakimiyyəti dövründə Bəlxdə meydana çıxıb. O zamana qədər bəzi divlərə (=cinlərə, pərilərə, şeytanlara) ibadət edər, sitayiş edərdilər. Bu adam onları ortadan qaldırdı, biri nurla gündüzdən ibarət olmaqla xeyirə dəlalət edən, digəri isə qaranlıqla gecədən ibarət olmaqla yaman (=şər) işlərə qaynaq olan Hürmüz və Əhrimən adlı iki ünsürə inanmağı insanlara təlqin elədi. Bu inancın əsaslarının və hikmətli öyüdlərinin bir arada toplandığı "Zənd" adlı kitab yaratmışdır ki, "Avesta" isimli şərhi (=açıqlaması) ilə birlikdə "Zəndavesta" adı altında bugünkü gün məcusilərin müqəddəs kitabıdır.*

*İran şahı Küştəsb Zərdüştün dinini qəbul elədikdən sonra həm özü, həm də oğlu İsfəndiyar bu dinin İran ərazisində yayılması üçün çalışdılar. Amma bu zaman "Turanilər" adlandırdıqları siz türklərlə bir çox savaşlar apardılar. Bu savaşlardan qalib çıxdıqları üçün saysız-hesabsız atəşgahlar inşa etdirdilər. Zərdüştdən öncə də iranlıların böyük bir qismi ulduzlara sitayiş edən səbiilər olublar.*

*Zərdüştə gələndə isə, bu adam əslən hindli idi. Brahmanların "Deva" adı altında ibadət etdikləri bir çox tanrını inkar etdiyinə və onları şeytan saydığına görə məmləkətindən qovulmuşdu. Onunla birlikdə qovulan yüz əlli nəfərlə Bəlx qəsəbəsinə yerləşəndən sonra çox bacarıqlı bir rəhbər (=idarəçi) olduğuna görə Küştəsb tərəfindən yaxşı qarşılanır və yeni məzhəbini İranda yaymağa nail olur. Onun "Zənd" kitabı sanskrit dilində yazılmışdır. Zərdüştün məzhəbi "Xüləfayi-kirama" (=böyük xəlifələr sırasına) daxil olan Ömər əl-Faruqun, yəni Ömər həzrətlərinin zəmanəsinə qədər İranda qüvvədə olub, etibar qazanıb. Səd bin Əbu Vəqqas tərəfindən İran ələ keçirilib bir İslam ölkəsinə çevrilincə, Zərdüştün dini də silinib getdi. Bir qisim iranlılar məcusiliyi tərk etməyərək Hindistana köçməyi üstün bildilər və bugünkü gün də Hindistanda onlara "parsi" deyirlər. Bunlar zərdüştlük dinini mühafizə etməkdədirlər. İranda qalanlar isə tamamən müsəlmanlığı qəbul etdilər. Bu məcusilər kainatın yaradıcısı olan Allahı yaxşılıq (=xeyir) tanrısı, şeytanı isə yamanlıq (=şər, pislik) tanrısı sanırlar. Onlar hər ikisi eyni gücə malik olan bu tanrıların bir-birini yox edə bilmədiklərinə inanırlar. Allah təala ilk əvvəl nuru yaratdığından və işıqla od (=atəş) da nurun tərkib hissəsi sa-*

*yıldığından məcusilər bunlar vasitəsiylə xeyir tanrısından niyazda (=istəkdə) bulunurlar.*”

Mən də: - Üç tanrıya da, iki tanrıya da inananlar var. Əsl mərifət isə tək Allaha, *“Onun heç bir tayı-bərabəri olmadığna*” inanmaqdır dedim.[13]

Mister Con bu ara söhbətə qoşularaq dedi:

- Doğru deyirsiniz, Mustafa əfəndi, biz nə qədər fədakarlıq göstərsək də, ildə Afrika müsəlmanlarından yalnız beş-on nəfərini protestant edə bilirik. Bu qarma-qarışıq “üçlüyün”[14] birliyini, vəhdətini onlara anlatmaqda çətinlik çəkirik. Sizin “Allah birdir” deyərək etdiyiniz təlqinlər daha uyğun və ağlabatandır və buna görə də minlərcə dinsiz birdən-birə müsəlman olur. Yalnız bunu deyə bilərəm ki, əlinizdə belə bir güc var ikən Anadolunun göbəyində (=mərkəzində) yaşayan və “Mələk Tovuz” adıyla şeytanın təmsilçisi sayılan, tuncdan tökülmüş xoruza sitayiş edən yəzidiləri siz hələ də müsəlman edə bilməmisiniz.

“Ey bəxtəvərliyin qaynağı!” deyərək fərcə (=qadının cinsi orqanına) sitayiş edən Nusayriləri[15] də heç cür yola gətirə bilmədiniz. Altı dövrəyə kainatı yaradıb, göylərə yüksələrkən bir fırtına və boran tərəfindən sonsuz sayda parçalara ayrılıb cismən məhv olan xəyali bir tanrıya sitaiyş edən və aralarında Allahın təcəllisinə (=zühuruna) ən çox uyan, yəni o sonsuz zərrələrin böyük qisminə sahib olan ən ağıllı bir adamı tanrı sayan dürzilərə də dərdinizi anlada bilmədiniz.

Finikiyalılar zamanından qalma bəzi inanclara sitayiş edənləri islah edə bilmədiniz. Öyrədə bilmədiyiniz daha nələr vardır?! Amma başınızı ağrıtmaqdan çəkindiyim üçün sözümü qısa kəsmək istəyirəm. Pey-

ğəmbərlərin varisləri olduqlarını iddia edən alimlərinizin qüsurları xeyli çoxdur. Bununla bərabər onların oyanmaları bizim zərərimizə yol açacağından qəflətdə qaldıqlarına görə onlara təşəkkür edirik. Əslində isə onlar "***Alimlər - peyğəmbərlərin varisləridir***"[16] hədisinə uyğun davranmalıdırlar. "Qurani-Kərim"də "*Allah kitab əhlindən: "Siz onu (kitabda olanları) gizlətməyib, insanlar üçün aydınlaşdırmalısınız!" deyə əhd almışdı. Onlar (tezliklə) bu əhdə arxa çevirdilər və onu az bir qiymətə satdılar. Onların bu alış-verişi necə də pisdir!*" [17] deyə bir ayə vardır, amma onu heç oxumurlar.

Mən yavaş-yavaş uknum (=təslis və ya üçləmə) inancının başqa bir şəklə düşməsi üçün mübarizə aparmaq lazım gəldiyi fikrindəyəm. İkinci bir reform (=islahat) zamanı bu xüsus düzəldilmiş olacaqdır. Nə edək ki, qəlblərdə yerləşmiş iman, beyinlərdə oturmuş etiqad asanlıqla silinmir. İndi bizlərdən birisi belə bir fikrə düşsə, dəhşətli hücumlara və lənətlərə hədəf olar. Gələcəkdə olacaq proseslər bu məsələni araşdıranların sayını artıracaq, bu xüsus da hər halda daha sağlam bir təmələ oturdulacaqdır. Ah, alçaq dünya! Necə də insanları səhv yollara çəkib aparır. Mənfəəti-beytiyyə (=ev dərdi, ailə dərdi) onların keçimini (=dolanışığını) təmin etmə əndişəsi, şəxsi qazanclar, doğrusu, dünyamızın sakinlərini yalançılığa sürükləyir. Dinlər isə, gözəl əxlaq və haqq yolunu göstərmələrinə, öyrətmələrinə rəğmən, adətən bir qazanc mənbəyinə çevrilirlər.

"Bildiyimiz Allahın, təsəvvür etdiyimiz Yaradıcının və Qadiri-mütləqin kitabı birdir və o, dəyişdirilməməlidir. Hərçənd müqəddəs kitablardakı ayələrin, göydən enmə səbəbləri diqqətlə izah edilməlidir, çünki "Bunla-

rın hamısında bir hikmət var" deyirlər. Mən anlamıram. Mən bizim "İncil"imizdən bəhs etmirəm, çünki o, İsanın tərcümeyi-halını (=bioqrafiyasını) açıqlayan vərəq parçalarından başqa bir şey deyildir. İsanın öyüdləri üç bab (=bölüm) şəklində yazılmış bir neçə maddədən ibarətdir və bunlar da Allahın deyil, Allahın oğlunun həvarilər (=apostollar) tərəfindən nəql olunan kəlamlarıdır.

"Matta (=apostol Matfey – A.Y.) İncili"inin beşinci hissəsinin 17-ci ayəsi belədir: "*Zənn eləməyin ki, mən şəriəti və ya peyğəmbərləri aradan qaldırmaq üçün gəldim. Gəlişimin səbəbi - onları tamamlamaqdır. Ona görə də sizə gerçəkdən deyirəm ki, yer ilə göy yox olmadığı müddətcə və şəriətin cümləsi (=hamısı) tamamlanana qədər ondan bir hərf və nöqtə yox olmayacaqdır*." Bəli, Məryəm oğlu Məsihin sözləridir bu. Bəlkə də başqa tip öyüdləri də olacaqdı. Neyləyəsən ki, mühiti buna uyğun deyilmiş. İsa Məsih də məcbur qalıb, özünü "Tövrat"dan ayırmırdı. Müqəddəs kitablar biri-birindən alınma xeyli əmrləri daşıyır. Mən də bu gün, eynilə Məsih qədər qorxaraq bunları dilimə gətirirəm. Sözlərim kənardakıların qulağına çatarsa, vəziyyətim pis olar. Məryəm oğlu İsa Məsih, yaxud da İsa Məsih - Yusifin davamçısı, həm də Davudun ardıcılı, İbrahimin yetirməsi bir filosof və bir sosialist idi. Və o:

- "*Birisi sənin sağ yanağına şillə vursa, sən digər yanağını ona çevir, qoy ona da vursun. Səninlə dalaşıb, köynəyini almaq istəyənə cübbəni (=üst geyimini) də ver. Səni bir mil getməyə məcbur edən birisiylə iki mil get. Dilənənə sədəqə ver, səndən borc istəyənə arxanı çevirmə. Düşmənlərinizi sevin, sizə qarğış edənlərə xeyir-dua edin. Sizə buğz (=ədavət) edib, kin bəsləyənlərə*

*yaxşılıq edin. Sizi incidənlərə lütf və kərəm ilə cavab verin*" deyirdi.

Bunların heç birisi pis öyüd deyil, təəssüf ki, bir dənəsini belə yerinə yetirən yoxdur. Onda İsanın necə doğulduğu, hansı şəraitdə böyüdüyü və nələr edib, nələr söylədiyi barədə yazılan, bunlardan bəhs edilən bir kitab necə Allahın kitabı olar?! Xüsusilə də müəllifləri Matfey, Mark, Luka və Yuhənna (=İohann – A.Y.) olan bu kitablarda "*Allah belə əmr edir, belə davranın*" deyilmir! İsa Allahın oğludursa, həvariləri də peyğəmbər saymaq lazımdır. Təbii ki, İsa peyğəmbərlikdən tanrılığa yüksəlincə[18] onun davamçıları da vəlilikdən (=övliyalıqdan) peyğəmbərliyə yüksəlmiş olurlar. Bu şəxslərin də öz adlarından yazdıqları risalələr "İncil"də "Rəsulların əməlləri" başlığı altında təqdim olunub. Bu risalələr bəzi fəlsəfi görüşləri ehtiva edir. Hansı şəkildə yazılırlarsa-yazılsınlar, hər nə şəkildə olurlarsa-olsunlar, bunlar hamısı insan mətnidir. Mən Allah kəlamını başqa cür təsəvvür edirəm. Amma insanlara təsəlli vermək üçün hər hansı dinə ehtiyac vardır. Hətta J.J.Russo "*İnsanlara doğru yolu göstərmək üçün tanrı olmasaydı belə, onu uydurmaq lazım gələcəkdi*" demişdir.[19]

"Tövrat" kitabı isə uydurma bir tarix ilə Musanın on əmrini özündə əks etdirir. Kainatın ömrü məsələsində verdiyi zamanı geoloqlar rədd edirlər. Canlıların yaranması ilə bağlı ortaya atdığı fikirlərə qarşı bütün alimlər etiraz edirlər. "Zəbur"a gəlincə, insan onu oxuyarkən üzü qızarır. Lutun doğma qızlarıyla yaxınlığını heç bir müqəddəs kitaba yaraşdırmaq olmaz. Əmin ol ki, bütün bu dediklərim gərgin araşdırmalar sonucu və aldığım ilk tərbiyənin təsiriylə formalaşıb. Taleh və qədər mənim

indiki məsləki seçməmə səbəb oldu. İngilis olmam bu məsləkdə çalışmamı tələb edir. Ona görə də öz məsləkimi hər vəchlə sizə tanıtmağa can atıram” dedi.

Mən də ona bu beytləri oxudum:

*“Haqq daima üstündür, iftiraya kimsə baxmaz.*
*Allah böyükdürsə, hiylə və tələlərin nə faydası olar?*

Doğru sözə nöqsan tutan bu qədər insan var, amma onları fəlakətə sürükləyən məhz yanlış anlamalarıdır”.

Mister Con dedi:

- Mən də buna bənzər bir neçə qitə oxuya bilərəm, amma görürəm ki, biz səni protestant etmək üçün çalışdığımız halda, deyəsən, sən bizi həqiqi müsəlman edəcəksən. Buna görə də, gəl, belə məsələləri çox da qurcalama. Bizim məqsədimizi eyhamlarla ifadə edən bir neçə sözü daha öncə də söyləmişdim. İlk baxışda sizə zəif fikirlərlə dolu kimi görünən bu məsləki biz bir təamülə (=alışıqlığa, öyrəndiyimizə, alışdığımıza - A.Y.) və ailə bağlarımıza görə tərgidə bilmirik. Sizin iman gətirdiyiniz “Quran”da da “***Allah istədiyi kəsi hidayətə çatdırar, istədiyini zəlalətdə buraxar***” anlamında ayələr vardır.[20] Bununla bağlı bizlərin bir şey etməsi lazım gəlmir, yəni hər iş Allahın əlindədir. Allahın rizasını qazanmaq – bütün dinlərin əsasını təşkil edir. Bir halda ki, bizim hidayətə çatmağımızı Allah istəmir, onda biz də Allahın rizasını əldə etmək üçün müsəlman olmuruq. Burada sizə bir hekayət anlatmaq istərdim. Gənc ikən onu yəhudi bir qadın danışmışdı mənə. Xoşuma gəldiyindən onu heç cür unuda bilmirəm.

Belə ki, bir zamanlar Şərqdə bir hökmdar olub. Bu şəxsin çox qiymətli və misli-bərabəri olmayan zümrüd qaşlı üzüyü varmış, daima onu barmağına taxarmış.

Qocalan hökmdar ömrünün son günlərini yaşayırmış. Mövcud ənənəyə görə, o, vəfat edəndən sonra dünyalarca sevdiyi üç oğlundan böyüyü səltənət taxt-tacına yiyələnəcək və qalan iki ciyərparasına da hökm edəcəkdi. Amma yaşlı hökmdar oğullarının üçünü də eyni dərəcədə sevirdi. Taxtı qədər dəyər verdiyi üzüyünü onlardan hansına verəcəyi barədə heç cür qərara gələ bilmirdi. O, zəmanəsinin ən usta zərgərini hüzuruna gətirdib, barmağındakı üzüyü ona göstərir, bundan iki dənə hazırlamasını əmr edir. Zərgər uzun müddət araşdırdıqdan sonra bu üzük qaşının eynisini tapmanın imkansız olduğunu və ancaq bənzərinin hazırlana biləcəyini hökmdara bildirir. Məcburiyyət qarşısında zərgər üzüyün bir cüt bənzərini hazırlayıb gətirir və gerçək üzük ilə bənzərləri qarışdırıldığı zaman onlardan hansının həqiqi, hansının isə saxta olduğu bəlli olmur. Hökmdar əvvəlcə böyük oğlunu gizli qəbul eləyir və üzüklərdən birini ona verərək bu barədə qardaşlarına bir söz söyləməməsini tapşırır. İkinci gecə hökmdar ikinci oğlunu hüzuruna çağıraraq, ona da bir üzük verir və digər qardaşlarına bu sirri açmamasını əmr edir. Üçüncü gecə o, üçüncü oğlunu yanına çağırır, qardaşlarına söyləməmək şərtiylə üçüncü üzüyü ona verir. Qardaşların hər biri gerçək üzüyün məhz ona verilməsindən məmnun olur, ata isə hər üç övladını sevindirdiyindən. Heç hökmdar ata da üzüklərdən hansının gerçək, hansının saxta olduğunu artıq ayıra bilmir. Uşaqlarının hər biri üzüyün özündə olmasıyla qürrələnir və həqiqətdən xəbərsiz qalır, çünki bu sirri təkcə zərgər bilirmiş.

Biz də bu hekayətdə sözü edilən üzük sahibləri ki-

miyik. Hər birimiz “Doğru din mənimkidir!” deyib dururuq. Məncə hələlik həqiqət ortaya çıxmayıbdır. *“Qeybin açarları Onun yanındadır. Onları ancaq O bilir.”*[21] ayəsi buna dəlildir. Bu xüsus indilik üzərində düşünüləcək bir şey deyildir.

Ən nəhayət, dünyanın dörd bir yanına səpələnmiş missionerlər üç ayda bir kərə öz missioner cəmiyyətlərinə hesabat göndərirlər. Bu hesabatlar əlaqədar şöbələrə çatdırılır, gərəkli işləmlər həyata keçirilir. Sonra hesabatı göndərənlərə təlimat xarakterli cavablar ünvanlanır. Amma bu hesabatlarla onların araşdırılma nəticələri Protestantlıq şöbəsinə göndərilir və necə hərəkət etmə şərtləri orada təyin edilir. Protestantlıq şöbəsinin rəhbəri eyni zamanda missioner cəmiyyətinin də sədridir. Katoliklik və ortodoksluk (=pravoslavlıq), xristian dininə mənsub olsalar da, ingilislər xristianlığı təkcə protestantlıq ilə təmsil etməyə çalışırlar. Halbuki protestantlığın da içində bir çox məzhəb mövcuddur.

Neyləyəsən?! “Allah bir millətin günahkar olmasını, zəlalətdə qalmasını istəyərsə, həmin insanlara pis və çirkin olan şeyləri də gözəl göstərər”[22]. Belə çıxır ki, ingilislərin müşrik (xristian) olaraq qalmaları ilahi iradəyə uyğundur. Qoruyucusu uca Allah olan İslam dini isə hər cür zərərli təsirdən qorunmuşdur. Bu dini çox gözəl öyrənən və anlayan bu alim missionerlər Allahdan hidayət gəlməyənə qədər nə edə bilərlər ki? Cənabı-Haqq “Quran”da çox açıq şəkildə *“O, istədiyi kimsəni doğru yola yönəldər”,*[23] yəni *“Allah dilədiyini doğru yola müvəffəq edər”* [24] buyurub. Bundan sonra mən bu ilahi iradə barədə hansı açıqlamaları verə bilərəm ki?![25]

❊

*-"Əzəldən bəri biz din olaraq müsəlmanlıq, musəvilik, xristianlıq və bütpərəstliyi bilirdik. Dünyada üç min otuza qədər çeşidli din və məzhəb var olduğunu eşidəndə çaşıb qaldım və insan üçün dinin vacib olduğunu anladım. Təbiət qanunu da bunu tələb edir, insanları belə bir əqidəyə (=inanca) zorla sürükləyir. Hətta Amerikanın vəhşi bir qövmü (=tayfası) içinə, Amerika və Avstraliyanın azğın yamyamları (=adamyeyənləri) arasına kənardan bir məşhur mürşid (=yol göstərən, mənəvi lider - A.Y.) girmədiyi təqdirdə onların içindən ən ağıllısı ilham və sövqi-ilahi ilə, sövqi-təbii ilə (=instinktiv olaraq) özünə bir yaradıcı axtarışına girişir. Düşüncə qabiliyyətinə, irfanına görə, ya xəyali bir yaradıcı seçir, ya da bir daşı, hər hansı ağacı və ya heyvanı özü üçün yaradıcı olaraq qəbul edir. Əməllərinin, arzularının gerçəkləşməsini istəyir, öz bilgi səviyyəsinə görə əcdadlardan qalma adətlərindən, inanclarından və ənənələrindən qaynaqlanan şirin sözlərlə, vədlərlə hər kəsi öz fikrinə uymağa dəvət edir, lazım gələndə zor işlətməklə buna nail olur. Nəticədə həmin inanc o xalq üçün bir dinə, o adam özü isə qutsal (=müqəddəs) və qeyri-adi bir varlığa, bir peyğəmbərə çevrilir. Amma o da var ki, dinin qəbul edilməsi ağıl və məntiq sahiblərindən ötrü həm ağıla, həm də nəqlə uyğun olduğu halda mümkünləşir. Bələd olduğum mövcud dinlər içindən İslam dinini mən digərlərinə görə ən məqul (=qəbul olunan), ən məntiqli və ən açıq sayıram. Təslisi heç cür ağlıma sığışdıra bilmirəm. Xüsusilə də xristianlığın "gizli sirləri" deyilən inanclarına hansısa anlam verməkdə acizəm. Bununla yanaşı, İslam ilə xristianlıq arasında xeyli dərin fərqlər vardır. Əgər bu dinlər biri-birinə azca da olsa bənzəsəydilər, bunların*

*birindən digərinə keçmək daha asan olardı. Müsəlmanın xristian olması imkan xaricindədir - əlbəttə, zor və ya basqı (=təzyiq) tətbiqi nəzərə alınmazsa. Zorla xristian olma isə tətbiq olunan basqının qüvvədə qaldığı müddətcə mümkün ola*r" dedim.

Mister Con incik bir tərzdə dedi:

- Mustafa əfəndi, siz hələ gəncsiniz, araşdırmalarınız azdır, dinlərin tarixini öyrənməmisiniz. Bir filosof kimi düşünə bilmirsiniz. Baxın, İslam dünyasının fəxri sayılan böyük alim, şöhrətli filosof Əbubəkr Muhyiddin ibn-Ərəbi nə buyurur: "*Ya Rəbbi, insanlar daşa-torpağa tapınsalar belə, yenə də ibadətlər Səndən başqasına yönələn deyildir, sırf Sənə məxsusdur.*"[26].Belə fəlsəfi tərzdə yanaşanda dinlər arasında inanc baxımından heç bir fərq qalmır. Yalnız zahiri görünüşdə az-çox fərq var ki, onun da önəmi yoxdur. "*Asanlaşdırınız, çətinləşdirməyiniz*"[27] *əmrinə uyğun olaraq, biz də dinlərin tətbiqində ən asan olanını sizə qəbul etdirmək, bundan qazanılacaq zamanda sizi çalışmağa yönəldərək, fayda vermək istəyirik. Çalışmaq – bizdəndirsə, qəbul və ya rədd etmək – sizdəndir*."

Mister Con sözünə belə davam elədi:

- Missioner heyəti gecə-gündüz bu kimi işlərlə məşğuldur və İngiltərə hökumətinin bütün dairələriylə sıx işbirliyi içindədir.

Missionerliyə dair olduqca geniş məlumat əldə etməyimdən məmnunluq duyaraq o ofisi tərk edib, otelimizə yollandıq. Həmin günün axşamı missioner cəmiyyətinin sədri mister Botinqressin evinə şam yeməyinə dəvətli olduğumuzdan mister Con və Ernest ilə onlara

getdiyimizdə Uelsted və Herbertlə orada rastlaşdıq. Bir az söhbət edəndən sonra mükəlləf (=təmtəraqlı - A.Y.) bir süfrə arxasına keçdik. Yemək yeyərkən mister Botinqress bunları söylədi:

- Mustafa əfəndi qardaşımızın evimizi ziyarətindən çox məmnun oldum. Gənc bir əsgər olmasına rəğmən onu bir missioner cəmiyyəti başçısının öz evində qəbul etməsindən dolayı heç təəccüblənməsin. Missionerlər rütbə və vəzifə, gənclik və qocalıq, zənginlik və yoxsulluq, gözəllik və çirkinlik aşiqi deyillər. Onlar insanın şəxsiyyətinə və zehniyyətinə (=anlayışına) aşiqdirlər. İndi Mustafa əfəndi özüylə eyni yaradılışa sahib olan adamlar arasındadır, çünki bütün yaradılmışlar - Haqqın aynasıdır. Hansı dindən və hansı millətdən olurlarsa-olsunlar, bütün insanlar - qardaşdırlar.

*Yoxdur bu vücudun etibarı,*
*Haqq - ayinədir cahan - qubarı.*[28]

Mustafa əfəndi ilə aramızda kiçik bir fərq var ki, o da tətəbbümüzün (=araşdırmalarımızın - A.Y.) və dünya görüşümüzün artıq olmasıdır. Məsləkinə görə onun axirət işləriylə bir elə əlaqəsi olmasa belə, axirətlə bağlı qəbul etdiyimiz dinlərin əxlaq və dünya həyatı üzərində nə dərəcədə təsirli olduqlarını qəbul etməkdə tərəddüd etmirik. Biz, ingilislər, ümumiyyətlə, türklərə və bütün digər müsəlmanlara o qədər də kəc baxmırıq. Aramızdan bəziləri ifrata vardıqları üçün bu gözəl duyğunu yox etməyə çalışsalar belə, artıq ictimai rəydə oturuşan bu ənənəvi hissi tamamilə yox edə bilmirlər. Sizdə də bəzi tutucular (=konservatorlar, mühafizəkarlar - A.Y.) vardır, mən öz qulaqlarımla bunları dediklərini eşitmişəm:

-"*Şeytanlıq və hiylə yuvası olan Britaniya adası tamamilə dənizin dibinə qərq olmayınca bu dünya rahatlığa qovuşmayacaqdır*."

Ancaq türk irqinin yaranması və inkişafı ilə bağlı tarixin bizlərə verdiyi əskik bilgilər sayəsində bu irqin əzmkarlığı və qərarlılığını təqdir etsək də, bugünkü geriləməsinə və çöküşünə şahid olduğumuzdan, bunun səbəbləri barədə bir neçə söz deməkdən özümü saxlaya bilmirəm. Hər millət yaşadığı çevrəyə, iqlimə və əcdadından miras şəklində aldığı səciyyələrə, yəni xasiyyətə, təbiətə, bacarığa, anlayışa, davranışa, dolayısıyla, bəzi adətlərə və əxlaqa sahibdir. Bu xüsusiyyətlər qorunduğu müddətcə o millət yüksələrək özünü göstərir və yaşamağa davam edir. Əgər bu keyfiyyətlər sağlamdırsa və heç bir təsir sonucu pozulmazsa, o millətin baqiliyindən (=əbədiliyindən, qalıcılığından - A.Y.) şübhə edilməməlidir, çünki o keyfiyyətlərin hər birisi bir fəzilət, bir ərdəmdir. Fəzilət isə həmişə sosial təməlin güclənməsinə, həyatiliyi davam etdirməyə imkan yaradır. Çinlilərin qeyri sabit və durmadan dəyişən hakimiyyətlər (=rejimlər) altında öz varlıqlarını hələ də qorumaları bu sözlərimə gözəl bir örnəkdir. İranlılar da hələ ki, ayaqdadırlar. Hər hansı bir millət xarici (=yadelli) ünsürlərlə çəkinmədən birləşib qarışırsa, heç nəyi araşdırmadan qarşı tərəfin adət və ənənələrini qəbul edirsə, o irq yox olmağa başlayar. Biz ingilislər, dünyanın bütün qitələrinə səpələnmiş bir millətik. Çeşidli millətlərlə təmas halındayıq, amma heç vaxt onlarla qarışmarıq və heç bir təsirlə öz keyfiyyətlərimizdən vaz keçmərik. Bundan beş min, on min il öncə bir ingilis nə idisə, bugün də həmin ingilisin övladları onun eynisidir. Bu gün bir ingilis

Böyük Britaniyada necə yaşayırsa, Mərkəzi Afrikadakı Busə torpaqlarında da eynilə o cür yaşayar. Britaniya adasındakı bir ingilis hansı adətlərə malikdirsə, hansı ənənələrə bağlıdırsa və nələrə inanırsa, Kapda, Yeni Zelandiyada, Amerikada və digər yerlərdəki ingilislər də eyni adət və ənənələrə səmimi bir şəkildə inanır, onlara uyğun davranırlar. Məhz bu sayədə ingilislər bütün dünyaya səpələnmiş olduqları halda, milliyyətlərini qoruyublar. Xristian bir ingilis heç vaxt dininə aid olmayan məbədə getməz. Heç bir ingilis öz tacirindən başqa heç bir tacirdən nə isə almaz. İngilislər özləri üçün mövcuddurlar, onlar başqaları üçün var ola bilməzlər, hər kəsi, hər şeyi ingilislər üçün hazırlamağa çalışırlar. Halbuki bu özəllik türklərdə yoxdur, onlar həddən artıq təqlidçidirlər. Türklər - hər kəs üçündürlər, çünki özləri üçün ola bilmirlər" deyə bilərik biz. Elə buna görə də itirirsiniz. Köhnə səciyyələrinizdən (=xüsusiyyətlərinizdən, xarakterinizdən - A.Y.) sizdə görəsən neçəsi qalıb indi?! Sizlərdə əski türklərdən əsər-əlamət varmı ki?!

Macarıstan vadilərinin, Bizans şəhərlərinin, Balkan yaylalarının, Qafqaz dağlarının sizlərə bəxş etdiyi o sırma saçlı, ahu və ala gözlü, gözəl bədən nisbətlərinə sahib qızlar sayəsində görünüşünüz düzəldi. Amma bu qarışmalar (=məlezləşmələr - A.Y.) sayəsində təbii olaraq, bəzi adətlər də qazandınız, bunu inkar etməyin. Allah xətrinə söyləyin: sizdə analarınızdan aldığınız hər hansı pay yoxdurmu ki?! İranlıların on beşinci əsrdə daddıqları çevrilişin intiqamını almaq üçün məmləkətinizə idxal etdikləri bəzi mübaliğəli inanclar nəzərəçarpacaq dərəcədə zərərlərə yol açdı. Cəlalilər, əxilər, dərvişlər şiəliyi təmsil edirlər və bu inanclar getdikcə güclənir.

Avropalıların bir dost kimi içinizə girməsində missioner cəmiyyətimizin təməl rol oynadığını söyləyərkən, doğrusu, xəcalətdən qızarıram. Siyasət təkərini istənilən yöndə fırlatmaq üçün iki yol vardır: birincisi - missionerlikdir, ikincisi - farmasonluq. Dərvişlik də bu hesaba qatılmalıdır. Siz türklər, Avropanı yeni-yeni görüb, tanımağa başlamsınız. Avropanın iki pəncərəsi vardır: birincisi, nisbətən böyüyü – səfahət (=zövq dolu əyləncələr - A.Y.), səfalət və israf pəncərəsidir. Məbadə Avropaya buradan baxasınız, həm peşman, həm də məhvü-pərişan olarsınız. Digər pəncərə isə elm, ticarət, kənd təsərrüfatı və sənaye pəncərəsidir. Bu pəncərə çox dardır, onu tapmaq istəyən çox axtarmalıdır. Siz də onu tapmağa və oradan Avropaya baxmağa çalışın, Avropa zehniyyətinə yiyələnin, ondan sonra məsud (=bəxtəvər) olarsınız. Avropanın xassələrini, adətlərini araşdırmadan qəbul etsəniz, yanarsınız (=peşmanlayarsınız - A.Y.), çünki sizi əxlaqsızlığa aparar. Əxlaqı pozulmuş bir millət isə ayaqda qala bilməz. Avropa adətlərinin müsbət yönlərini, sizlərə yararlı olmaq, adətlərinizə və irqinizə xələl gətirməmək şərtiylə mənimsəyin ki, avropalılarla uyuşasınız. Daxili işlərinizlə bağlı idarəçilik və hərəkət tərzinizə gəldikdə isə, çox öyündüyünüz tarixiniz sizin hansı yolsuz (=nadürüst) hərəkətlərə qol qoyduğunuzu, qaranlıq yollara baş vurduğunuzu göstərməkdədir.

1734-cü ildən bəri sizdə bütün çöküş (=süqut) əlamətləri görünməyə başladı. Əsl türklər yetərincə namuslu bir millətdirlər. Xüsusilə də, sənət sahibləri və zənaətlə (=peşələrlə) məşğul olanlar çox vüqar (=mənlik) sahibidirlər. İtaətləri, səmimiyyətləri və yararlı olmaları digər cəhətləri

arasında xüsusi vurğulanmalı və ayırd edilməlidir. Amma sizlərin, yəni Qayı xanın boyundan və Səlcuq türklərinin tör-töküntüləriylə rumlulardan dönmə yeniçərilərin birləşməsindən meydana çıxan qarışıq türklərin, türklüyə xas hər cür əxlaqi özəllikləri təbiətən tərk etməsi (bunun qəbahəti yalnız özünüzdədir!) məndə sizin özü-özünüzü yox etməyə niyyətləndiyiniz təəssüratını yaradır. Daim siz "*Müstəqillik – qalibindir*!" düsturu ilə davranırsınız. Həqiqəti deyəcək olsaq, siz hər şeyin əsası olan dilinizi belə heç cür düzəldə bilməmisiniz. Doğru-dürüst yazı qaydalarınız da yoxdur. Daha doğrusu, yazılan kəlmələrdə sait səsləri göstərəcək əlifbanız yoxdur. "Sonra" yazıb, "sokra" oxuyursunuz. "Üstübec"[29] dediyiniz sözü "isfidac" kimi yazırsınız. "Bana" yazırsınız, "baga" oxuyursunuz.[30] Bu necə işdir?! Düzdür, bizim dilimizdə də bunun kimi bəzi uyğunsuzluqlar mövcuddur, amma sizinkilərə görə azdır. Oxumuşlarınızın yazdıqları kitablar müəmmalarla doludur. Ərəbcə və farsca bilməyənlər bu yazılan kitablarınızdan heç nə anlamazlar. "*Osmanlı türkcəsinin ən bəlağətli variantı – İstanbul dilidir*" deyirlər. İstanbulda oxumağı-yazmağı bacardığı və öz ana dili olan türkcəni çox gözəl danışdığı halda, yazılan əsərləri doğru-düzgün oxuya bilməyənlər və ya mənasını anlamayanlar xeyli çoxdur. Kənd camaatınız isə qara (=əsl, tam) cahildir. Digər millətlərdən olan təbəələrinizə türk dilini heç cür öyrədə bilmirsiniz. Halbuki millətin böyük çoxluğunu kəndlilər təşkil etməkdədir. Orta məktəblərinizə yerli-dibli dəyər vermirsiniz. Bunu yaxşı bilin ki, ilk təhsil orta məktəblərdə alınır, çünki ali məktəblər ikinci dərəcəlidir. Elə bu

səbəbdən də Türkiyədə irəliləyiş imkansızdır. Türkiyə təkamülə doğru bir addım da ata bilmir. Hətta şərqdəki türklər "*Osmanlı türkləri türkcə bilməzlər*" deyirlər.

Osmanlı hökumətinin rəsmi dini - İslam, rəsmi dili - türk dili olduğundan bu iki önəmli məqam bir an belə diqqətdən kənarda tutulmamalıydı. Bu dil və din tədricən, həm mövcud vasitələrlə cilalanaraq, həm də məktəblərdən başlayaraq, təbii qruplaşmalar yoluyla hər yerdə təbliğ olunmalıydı. Nə keçmişdə bunu etdiniz, nə də indi edirsiniz. Camelərdə, məscidlərdə, həcc fərziylə Məkkədə və Mədinədə bir araya gəlmək hər nə qədər gözəl bir vasitə olsa da, siz bunun da gerçək dəyərini bilmirsiniz. Peyğəmbərinizin son dərəcə müdrik bir diplomat olması onun sizə təbliğ etdiyi əmrlərlə (=buyruqlarla, öyüdlərlə) sübuta yetirilmişdir. Təəssüf ki, bunu anlamırsınız. Geyim və qiyafətinizi də heç cür yoluna qoya bilmədiniz. Türkiyə bir neçə böyük inqilabdan keçməlidir. Bu inqilablar ilk növbədə elmlə, sonra dinlə və əxlaqla, ən sonda isə idarəetmə ilə bağlı olmalıdır. Əgər bu ardıcıllıq pozularsa, onda düzəninizdə irəliləyiş gerçəkləşməz. Qarğa dəstəsi kimi davranmaqdan qurtula bilməzsiniz, rahatlıq tapmazsınız. Rəhmətlik Sultan Mahmud, bu qədər arzulamasına baxmayaraq, öz xalqına sipərlikli sərpuş (=günlüklü papaq) geyməyi qəbul etdirə bilmədi. Bu cahil bir hərəkətdir. Bütün vücudunuzu avropalılar kimi örtsəniz də, papağınızı bənzətmək istəmirsiniz. Sipərli papaqları avropalılar ərəblərdən götürdülər ki, həm gözə, həm də başa çox faydalıdır. Avropa geyim tərzi isə sağlamlığa çox zərərlidir. Sizin şalvarlarınız bizim dar şalvarlardan daha çox səhhətə uy-

ğundur. Sağlamlığa zərərli olan şeyləri qəbul etməkdə heç tərəddüd etmirsiniz. Sağlığa faydalı olanları isə rədd edirsiniz. Bu nə haldır belə?!

Ölkənizi xarabalığa çevirmisiniz, ərazi tamamən boşdur. Kənd təsərrüfatı yox, ticarət yox, heç nə yoxdur. Şərqdəki vilayətlərinizdə xalq eynilə köstəbəklər kimi yerin altında yaşayır. Siz heç onları da yer üzünə çıxardıb, bir insan kimi yaşada bilmirsiniz. Oralara gedib, insanların yerin altında və ya axurda heyvanlarla bərabər yatdıqlarını görməniz lazımdır. Hər şeydən məhrum və çarəsiz bu insanlara zərrəcə mərhəmət etmirsiniz. Anayasa (=Konstitusiya) hüququnun ortaya atdığı qaydada deyilir ki: "*Millətdə qabiliyyət olmazsa, hökumət o millətin önünə düşər və ona nəyi necə öyrədər*?" Siz buna nə vaxt əməl etdiniz?! Səlcuqlu türkləri sizdən daha mədəni idilər. Siz isə onlardan miras qalan mədəniyyət abidələrini kökündən məhv etdiniz. Amasyadakı, Sivasdakı və Konyadakı Səlcuqlu mədəniyyəti xarabalıqları, görənlərin könlünə dağ çəkir. Siz Sabutayı, Çingizi, Hülakünü və Teymurləngi təqlid edirsiniz. Görəsən bu halınız nə zamana qədər davam edəcək? Halbuki, xalis türk milləti buna qarşıdır.

Gördüyünüz kimi, siz nə dininizdən, nə də milli kimliyinizdən yetərincə yararlana bilirsiniz. Buna rəğmən, Mustafa əfəndi, biz protestantlıq məzhəbi vasitəsiylə sizi bu durumdan agah etmək, yolsuzluqlardan çəkindirmək istəyirik. Sizləri iqtisadiyyat ilə məşğul olmağa yönləndirmək niyyətindəyik. Qadınlarınızın da fəaliyyətlərə qatılmasının həvəsindəyik. Bununla birlikdə qadınların həyasını itirməsi axır zamanın (=qiyamətin) əlaməti sayılır. Həyanın qorunmasına önəm verilməlidir. Bu işlərə

əhalinin kiçik təbəqələrindən başlamaq lazım gələcək. Biz də bunu etməyə çalışırıq. Sabah - avqustun birinci günüdür. Bütün protestant kilsələrində dünyadakı bütün müsəlmanların protestant olmaları üçün dualar oxunacaq, ayinlər icra ediləcək. Sabah siz də gəlib, dualarımızda iştirak edin. Hər il avqustun birinci günü mütləq şəkildə bu ayin icra edilir. *"(Ya Rəsulum!) Allahın hökmlərini inkar edənlərə, peyğəmbərləri haqsız yerə öldürənlərə, insanları ədalətə çağıranların canına qəsd edənlərə şiddətli əzab veriləcəyini xəbər ver!"*[31] ayəsinə uyğun olaraq, bizlər nə vaxtsa ağır işgəncələrə hədəf olacaqlarına inandığımız israillilərə hər mənada düşmənik. Yəhudilər əxlaqları baxımından seviləcək insanlar deyillər, ilana bənzərlər. İnancımıza görə bizim günahlarımızı əfv etdirmək uca Yaradan tərəfindən təqdir edilsə belə, yenə də xilaskarımız İsa həzrətlərinə etdikləri zülm və həqarət dözüləcək, qatlanılacaq xüsus deyildir. Əgər İsa həzrətlərinə bu qədər zülm edilməsəydi, israillilərin məlum peyğəmbərləri arasında onun da adı sayılacaq və xristianlıq meydana çıxmayacaqdı. Amma hər halda yəhudilər bu hərəkətləriylə Yer kürəsi sakinlərinin ahəngdar həyatını yerlə bir etdilər. Elə bir müsibət və ya fəlakət yoxdur ki, onda bir yəhudi barmağı olmasın. Müharibələr ancaq yəhudi bankirlər ucbatından qızışır və yəhudilər heç bir savaşdan zərər görmürlər. Millətləri biri-birinə qarışdıran və vuruşduran yəhudilər onları uzaqdan seyr etməyi, ara yerdə qazanc əldə etməyi də arzu edərlər. Pula sitayiş edən və şəxsi qazancını toplumun mənfəətlərindən üstün tutan bu qövm (=xalq) harada fəaliyyət göstərər və ya iqtidara gələrsə, oranın böyük bir səfalətə və müsibətə uğrayacağı qaçılmaz olar. Öz qazancını

digər insanların fəlakətində axtaran bu hiyləgər xalqı nə qədər peyğəmbər, zəka və hikmət sahibi tərbiyə etməyə çalışsa da, heç nəyi dəyişdirə bilməmişdir. Faizlə pul qazanmağı və möhtəkirliyi icad edən də onlardır. Qüvvət qarşısında məzlumlaşan, fürsət düşən kimi zalımlaşan və əldə etdiyi sərvətlə dünya miqyasında üstüörtülü fırıldaqlara imza atan, ora-bura səpələnən bu on milyonluq elastik xalqı "Qüvveyi-Qahirəyi-Səmadaniyyə" (=İstədiyini yox etməyə qadir) olan uca Yaradan Yer üzündən silmədikcə rahatlığa və hüzura qovuşmaq imkansızdır.

Ən qəribəsi də odur ki, bu xəsis xalq dörd yüz milyonluq İslam əhlinin və beş yüz milyonluq xristianlığın gücünü, qüvvətini diqqətə almır, bunlara qarşı inadla Fələstin bölgəsində məskunlaşmağı, orada bir İsrail dövləti qurmağı qarşısına başlıca məqsəd kimi qoymuşdur. Yer üzündəki sərvətlərin üçdə ikisinə sahib olduqları zaman bu ideyalarını gerçəkliyə çevirəcəklərini bildirən və müjdələyən bir kahinin sözlərinə inanaraq pul yığmağa girişiblər. Amma mənasız bir şeyə bel bağlayırlar. "Xristianların Kəbəsi" sayılan Qüdsi-şərif (=Qutsal Qüds, Müqəddəs Qüds, Mübarək Yerusəlim) elə müsəlmanlara görə də müqəddəsdir. Ona görə onun da yad əllərə keçməsinə, yəqin ki, razı olmazlar. Xristianlar arasında məzhəb ixtilaflarına görə, Qüdsün daima müsəlmanların əlində qalmasını istəyirik.

Belə, Mustafa əfəndi… Görürsünüz ki, yəhudilərə qarşı keçmişdən bəri bir düşmənçiliyimiz vardır. Amma müsəlmanlarla din baxımından heç bir qarşıdurmamız olmayıb. "Quran"da yəhudilər əleyhinə bir çox ayəyi-kərimə və kafirlər haqda çox şiddətli əmrlər verilir, ancaq orada xristianlar barədə ictihad fərqindən başqa hər

hansı bir isnad yoxdur. Buna görə də İslamiyyət və müsəlmanlar bizim ehtiram və hörmətimizə layiqdirlər. Hətta Məhəmməd həzrətləri, rahib Bəhirəyə görə, çox məqbul və sayılan şəxs idi. Yalnız siyasi məsələlər aramızda düşmənçilik yarada bilər. Amma bu hal xristianların öz aralarında da yarana bilər.

Mən də:

- ***Düşünmək kimi ibadət ola bilməz*** (=yoxdur) hədisi-şərifi[32] ilə bizləri dərin-dərin düşünməyə çağıran şanlı Peyğəmbərimizin öyüdlərinə uyaraq bəzi məsələləri araşdırdığımdan zati-alilərinizə bir neçə cümlə ilə cavab verməkdən ötrü icazə istəyəcəyəm. Allahı və Allahın müqəddəs, başdan-ayağa yaxşılıqdan ibarət olan əxlaqını, sifətlərini (=özəlliklərini, xassələrini), əməllərini, yaratdıqlarını düşünmək hər şeydən daha üstündür. İçində yaşadığımız kainatda Allahın elminin, iradəsinin, yaratmasının, icadının, qüdrətinin və istəyinin xaricində heç bir şeyin mümkün olmadığına və ya olmayacağına inanırıq. Ağıllı adam bir özünə, bir də aləmə baxar və görər ki, hər nöqtədə daima bir fəaliyyət, bir təbəddülat (=dəyişim – A.Y.), təğəyyür (=başqalaşma) vardır. Bütün bu proseslər heç çaşmayan, gedişatını dəyişdirməyən bir qa-



Missioner Botinqress



Missioner Herbert

nun və düzən (=nizam, intizam – A.Y.) çərçivəsində baş verir. Canda, bədəndə, yerdə, göydə elə bir zərrə tapılmaz ki, bu qanuna tabe olmadan hərəkət edə bilsin. Hər şey yaradılışındaki xüsusiyyətlərə uyğun olaraq fəaliyyət göstərir. Dünyadakı ən böyük kürədən tutmuş ən kiçik zərrəciyə qədər bütün varlıqları yaradan, onları istədiyi kimi oynadan, dəyişikliklərə uğradan, hər varlığa onun durumuna və şəklinə uyğun olaraq xüsusiyyət verən qüvvəti və qüdrəti, kamil (=yetkin, müdrik) insanlar "Allah" deyə qutsallaşdırırlar. *"Hər şeyi yaradan Odur"*[33] kəlamı bizlərə yönələn mütləq bir əmrdir. Bu əmrə uyaraq (=boyun əyərək) Allah üçün şəkil, surət, zaman, məkan, acizlik, nöqsan, ortaqlıq (=şəriklik) düşüncələri, bizə görə, caiz olmaz. Əsasən də, astronomiya və kosmoqrafiya təhsili alanlar kainatın nə olduğunu bugünkü elmi kəşflər dərəcəsində bildiklərindən, kainatın Yaradıcısını digər inanclar kimi, "Tövrat", "Zəbur" və "İncil" kimi kiçiltməməlidirlər. Allah ilə yaradılmış bir varlıq və ya xəyal arasında hər hansı bir bənzərlik olduğunu iddia etməməlidirlər. İnsan ağlının heç cür əhatə edə bilmədiyi və anlamadığı Allah təala yaratdığı bir qanun əsasında kainatı yaradıb meydana çıxarmışdır. O qanuna insanlar "təbiət qanunları" adını veriblər.

Təbiət qanunlarının bir maddəsi də tədrici təkamül, yəni yavaş-yavaş inkişafdır. Təbiət qanununun ilk tətbiqindən sonra nə qədər zaman keçdiyinə heç bir elm adamı hüdud qoya bilmədiyi kimi, milyonlarca ildən bəri bu proses davam edir. Keçmişlərə nəzər salsaq, uca Yaradanın istəyinə uyğun olaraq, hər şeyin yox olacağı zamanlara qədər heç bir dəyişiklik olmadan, tam qanuna uyğun şəkildə davam edəcəyini dərk edərik.

Uca Allah, yaratdıqlarının hamısında olduğu kimi, insan sinfinin yetkinləşməsini (=kamilləşməsini) də yavaş-yavaş bəxş etdiyi saysız-hesabsız dəlillərlə göstərməkdədir. İnsanlıq sadəcə hisslər dünyasına söykənən elmi ilə heç bir şeyin özünü, gerçəyini qavraya bilmir. Bütün bildikləri ən sonda bir məchula dirənir. Zəkası, irfanı, bilgisi, sağlamlığı, zənginliyi, qısaca desək, sahib olduğu şeylər onu ümidsizliyə salan o məchuliyyəti (=məchulluğu, bilinməzliyi – A.Y.) həll edə bilmir. *"(Yer) üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir."* [34] və *"Allahdan başqa hər şey məhvə məhkumdur."*[35] ayeyi-kərimələri bizə Allahdan başqa nə varsa, onun fani (=keçici, müvəqqəti) olduğunu göstərir.

Hətta mərhum şair Füzuli belə:

*Faniyi-mütləqim qəbul etməm,*
*Minnəti-Xızr ilə zülali-bəqa,* deyir.

(Mənası belədir: Mən mütləq bir fani olduğumu bildiyimdən minnət edərək Xızırın abi-həyatını (=dirilik suyunu) qəbul etmərəm).

Elə isə bu fanilər arasında olan İsa həzrətləri, haşa və kəlla, necə Allah ola bilər?! İnsanlar tədrici inkişafa inanaraq, məhrumiyyəti-külliyyə dərəcəsindən (=hər şeydən məhrum ikən) yavaş-yavaş təkamülə (=kamilliyə, kamilləşməyə – A.Y.) yol alır, irfanı meydana gətirirlər. Elm adamlarımız bu təkamülü üç yola ayırırlar. Bunlardan birincisi - insanın dünyasını tanıması, ikincisi - insanın özünü tanıması, üçüncüsü isə insanın öz yaradacısını, Rəbbini (=Yaradanı) tanımasıdır.

Bu üç yolun hər birində böyük bir inkişaf vardır.

Mövcud dinlər də bu qaydaya uyğun olaraq kamilləşmişlər. Dinlərin ən sonuncusu və doğrusu - İslam dinidir. Bu qədər elm və fəzilətlə sizin gerçəkdən müsəlman olub, İslamiyyətin geniş yayılması, islahı, təkamülü yönündə çalışmanız nə qədər yaxşı olardı! Çünki zəmanənin dəyişməsiylə mövcud hökmlərin dəyişəcəyini Məhəmməd həzrətlərinin dini qəbul edir.[36]

Protestantlıq isə təməlsiz (=bünövrəsiz, əsassız) bir binadır. Belə bir binanı necə genişlətmək, necə böyütmək olar? Avropalılar tərəfindən birbaşa və dolaylı şəkildə aramızda yayılan fəsad, dinə olan bağlılığımızı sarsıtdığı üçün biz yoldan çıxdıq. Amma yenə də idarəetmə şəklimizi, yaşayış və geyim tərzimizi, hər hərəkətimizi tənqid edirsiniz. Bu acınacaqlı halımızın səbəbi olduğunuz üçün uğurlarınızdan məmnun halda bizləri davranışlarımıza görə alqışlamalıydınız ki, daha çox səhvə yol verək. Yalnız bunu ərz etmək istəyirəm ki, müsəlmanlar bir nəfər kimi dinsiz olmağa razı olarlar, amma heç bir zaman xristianlığı qəbul etməzlər. - dedim

Belə sərt danışığımdan məmnun olan mister Botinqress dedi:

- Mustafa əfəndi, yenə təkrarlayıram ki, dinlər tarixindən xəbərsizsiniz. Buna görə də, gəlin, sizə bir az məlumat verim. “Səmavi dinlər” adlanan hənifilik, musəvilik, xristianlıq və İslam - bütün mövcud dinlərin ən yaxşılarıdır. Bununla bərabər, bu dinlərdə etiraz olunacaq xeyli çox məqamlar və hökmlər vardır. Digər dinlərdə də qəbul edilməyə layiq, məntiqə və ağla uyğun bir çox xüsuslar və hökmlər mövcuddur. Səmavi dinlər digərlərindən müəyyən şeylər alıblar. Dünyada “tabu” deyilən, yəni qalib bir qüvvənin zərərindən qurtulmaq üçün tə-

qəyyüd (=diqqət, qayğı, canıyananlıq – A.Y.) məsələsi ilk din olaraq meydana çıxmış və bu tabu sonradan səmavi dinlərə də keçmişdir. Məsələn, "Tövrat"dakı on əmr qədim bir tabu prinsipinin dəyişməsindən ibarətdir. Yenə də "Tövrat"da yazılıb ki: "Allah Adəmə: "Bağçanın ortasındakı ağacın meyvəsindən yeməyin və ona toxunmayın ki, ölməyəsiniz" buyurdu. Buradakı ağac - bir tabudur, bir yasaqdır (=təkindir, haramdır). Bu hal xristianlıqda da, İslamda da vardır. Şərab, qumar, donuz əti və sairə İslam üçün tabudur. Sonralar bu tabu anlayışına bir də "ruhilik" (=animizm) əlavə edilib - hər şeydə bir ruh olduğu inancı ortaya çıxıb. Bundan sonra "bütçülük" (=fetişizm) əqidəsi formalaşdı ki, buna da sehrlə ilgili işlər qarışdı. Bunun ardınca "totemizm" - toplumun özünə qoruyucu olaraq bir insanı, heyvanı, bitkini və ya bir dəmir parçasını qəbul etməsi inancı geniş yayıldı. Zamanla səmavi dinlər bunları da mənimsədi. Məkkədəki "Həcəri-əsvəd" (=Kəbədəki "Qara daş" - A.Y.) totemdən başqa bir şey deyildir.[37] Əhd sandığı - yəhudiliyin, xaç - xristianlığın totemidir. Bizim ortodoksların (=pravoslavların) və katoliklərin tabloları (=ikonaları), tabuları, bütpərəstlərin bütləri də bir növ tabu və totemdir. Bir zamanlar Avropada "dravidizm" adlanan vəhşi bir din yarandı və məvalidi-təbiətin[38] bütün nemətlərini unutmağı, onlardan təkcə ağaca sitayiş etməyi əmr elədi. Halbuki eyni əsrdə Misirdə də milyonlarca insan "Apis" adında bir öküz rəsminə sitayiş edirdi.

Amma iş bütpərəstliyə, heyvanpərəstliyə gəlincə, tövhidə yaxınlaşmanın da çarəsi tapıldı. Bir ayının rəsminə sitayiş etməkdənsə, yaradılanlar arasında ən ağıllı, ən bacarıqlı və ən faydalı olan insanlara bənzədilən bir

xəyali tanrıya sitayiş etmək daha uyğun sayıldı. Səbiilik dini və məcusi inancı meydana çıxdı. Sonra da bəzi yerlərdə "politeizm" (=çoxallahlılıq) düşüncəsi yarandı. Göy üzü bu tanrılar üçün məskən olaraq düşünüldü. "Ərş", "kürsi" və "əflak" kimi kəlmələrə "Quran"da da rastlanır, amma "Quran" bunlardan söz etməklə yanaşı, sıralamanı nəzərə alır və Allah *"Biz ona (insana) şah damarından da yaxınıq!"*[39] deyir.

Bəzi elm adamları İbrahim peyğəmbərin hənif dininin tövhidi açıq şəkildə öyrətdiyini, musəviliyin bunu yaydığını, İslamın isə bunu açıqlamaqla bərabər həm də dəstəklədiyini söyləyirlər. Mən bunu çox əvvəllər söylənən, təlqin edilən bir inanc sayıram, çünki misirlilər Osirisin bütü önündə "Sən - ilk və sonsan, sən həm zahirsən, həm də batin, sən hər şeyi bilirsən, hər şeyə qadirsən, kainatın ruhusan, sən olmasaydın, kainat qatı bir cismə çevrilərdi" tərzində dualar pıçıldayırdılar və bu cümlələrin yazıldığı lövhələri Osirisin rəsminin hər tərəfindən asırdılar. Meksikada Neskako şahzadəsi Tezaho Alkopotel böyük bir din inqilabı yaratdı. Bu adam bir zamanlar hökumət taxtına varis olma haqqı əlindən alındıqdan və dünyanı uzun müddət dolaşdıqdan sonra itirdiyi haqqı təkrar əldə etmiş, atasından ona miras qalan taxta oturmuşdu. Bu zat kainatda adi gözlə görünməyən qüdrətli bir ilahın varlığına inanırdı. "Bu yaradıcıya şəkil və surət verilə bilməz, bu ilaha insan deyil, heç heyvan da qurban kəsilə bilməz, onun yolunda qan tökülməz" inancını ortaya atmış, süssüz (=bəzəkdüzəksiz, sadə – A.Y.) bir məbəd tikdirmişdi.

Peruda "Kopak Yupanki" adlı bir şahzadə uzun araşdırmalardan sonrası "Sizlər məni Günəşin oğlu zənn

edirsiniz, amma belə görürəm ki, atam olan nəhəng Günəş eyni bir yolla gedir, yolunu heç dəyişdirimir və özü bunu istəsə də, dəyişdirə bilmir. Deməli, heç atam da öz hərəkətlərində sərbəst deyildir. O da hansısa bir qüvvənin əsiridir. O qüvvə hər halda atamdan da qüvvətli və qüdrətlidir ki, atam Günəş onun əmrindən çıxa bilmir. Onda, gəlin, Günəşin də ağası (=hakimi) olan o qüvvəyə sitayiş edək, çünki bizləri ancaq o xilas edə bilər" demişdi. Bütün bunlar çox gözəl sözlərdir. Totemizm bizlərə sirli kəhanətlərə olan inancı bəxş elədi. Kəhanət isə möcüzə və kəraməti meydana çıxartdı. Kəhanətin zəmanəmizdə bəlli olan növləri - sehr (=tilsim), fal, spiritizm, maqnetizm və hipnotizmdir.

Bütpərəstlik dinləri də iki yerə ayrılır. Bunlardan birincisi - yox olub-getmiş bütpərəst dinlər, digəri isə mövcud bütpərəst dinlərdir. Yox olub-gedən dinlər - Misirdə, Kəldanda, Assuriyada, Ərəbistanda, Suriyada, Finikiyada, Fələstində, Yunanıstanda, Romada, Almaniyada, slavyan ölkələrində, keltlər arasında var olmuş dinlərdir. Misir dinində heyvanlara sitayişdən tutmuş "panteizm" inancına qədər biri-birini rədd edən bir çox inanc var. Bu inanclar zaman-zaman təkamül nəticəsində biri-biriylə birləşmişdir. Hər yeni yaranan din heç də əvvəlki dini yox edə bilməmiş, hətta millətlər öz köhnə inanclarını da qorumuş və heç bir faktor buna nəzarət edə bilməmişdir. Beləcə, bir-birinin üzərinə gələn, yığılan inanclar olmaqla Qədim Misirdə animizm, fetişizm, naturalizm, Günəşə sitayiş, şirk (=Allaha şərik qoşma - A.Y.) və tövhid inancları birlikdə mövcud olubdur. Məsələn, xristianlığın təslisinə (=üçləmə prinsipinə) qarşı misirlilərdə "Ra", "Horus" və "İzis" kimi ata-oğul-anadan meydana gələn ortaq bir tanrı inancı vardı. Zaman keçdikcə bir çox



Abdullah Mansur yaxud Mr. W. Burry’nin qəbilələr arasında yaşadığı zamanlarkı geyimi. İngilislər Ərəbistanda bax belə işləyirdilər.

araşdırmalar nəticəsində tövhidə yönəldilər, vəhdəti-vücudu “Kana” adlandırdılar. “Kana - kainatın əzəli və əbədi memarıdır” dedilər. Kananın dilindən bu cümləni zikr edirdilər: “Mən var idim, varam və var olacağam. Məni örtən pərdəni heç bir fani (=ölümə məhkum varlıq – A.Y.) qaldırmaz.” Kəldanilər də son dövrlərində tövhidə üz tutdular və “O, birdir, tayı-bərabəri yoxdur” sifətiylə o tanrını səciyyələndirdilər. Eramızdan əvvəl 4000-ci illərdə Çin imperatoru Fohi Vinti bütün Çin xalqına üz tutaraq bildirdi ki: “Ey yaradıcısının itaətkar və haqq itirməyən qulları! Ey çinlilər! Hökmdarınız və mürşidiniz olaraq sizlərə söyləyəcəyim bu öyüdlərə riayət edin. Gördüyünüz və görmədiyiniz zərrələrdən meydana gələn, bütün varlıqları yoxdan var edən qüvvətə və qüdrətə bundan belə “böyük Allah” deyəcəyik, ona inanacağıq, ona sitayiş edəcəyik, ondan mədəd (=yardım) umacağıq. Sə-

hərlər yuxudan oyananda ilk işimiz o yaradıcıya təşəkkür etmək, gecə yatarkən yenə də yerlərə qapanaraq ona məmnuniyyətimizi ərz etmək olacaqdır. Bu iki zamandakı müqəddəs vəzifəmizi təmiz geyimlərimizlə, xeyli təmiz bədənimizlə, başlarımızı açaraq icra edəcəyik. Ağlımız yalnız Allah barədə düşünəcək, vücudumuzun hər zərrəsi onun üçün titrəyəcəkdir. Bir şeyi ürəkdən istəyən kəs məhzun (=köməksiz, çarəsiz, arxasız, – A.Y.) qalmaz. Bütün varlığıyla yardım istəyənin ümidləri puç olmaz. Ondan başqasından yardım istəmək - axmaqlıqdır. Axı, kimin əlindən nə gələr?!"

Bu, elə bir mükəmməl öyüddür ki, səmavi kitablarda eynilə təkrarlanır. Çin Tunq (=Chin Tung) eyni düşüncəni davam etdirdi. Şamanlığı aradan qaldırmaq üçün çox çalışan Konfutsi isə belə demişdir: "*Mənim inancım - Paoşon inancıdır. Mən köhnə əyyamların əxlaq qaydalarını, din və siyasət yöntəmlərini oxumuşam, indi onları sizə öyrədirəm. Onların hikmətlərini sizlərin anlaya biləcəyi dillə yazıram. Mən Allaha inanıram, çünki bu iman daha qədimdir. Hər kim göylərin sultanını inkar edərək üsyana qalxarsa, ondan başqa bir qoruyucu (=xilaskar) tapa bilməz.*"

Bu sözlərlə İsanın öyüdləri arasında elə bir fərq yoxdur. Konfutsinin dini təbiiliyə, yəni naturalizm düşüncəsinə əsaslanırdı. Hikmətinin təməlini isə "bu mövcud olandan daha yaxşısı imkan xaricindədir" həqiqəti təşkil edirdi. Çin alimlərindən Lao Çzı (=Lau Tsu) isə əxlaq və mənəviyyatı əsas götürür, İsa həzrətləri kimi insanları bəşərilikdən çıxarıb, mələklik dərəcəsinə çatdırmağa çalışırdı. Elmi, sərvəti, iqbalı (=gələcək planları) unutdurmaqla o, insanları, eynilə müsəlmanların təriqətə bağlı müntəsibləri (=təəssübkeşləri, zahidləri – A.Y.) kimi, "fəna-



Abdullah Mansur, Lahc Sultanlığı ərazisində ov edərkən

fillah" mərtəbəsinə qaldırmaq istəyirdi. Yəni bu dinə görə, cəhaləti tərcih etmək, çalışmaqdan əl çəkmək, zəlil bir həyatı seçmək - məqbul və keçərlidir. (Fənafillah – təsəvvüfdə "Allaha qovuşan bəndənin Onda əriyib yox olması, özündən imtinası, faniləşməsi" deməkdir. Dünya ilə hər cür əlaqəni kəsən qulun Allahın bütün əmrlərinə mütiliklə boyun əyməsi kimi də dəyərləndirilən bu vəziyyət təsəvvüfdə obrazlı şəkildə "Ölmədən öncə ölmək" kimi ifadə olunur, çünki kainatdakı hər şey Allahdan gəlmişdir və gec-tez Ona dönəcəkdir – A.Y. )

Lao Çzı "Bir yanağına vursalar, digərini çevir, köynəyini istəyənə şalvarını da ver" deyirdi. "İncil"də rastladığımız bu cümlə, bu gözəl öyüd İsa həzrətlərindən bir neçə əsr öncə söylənmişdi.

*Arif olmaz - kim bilir dünya "və ma fiha" nədir.*
*Arif oldur - bilməyə dünya "və ma fiha" nədir.*[40]

beyti Lao Çzının nəzəriyyəsini açıqlayır.

Buddanın dini Hindistanda çox qədim dövrlərdə də var idi. Lao Çzı onu da islah elədi. Çinli bir müdrik olan Yan Çju (=Yangsu) da: "Hər kəs öz nəfsinə xidmət edir.

Ona görə də nəfsin (=canın) nəyi istəyirsə, ona da boyun əyməlisən. Bu aləmdə hər şey – bir heçdir. "Fəzilət" - mənasız bir kəlmədir. "*Özümdən sonra təmiz bir ad qoyacağam" deyə can qoymaq - boşuna çalışmaqdır. Həyatın zövqünü, səfasını daddıqdan sonra tam mətanətlə ölümün yolunu gözləməliyik*" deyirdi. Bu da bir inancdır.

Çin filosoflarının sonuncusu olan Men Çzı (=Mang-tişu) isə hər şeydən öncə xalqın gözəl idarə olunmasından cavabdeh bir hökumətin qurulmasının təminini insan xoşbəxtliyinin başlıca təməli hesab edirdi. O öyüdlərində belə deyirdi: "Övlad atanın belindən gəldiyi kimi, hökumət də millətin övladıdır. Buna görə də insanları ərdəmli (=mərifətli) olmağa aparan yollar – ağıl, qiyasət (=zəka), insanlıq, qeyrət, ədalət, doğruluq (=dürüstlük), bütün davranışlarda nəzakət və intizamdır… Əgər hər kəsə öz təbiəti və arzusuna görə hərəkət etmə sərbəstliyi tanınsa, onda aləmin düzəni pozular. Odur ki, hər fərdin nəzarət altında tutulması mütləq vacibdir."

Yaponiyada ağla söykənən buddizm ilə nağıllara və mövhumata (=gerçəkdə olmayan şeylərə - A.Y.) əsaslanan sinto dinləri arasında "Ribobo" adlanan bir din mövcuddur. Amma yaponlar ağıllı xalq olduqlarından nə öz qədim dinlərinə hədsiz hörmət bəsləyirlər, nə də ki, bizim xristianlığa bir elə əhəmiyyət verirlər. Onlar var olan dinləri araşdırırlar və üstün tərəflərini bir araya toplamaqla yeni bir din yaradacaqlar. Purşaspanın oğlu Zoroastertin (=Zərdüştün) məcusi dini xeyli hökmləri özündə birləşdirir və başdan-ayağa animizmlə doludur.

Yekun olaraq, deməliyəm ki, bayaqdan bəri qısaca anlatdığım bu dinlərin bizim səmavi (=göylərdən enmə - A.Y.) dinlərimizdən fərqləri çox azdır. Kitablarımızda ya-

zılan çox böyük kəlamlar uzaqbaşı beş-on min il öncə bir çinli, hindli və ya yapon tərəfindən dilə gətirilmişdir. Buna görə də, Mustafa əfəndi, sizə tövsiyə edirəm – dinlər tarixini oxuyun. Ümidvaram ki, ondan sonra düz yolu tapacaqsınız.

Bu mövzulara dair sizə daha çox məlumat verə bilərdim, amma buna vaxtımız yoxdur. Yeməyimiz bitdi, qəhvələrimizi də içdik. İnşallah, bir neçə il sonra görüşəcək olsaq, onda siz də belə mübahisələrə hazırlıqlı olacağınız üçün asanlıqla ortaq dil taparıq.

Sözünə heç cür ara vermək istəməyən mister Botinqress xarici siyasət məsələlərindən söz salaraq belə dedi:

- Mustafa əfəndi, İngiltərənin siyasət adamları nəzarət altında yetişdirilirlər. Əmin olun ki, hər bir səfirimizin cürbəcür qaranlıq, üstüörtülü işlərdə barmağı vardır. Səfirlər öz məqsədlərinə çatmaqdan ötrü hər cür fədakarlıq sərgiləməkdən əsla çəkinməzlər. Ərazisində işlədikləri ölkələrin ruhuna girərlər. Biz ingilislər, fürsətlərdən yararlanmağı çox yaxşı bacarırıq. Məsələn, şərəfindən şübhə edilən beyinsiz, duyğusuz bir xarici məmurun işlərini o dəqiqə öz proqramımıza uyğun bir şəklə salırıq. Ona görə də bizimlə təmasda olacaq xarici məmurlar çox ölçü-biçiylə seçilməlidirlər. Siyasi ustalığımız, səbrimiz, tələskənlikdən uzaq və ağıllı hərəkətlərimiz, hətta etiraf etməliyəm ki – mərhəmətsizliyimiz bizi Yer üzündə müstəqil etdi və edəcəkdir. Diplomatlarımız mənfəətlərimizlə bağlı işlərdə insaf, mərhəmət, insanlıq, iffət (=şərəf) və dürüstlük kimi şeyləri xatirlərinə belə gətirməzlər. Bu sözlərimi unutmayın, Mustafa əfəndi, siz gəncsiniz, sizi ziyalı və zəkalı biri kimi görürəm. Ölkənizə dönərkən bunları yoldaşlarınıza an-

ladın, onları da ayıq-sayıq olmağa səsləyin. Mən bir ingilisəm, həm də safqanlı, qarışıqsız bir ingilis. Az söz işlətmək - bizim məslək və məşrəbimizin (=xislətimizin) tələbidir. Neyləyəsən ki, osmanlıları sevirəm, onlara mehr salmışam. Ona görə də sizinlə bir şərqli kimi söhbət elədim, dərdləşdim. Beynimdə gizli hər nə vardısa, hamısını açıb-tökdüm.

Biz də təşəkkür edib icazə istədik və onu tərk edərək otelimizə qayıtdıq. Ertəsi gün səhər tezdən böyük bir protestant kilsəsinə yollandıq. Kilsədə böyük bir izdiham var idi. Orqan çalınırdı, uşaqlar ilahilər (=dini nəğmələr - A.Y.) oxuyurdular. Rəsmlər və digər təzyinli (=zərli) əsərlərlə dolu olan bu kilsədə xeyli yüksək bir mahfil (=kafedra) vardı. Oraya çıxan saqqalsız və bığsız birisi bir saata yaxın moizə oxudu. Sonra təkrar orqan musiqisi çalındı, xorla ilahilər oxundu və ayin (=mərasim) bitdi. Mister Cona dedim:

- İbadətiniz elə budur?

- Daha nə olacaq ki?! Kafi və vafi (=yetərli, əskiksiz) deyilmi? Allahı da uzun-uzadı rahatsız etməyə hacət qalmır. Uca Allah onsuz da arifdir, hər şeyi biləndir. "Quran"da *"Yerdə və göylərdə heç bir şey Allahdan gizli qalmaz."* [41] ayəsi yazıya alınmayıbmı?! *"Allah, həqiqətən, bəndələrini görəndir!"*[42] ayəsini heç oxumadınmı?

*"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"*[43] anlamındakı əmrini heçmi görmədin?

Hər məsciddə, hər təkyədə (=dini ocaqda, dərviş ocağında - A.Y.) divarlara asılan lövhələrdə "Bunlar bir-birlərinin soyundan (=nəslindən, zatından) gəlmiş kimsələr-

dir."[44] "***Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir (və kimi peyğəmbər seçəcəyini bilir)"***[45] və ***"(Ey möminlər! Bədrdə) onları (kafirləri) siz öldürmədiniz, Allah öldürdü. (Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir!"***[46] ayəsi yazıya alınmayıb məgər?!

"***Bəli Siz o kimsələrsiniz ki, onları sevirsiniz, onlar isə sizləri sevməzlər. Siz bütün (ilahi) kitablara inanırsınız. Onlar isə sizinlə görüşdükləri zaman "biz də inandıq" deyir, xəlvətdə olduqda isə sizə qarşı qəzəblərindən barmaqlarını gəmirirlər. (Ya Rəsulum) De: "acığınızdan ölün!" Əlbəttə***, "***Allah ürəklərdə olanları biləndir.***"[47] ayəsini də bilmirsən yoxsa, Mustafa əfəndi? Müsəlmanlıq iddiasında olsan da, öz dinini heç mənim qədər bilmirsən.

Mən də:

- Əfəndim, mən müəllim deyiləm, bir dənizçiyəm. Əlbəttə, sizin qədər bilə bilmərəm. Yalnız mən çox bilmədiyim halda iman edirəm. Siz isə həqiqəti bildiyiniz halda iman etmirsiniz, müşriksiniz (=Allaha şərik qoşansınız). Allah təala "Nisa" surəsində buyurur: "***Şübhə yoxdur ki, Allah özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan kəs, əlbəttə, böyük günah etmiş olur***"[48] və "***De Şahidlik baxımından nə daha böyükdur? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Qur'an mənə sizi və ona (gələcəkdə) yetişəcək kimsələri (qiyamətə qədər) xəbərdarlıq edib qorxutmağım üçün vəyh oundu. Məgər Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?" De: "O, tək bir Tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan***

***(bütlərdən) tamamilə kənaram!”***[49]. Madam ki, digər ayələri oxuyub-bilirsiniz, bəs bu ayeyi-kərimə necə, heçmi gözünüzə sataşmayıb?-dedim. O, isə:

- Mustafa əfəndi, mən “Quran”ı əzbər bilirəm. Buna bənzər “Nisa” surəsində digər ayeyi-kərimə də var: ***“Allah Ona şərik qoşmağı əsla bağışlamaz. Bundan başqa olan günahları isə dilədiyi kimsə üçün bağışlar. Allaha şərik qoşan şəxs, şübhəsiz ki, (haqq yoldan) çox azmışdır.”***[50] Mən bunların hər ikisini də bilirəm. Hətta sizə onu da xatırlada bilərəm ki, Allah bütün qullarına bildirir ki: ***“Əgər yaxşı bir əməli aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi əfv etsəniz (Allah onları bilər). Həqiqətən, Allah bağışlayandır, qüdrət sahibidir!”***[51]

Həyatımızın sonunda bizləri nəyin gözlədiyini haradan bilək? “*Arif olan kəsə bir işarət yetərlidir*” deyirlər. Allaha istədiyini qısaca da söyləyə bilərsən, bu, yetərli olar. Hətta çığırıb-bağırmaqdansa, bunları ağlından və qəlbindən keçirməyin də yetərlidir. Amma bu ayinləri, kilsələri, bəzək-düzəkləri heçə saymayın. Xalqı yola gətirmək üçün başqa çarə yoxdur. -dedi.

Mən də:

-İndi burada xatirimə bir şey düşdü. Ulu babalarımız axır zamanda (=dünyanın sonuna doğru - A.Y.) “*böyük xristian millətlərdən biri dönüb müsəlman olacaqdır*” deyirdilər. Biz də, öz ağlımıza görə, “*Bu millət olsa-olsa, ingilis milləti olar*” deyirdik. Halbuki ingilislər müsəlmanlığa keçmələri bir yana qalsın, biz müsəlmanları da dinimizdən döndərmək istəyirmişlər. Əcəb boş düşüncədir! Əcəb faydasız əməldir! Aləmlərin uca Rəbbinin qüdrətini, böyüklüyünü olduğu uca mərtəbədən mümkün olduğu qədər üstün göstərən və asanlıqla anlaşılan bir dini qoyub, öygü-

lərə təriflərə layiq və şanlı bir peyğəmbər olduğuna inandığımız, İsa həzrətlərini - Davud peyğəbər soyundan törəmiş bir israil oğlunu kainatda bircə zərrəni də yaratmayan, yer üzünə Allah olaraq endirilib, öz həmcinsləri tərəfindən öldürüldüyünü, sonra isə Allahın sağ əliylə təkrar göylərə yüksəldiyini iddia edən bir dini biz necə qəbul edə bilərik?! Allah insan şəklində deyildir ki, əli-ayağı da olsun! Şanı uca olan "Quran"da belə bir ayeyi-kərimə vardır: ***"Məryəm oğlu İsaya aşkar möcüzələr (dəlillər) bəxş etdik və onu müqəddəs ruhla qüvvətləndirdik."***[52] Əlbəttə ki, uşaq atasına bənzəyər və Allah ölməz. Halbuki İsa öldü. Allah yaratdıqlarının ruzisini verər və onları qoruyar. İsa isə bunlardan heç birisinə sahib deyil. Allahdan gizli qalan heç nə yoxdur, halbuki İsa qeybi bilməzdi. Allah yeməz, içməz, yatmaz,***"Onların hər ikisi (Məryəm və İsa) (adi insanlar kimi) yemək yeyirdi."***[53]

Bax, beynimdən böyük sürətlə keçən bu fərqlərlə İsa əleyhissəlamın, əstəğfürullah, Allah və ya Allahın oğlu olduğuna heç cür inana bilmirəm, çünki "***Ona heç bir şeyi şərik qoşmayın!***"[54] ayeyi-kərimısinə uyğun olaraq, Allaha ortaq qoşa bilmərik.

İsanın öz bədəniylə göylərə yüksəldiyi də heç ağlıma batmır. Göylər bəlkə də İsanın yaşadığı zamanlarda başqa cür təsəvvür edilirdi, başqa cür qavranırdı. Bugün biz göyün sonsuz bir boşluq olduğunu bilirik. Belə bir sonsuzluq içində hər hansı yer təyin edilə bilərmi? Uca Allah hər yerdə hazır və nazirdir, fəqət məkanı yoxdur. Məhz bunu anlamaqda hər kəs çətinlik çəkir. Muhyiddin Ərəbinin (="Şeyxi-əkbər", Böyük şeyx adıyla məşhur olan və təsəvvüf düşüncəsinin təməl daşlarını formalaşdıran ərəb alimi ibn-Ərəbi (1165-1240) – A.Y.) farscadan tərcü-

mə olunan aşağıdakı qitəsi bu sözlərimə çox uyğundur:

*Mən bilməz idim, gizli, əyan həp sən imişsən.*
*Tənlərdə və canlarda nihan (=gizli) həp sən imişsən.*
*Səndən bu cahan içrə nişan istər idim mən,*
*Axır zaman bildim ki, cahan - həp sən imişsən.*

Böyük peyğəmbərlərin bizə təbliğ etdikləri Allah birdir, öz qüdrətiylə bütün varlıqları yaratmaqla yanaşı, onların həyatlarını və ölümlərini öz əlində saxlamaqdadır. Yəni bu, yaradılanların Yaradan tərəfindən yox olacaqları mənasına gəlir ki, həqiqəti anlamaqdan ötrü zövq və kəşf hissin olmalıdır. Bu inancı tərk eləyib, İsa həzrətlərini (əleyhissəlam) Allah kimi qəbul edən dinə necə girə bilərəm?! Müsəlmanların ən cahili, ən mədəniyyətsizi belə xristian inancını rədd və tənqid etməkdə zərrə qədər tərəddüd göstərməz. Xüsusilə də, ata, oğul və müqəddəs ruhu birləşdirməklə, bunlardan ortaq bir tanrı meydana gətirməyə həvariləri (=apostolları) məcbur edən, İsa həzrətlərinin uluhiyyət (=tanrılıq, ilahilik) dərəcəsinə yüksəlməsinə qədər gedib çıxan bir məsələnin bu peyğəmbəri hər vəchlə böyük göstərmək arzusundan doğduğunu anlayan elm adamlarımız bu dini necə təqdir edə bilərlər?!

Xristianlığı bir din şəklinə salmaq üçün Allahı tək (=ortağı olmayan), İsa həzrətlərini isə Onun peyğəmbəri kimi qəbul etmək lazımdır. Elə doğru olan da budur. İsa həzrətləri insanların, hətta peyğəmbərlərin, Allah elçilərinin ən böyüklərindən biri ola bilər, lakin heç bir halda Yaradan ola bilməz, çünki o özü də yaradılmışdır, aciz məxluqdur. Acizlikdən uzaq olan isə yalnız Allahdır. Mütləq qüdrət sahibi olan da yalnız Odur. “Mimdir “Əh-

məd"lə "əhəd" arasındakı fərq"[55] deyən kimsələrə mənim etirazım var.

Məhəmməd şanlı (=adlı-sanlı) bir nəbidir (=peyğəmbərdir). O Allahın quludur, Allah ola bilməz. Allah təala da Qur'an"da belə buyurur: ***"Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak (Allahın hökmlərini sidq-ürəkdən təsdiq edən) bir qadın idi. Onların hər ikisi (adi insanlar kimi) yemək yeyirdi. Gör Biz ayələri onlara necə başa salırıq, onlar (bu ayələrdən) gör necə üz çevirirlər***."[56]

Yenə də "Qurani-Kərim"də belə bir ayeyi-cəlilə var: "***(Yəhudilər, xaçpərəstlər və müşriklər) dedilər: "Allah (Özü üçün) övlad götürmüşdür". Allah pakdır, müqəddəsdir (bu sözlərin Ona heç bir aidiyyəti yoxdur. O, bütün eyib və nöqsanlardan xalidir). Bəli, göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir!***."[57] Yəhudilərin Üzeyir həzrətlərinə "Allahın oğlu" demələrini təqlid edərək, xristianlar da İsa həzrətlərinə "Allahın oğlu" deyirlər ki, bu da heç doğru və gerçək deyildir. İlahinin ***"Dində məcburiyyət (zorakılıq) yoxdur."***[58] əmri bizdən ötrü çox gözəl buyruqdur. Kimsəyə zorla dinimizi qəbul etdirə bilmərik. Siz xristianlar da belə etsəniz olmazmı?! Bizim kitabımız "Quran"da Həzrəti İsa (əleyhissəlam) haqqında deyilir: Allah belə deyib: "***O vaxt Allah buyurdu: "Ya İsa, həqiqətən, Mən sənin ömrünü tamam edib Öz dərgahıma qaldıraram,***[59] ***səni kafirlərdən pak edərəm (tərtəmiz ayıraram). Sənə iman gətirənləri qiyamət gününə qədər kafirlərə qalib edərəm. Sonra isə Mənim hüzuruma qayıdacaqsınız. O zaman ixtilaf etdiyiniz məsələlər barəsində aranızda Mən hökm verəcəyəm!.***"[60]

“***Allah yanında İsa da (İsanın atasız dünyaya gəlişi də) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: “(Bəşər) ol!”- dedi, o da oldu.***”[61]

“***Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur. Allaha və peyğəmbərlərinə iman gətirin. (Allah barəsində) “üçdür” deməyin. (Belə sözlərə) son qoyun ki, (bu) sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah tək bir tanrıdır. Övladı olmaqdan (bu bəşəri xüsusiyyətdən) kənardır. Göylərdə və yerdə nə varsa, (hamısı) Onundur. Allahın (sizə) vəkil olması bəs edər!***[62].”

Bunlardan başqa da çox ayə vardır. Həzrəti İsanın çarmıxa çəkilmədiyinə dair “Quran”da olan ayət: ***“Onlar həm də küfr etdikləri (İsanı inkar etdikləri) və Məryəmə qarşı böyük bir böhtan dedikləri üçün (lənətə düçar oldular). (Onların lənətə düçar olmalarının bir səbəbi də:) “Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük”, - deməleridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişlər.”***[63]

Bizim buna iman gətirməmiz gərəkdir. Xristianlar: “*İsa bir insan olaraq asılsa da, bir ilah kimi göylərə yüksəldi*” deyirlər. “Quran”da bu məsələ ilə bağlı ayə var: “***Onların ardınca Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içində haqq yolu və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən,***

***müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik.***"[64] Biz bunun xaricində heç nəyi qəbul etmirik.-dedim.

Mister Con bilgili və ərdəmli (=müdrik) birisi olduğundan söylədiyim bu doğru sözlərə belə cavab verdi:

- Şübhəsiz ki, İsa həzrətləri çarmıxa çəkilib, çünki bu sübut edilmişdir. Allahın oğlu olmağına gəlincə, bunu da açıqlaya bilərəm. Samilərə aid olan ərəblərdə və israillilərdə ortaq bir adət vardır. Məsələn, xeyli köləsi və xidmətçisi olan zəngin bir şeyx öz kölələrinə "övladım" deyə müraciət edər, kölələr də ağalarına "atam" deyərlər. Hətta belə şeyxlərin birisindən "Bu gənc kimdir?" deyə soruşanda o: "Bu – mənim övladımdır (=övladlarımdan biridir)" cavabını verir. Eyni şəkildə kölələrdən birindən əfəndisini xəbər alsanız, deyər ki: "Əbunə fulən" (=atam filankəsdir). Deməli, köləyə "övlad", ağaya isə "ata" demək bir nəzakət əlaməti və adətdir. İsa həzrətləri məsələsi də belə olmalıdır. İsa həzrətləri – Allahın quludur, İsraillilərin və ərəblərin ənənəvi etiqadlarına görə, Allah onu özünə övlad sayıb. Allah - İsa həzrətlərinin də Rəbbi və yaradıcısıdır. Məsih olan İsa həzrətləri də ona "ata" demişdir. Ruhul-qüds (=müqəddəs və ya qutsal ruh) isə varlıqların hamısında mövcuddur. "Quran"da "***(Ya Rəsulum!) Səndən ruh (ruhun mahiyyəti və keyfiyyəti) haqqında soruşarlar. De: "Ruh Rəbbimin əmrindəndir. (Allahın əmri ilə yaradılmışdır). Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!***"[65] ayəsi vardır. Bu əmr hər yerdə qüvvədədir və hər şeyə şamil edilən bu ilahi əmr hər yerdə eyni təsirə malikdir.

İsa həzrətlərinin "***Allah - ruhdur, ona səcdə edənlərin ruhən və həqiqətən səcdə etmələri gərəkdir***"[66] sözünü də gəlin, unutmayaq.

Mən cavabında dedim:

- Yəhudilər və xristianlar "*Biz – Allahın oğulları və sevimliləriyik*" ***deyirlər. Onlara de ki: "Əgər elədirsə, nə üçün sizlərə günahlarınıza görə əzab verir? Əslində elə siz də Onun yaratdığı adi insanlarsınız. O istədiyi kəsi bağışlar, istədiyi kəsə əzab verər***"[67] ilahi əmri sizin izahınızı boşa çıxarır.

Vəziyyətdən çıxmaq üçün o dedi:

- ***"Hər kəsə qazandığının (tutduğu əməllərin) əvəzi ödəniləcək və onlara heç bir haqsızlıq edilməyəcəkdir."***[68] ayəsini oxuyur və gələcəyi (yəni gələcəkdə nələr olacağını) gözləyirəm. Mustafa əfəndi, gəlin, bu söhbəti bitirək, bizim missionerlik fəaliyyətimiz barədə sizə ətraflı bilgi verim. Bu, sizə daha yararlı olar.

Londonda bir missionerlər məktəbi var. Xaricdə təhsil görənlər Londona qayıdanda bu məktəbdə imtahan edilirlər. Uğur qazananlar missioner olurlar, imtahandan kəsilənlər isə əlavə kurs keçdikdən sonra missioner statusu qazanırlar. Missioner məktəbinin ən önəmli dərsi - İsa (=xristianlıq) fəlsəfəsidir. Bu dərsdə zəif olanların missionerlikdəki dərəcələri də aşağı olur. Missioner olmağın bir çox şərti vardır. Bu şərtlərin ən önəmlisi – Londondakı missioner cəmiyyəti nəzdindəki məktəbdə təhsil alaraq yüksək dərəcəli diplom almaqdır. Amerikalılarla yanaşı, bir çox isveçli, norveçli, alman və danimarkalı missionerlər vardır. Protestantlığın yayıldığı hər millətdən missioner çıxa bilər. Amerikan missionerləri Şərqdə, ingilis missionerləri isə Uzaq Şərqdə fəaliyyət göstərirlər. Protestant olan hər ölkədə missionerlik şirkətləri var. Hər şirkətin nizamnaməsi və idarəetmə şəkli var. İngilis missionerləri dörd sinfə ayrılırlar. Bun-

ların ən böyükləri və birinci sinfə aid olanları – mürşidlərdir ki, bunlara "professor" deyirlər. İkinci təbəqə – sadəcə missionerlər, üçüncü təbəqə missioner köməkçiləri, dördüncü qism isə könüllü missioner tələbə dərnəyidir. Bu şirkətə "*Students Volunteer Missionary Society*" deyirlər. Bir də ayrıca missioner qadın cəmiyyəti və ya şirkəti var ki, bu şirkət də əsl ingilis missioner şirkətinin bir şöbəsidir. Hər sinfin öz dərəcələri var və bunlar mənimsənsə belə, siniflərini dəyişmir. Missionerlikdə stajla bərabər yaxşı xidmət, fədakarlıq, vəzifədə müvəffəqiyyət kimi məsələlər də daim göz önündə tutulur, buna görə missionerlər dərəcələrə yüksəldilir və siniflərə ayrılırlar. Missionerlərin hər sinfinin öz maaşı və əlavə ödəmələri var. Banklarda onların adlarına qoyulmuş əmanətlər mövcuddur. Bundan istədikləri qədərini ala bilirlər, amma pullarını həmişə ən vacib şeylərə xərcləyirlər. İndiyə qədər bir missionerin bu pulları pis məqsədlərlə xərclədiyini heç kim eşitməyib.

İngiltərə hökuməti bu məslək uğrunda canından



Missionerlərin Protestant etmək istədikləri Sudanlılar

keçən missionerlərin ailələrinin şad və bəxtiyar yaşamını təmin etməli, mərhumun övladlarına təhsil verməli, onları bir iş-güc sahibi etməlidir. Bir missionerin ona tapşırılan vəzifədə müvəffəqiyyətə çatmaqdan başqa bir düşüncəsi olmaz.

Missionerlərin bir qismi farmasondur. Bu yerdə sizə missionerlərin mənsub olduqları protestant məzhəbi barədə məlumat verdikdən sonra söhbətimə davam edəcəyəm. Pravoslavlıq və katoliklik XV əsrə doğru insanlığın başına bəla oldu. Rum (=Yunan) kilsəsinin zalımcasına və istəyə görə idarə olunması pravoslavları dindən, imandan uzaqlaşdırırdı. Avropanı hər cəhətdən öz hökmü altına alan katolik Vatikan kilsəsi isə katoliklərin əl-qolunu daha çox bağlayırdı. Xristianlıqda bir inqilab və yenilik etmək zamanının gəldiyi qənaətində olanlar həddindən çox idi. Ancaq heç kəs qabağa düşməyə cəsarət etmirdi. Hədsiz təzyiq altında və necəgəldi idarə olunan Vatikan taxtı-tacı X Levin (=Leoxun) (1521-1553) zamanında ən pis dövrünü yaşayırdı və dünya həyatının ən betər şeytani zövqləriylə kirlənmişdi. Cənnəti pulla satan, hökmdarları taxta gətirən və taxtdan endirən, zülmü ədalət kimi, ədaləti isə zülm kimi qələmə verən Papa X Lev (=Leox) ona verilən öyüdləri də qulaqardına vururdu. O dövrdə Erazm (=Erasmus) (1466-1536) və Ulrix (=Ulrich) von Hutten (1488-1523) kimi şəxsiyyətlər qələmləriylə savaşa girişdilər. Martin Lüter (=Luther) (1483-1546) və Kelvin (=Calvin) (1509-1564) kimi rahiblər də işə qarışdılar. Mücadilə qızışdı. Martin Lüter “Xristianlıqda ruhbanlıq (=rahiblik, rahibin fəaliyyəti – A.Y.) yoxdur” prinsipini önə sürdü. O, “Allah ilə

qulu arasında vasitəçi yoxdur" deyirdi. Lüter dərin ağıl sahibi idi, həmişə haqqı müdafiə edərdi, kor-koranə heç nəyə inanmazdı, mühakimə yürüdən (=məntiq sahibi) birisiydi. Mücəddid (=yenilikçi, novator – A.Y.) və xətib birisi olduğundan dinləyicilərini tilsimləyir, özünə bağlaya bilirdi. Katoliklikdən son dərəcə narazı olanlar Lüterin məzhəbinə girdilər və o, protestantlığı qurdu. Nasslardan və xristian ənənələrindən başqa hər şeyi, Papanın nüfuzunu, bidətləri, təmtəraqlı ayinləri, ruhanilərin evlənməmələrini, monastırlara qapanma tələblərini ləğv etdi, kilsədə rəsmlər asılmasına son qoydu. Hər şeyi sərbəst araşdırıb öyrənmə haqqını, buna ictihad etməyi (=səy göstərməyi – A.Y.) qəbul elədi. İstər Lüter, istərsə də Kelvin səhvsiz (=yanlışsız) deyildilər. Onların da az və ya çox səhvləri vardı. Lüterin Kopernikə kinayə etməsi, Kelvinin Migel Servantes barəsində rəva gördüyü davranışlar heç də bağışlanası səhvlər sayılmazlar. Lüter günahların əfvi üsulunu, ərafı[69], zəif iradəni və əzəli (=ilk) günah məsələsini kökündən baltaladı.

Vaftiz (=xaç suyuna salma – A.Y.) ilə çörək-şərab ayini xaric olmaqla, kilsədə mövcud olan bütün qaydaları rədd elədi. Avropanın, demək olar ki, hər tərəfində protestantlıq məzhəbi yayılmağa başladı. Bu məsələdə hökmdarların da çox yardımı oldu. Daha sonralar xristianlıqda İohan Ekk (=Johan Eck) (1486-1543), Con Knoks (=John Knoks) (1514-1572), Pastor Dekart (=Descartes), Bekon (=Bacon), Lokk (=Locke), Mirabo kimi mücəddidlər (=yenilikçilər), III və IV Pavellər (=Paul), V Piy (=Pius) (1585-1590), Sikst (=Sixtus) (1566-1572) (çox yəqin ki, bu - V Sikstdir) kimi böyük papalar yetişdi. Bu şəxslər xristianlığı saf-

laşdırmağa çalışdılar. Bir qismi katolikliyi islah etməyə, digər qismi isə protestantlığı yaymağa çalışırdı. 1559-cu ildən 1598-ci ilə qədər Qərbdə davam edən qanlı müharibələr nəticəsində protestantlıq reformu (=islahatı) həyata keçirildi, hər millət bu yeni məzhəbi, yəni protestantlığı öz məzacına, adət və ənənəsinə uyğunlaşdıraraq yeni bir kilsə tipi yaratdı. Sözün qısası, potestantlıq - xristianlığın sadələşdirilmiş, islah olunmuş və təmizlənmiş formasıdır. Get-gedə daha çox cilalanan bu məzhəb Avropa mədəniyyətinin irəliləməsində harmonik bir şəklə düşəcəkdi. “Zəmanə dəyişdikcə ehkamın da dəyişəcəyi”[70] prinsipi müsəlmanlar tərəfindən də qəbul olunmuşdu, odur ki, bəzi ictihadlar (=dini fikirlər – A.Y.) ilə bidətlərin əvəz olunacağı zamanın gəlib yetişdiyi fikrindəyəm.- dedi

Sonra mən vidalaşıb ondan ayrıldım. Müsəlman olaraq “İbrahim Xeyrullah Zəki” adını daşıyan missioner Con ilə ertəsi gün Plimuta döndük.”

Mərhum Mustafa bəyin macərasını açıqlayan hekayət burada bitir. Missionerlər mərhum Mustafa bəyi öz tərəflərinə çəkmək üçün ustaca tələlər qurublar, amma o mömin və müvəhhid (=Allahın təkliyinə səmimi inanan - A.Y.) şəxsi aldada bilməyiblər. Allah ona rəhmət eləsin. O vaxtdan bəri keçən yarım əsrdən artıq bir zamanda, təbii ki, missioner cəmiyyətində xeyli dəyişikliklər olmuşdur. İngilislər həm missionerlərdən, həm səyyahlardan və zəngin sahillərdən xeyli qazanc götürüblər. İndiyədək Osmanlı ölkəsində səyahət edən, araşdırma və ya incələmə apararaq əsər yazanlardan bildiklərimin adlarını aşağıda təqdim edirəm.

1. Mister Liak - rumi (=qriqorian təqvimiylə – A.Y.) 1216

-cı (miladi 1802-ci) ildə bütün Anadolu və Ərəbistanı gəzib dolaşıb. Missionerlər arasında Makdişi (=Somali) dilini bilən yeganə insan odur. **2**. Mister Seetzen - rumi 1220-ci (miladi 1806-cı) ildə eyni yöndə səyahətə çıxıb. **3**. Mister Lynch, **4**. Mister Burckhardt, **5**. Mister Potingress (=”Botinqress” olmalıdır-A.Y.), **6**. Mister Morier **7**. Mister Ferese **8**. Chesney **9**. Wellsted **10**. Toblers **11**. Robinson **12**. Ainsworth **13**. Rassam **14**. Baker **15**. Muir **16**. Carl Wilson **17**. Hacif **18**. Burton **19**. Blunt **20**. Lorats Olivas **21**. Trummer **22**. Layard **23**. Rawlinson **24**. George Shmidt **25**. Ramsay **26**. Hogarth **27**. Monroe **28**. Peters **29**. Lyon Hard **30**. Menzel **31**. Masse **32**. Mark Sykes **33**. Miss Lovetyanbil **34**. Mister Ellsworth Huntington **35**. Wrede **36**. Belfraus **37**. Bliss **38**. Miles soyadlı missionerlər, yazıçılar, araşdırmaçılar və səyyahlar müxtəlif tarixlərdə Osmanlı diyarını gəziblər. Mister Lynchin şərq vilayətlərimizin vəziyyətəni açıqlayan gözəl bir əsəri vardır. **39**. Mister Manzoni - miladi 1877-ci ilə uyğun gələn rumi 1293-cü ildə Hudeydə ilə Səna arasını qarış-qarış gəzərək, mükəmməl bir xəritə hazırlamışdı. Bugünkü gün də, biz bu xəritədən yararlanırıq.

Daha öncələr Osmanlı ölkəsində tədqiqat aparan missionerlər, araşdırmaçılar və səyyahlar isə: **40**. Mister Dognis **41**. Glaser **42**. Hurgronje **43**. Fortelmonts **44**. Hirsch **45**. Pintis **46**. Musil **47**. Zwemer **48**. Honey **49**. Weifel **50**. Wyman Bury və başqalarıdır. Mister Fortelmont isə iyirmi gün Məkkədə, on beş gün Mədinədə olub.

Sadaladığım bu şəxslər önəmli əsərlər qoyub gediblər. Hələ bir çoxları da var ki, məmləkətimizi dolaşıblar və ya hələ də dolaşmaqdadırlar. Beləlləri sadəcə hesabat hazırlayıb lazımi təşkilatlara (=instansiyalara - A.Y.)



Merzifonda Amerikan missioner məktəbi

təqdim etdiklərindən və əsər yazmadıqlarından, onların adlarına heç yerdə rastlamadım. Bu gün 150 missioner cəmiyyətinin yaxud şirkətinin, on min missionerin və əlli min köməkçinin fəaliyyətdə olduğu bilinir.

Aparılan statistik hesablamalara görə, Yer üzündə 240 milyon katolik, 95 milyon protestant, 105 milyon pravoslav olmaqla ümumilikdə 440 milyon xristian vardır. Yəhudilərin sayı isə 12 milyon nəfərdir.

Bu gün Yer üzündəki müsəlmanların sayı, Avropa statistiklərinin verdiyi bilgilərə görə, xristian əhalidən 80 milyon nəfər azdır. Osmanlı məmləkətində 25 milyon, Rusiyanın hakimiyyəti altındakı ərazilərdə 35 milyon, İranda 10 milyon, Hindistanda 80 milyon, Çində 85 milyon, bütün Afrika qitəsində 90 milyon, Yava, Sind, Sumatra və digər şərqi adalarda 40 milyon, Əfqanıstanda və Bəlucistanda 10 milyon müsəlman mövcuddur. Deyilənlərə görə, onların toplam sayı 385 milyona çatmaqdadır. Mən bu rəqəmi 400 milyona yaxın təxmin

eləyirəm, çünki Afrikada müsəlman əhali daha çoxdur və orada siyahıyaalma işi aparılmayıb. İslam dini bugün heç bir təbliğat (=yayım) fəaliyyəti olmadan, hər cür propaqandasız, hümmətsiz, xərcsiz və özü-özünə yayılmaqdadır. Əgər xristianlar kimi bizim də missionerlərimiz, yayıcılarımız (=təbliğatçılarımız) olsaydı, o halda 700 milyona çatan bütpərəstləri qısa zamanda İslam diniylə şərəfləndirəcəyimizə heç şübhə etmirəm. "***Lə iləhə illəllah Muhamməden-Rəsulillah***" deyənlər çinli, koreyalı olsalar belə, yenə də müsəlmandırlar, digər millətlərə mənsub müsəlmanlarla qardaşdırlar. Milliyyət yalnız dindədir. "Müsəlman olanın milliyyəti İslamiyyətdir" deməli, başqa bir şey axtarılmamalıdır. "Bu sünnidir, bu şiədir, bu vəhhabidir, bu türkdür, bu albandır, bu - kürddür, bu bosniyalıdır, bu yunandır, bu lazdır, bu ərəbdir" deyə ayırımçılığa başlasanız, İslamdakı birlik pozular, islamiyyətin gücü azalar. Peyğəmbərimiz peyğəmbərliyini ilk dəfə elan etdiyi zaman: "***Ey insanlar! Allahdan başqa tanrı yoxdur!***" deyin, qurtuluşa nail olacaqsınız" deyə insanlara səsləndi. Məhz bu cümlə ilə o, xalqı dinə dəvət elədi. Bu cümləyə və bu dəvətə görə artıq müsəlmanlar arasında hər hansı təfərrüat üzündən ayrıseçkilik olmamalıdır. Hər insan öz əməllərinə görə divana çəkiləcəkdir. Buna görə də inancına (ictihadına, fərqli din anlayışına) görə başqa birisini günahlandırmağa heç kəsin haqqı yoxdur. Əgər birisi "*Lə iləhə illəllah*" deyirsə, artıq o mənim qardaşımdır və deməli, bununla hər şey nöqtələnməlidir.

Müsəlmanlar arasında qarşıdurma (=ayrılıq, təfriqə, nifaq) yaradanlar İslamın nəzərində məqbul kimsələr sayılmazlar, çünki müsəlmanlar arasına təfriqə salmaqla

onlar İslama qarşı ən böyük düşmənçilik etmiş olarlar. Peyğəmbərimiz Minada oxuduğu xütbədə buyurmuşdur ki: "***Sizin qanınız, malınız digərinizə haramdır. Onu bilin ki, siz Qiyamətdə Allahın hüzurunda bir araya gələcək, etdiklərinizə görə sorğu-suala çəkiləcəksiniz. Etdiyiniz əməllərin qarşılığını alacaqsınız. Zinhar, məndən sonra o kafirlər kimi firqələr*** (=qruplaşmalar, dəstələr - A.Y.) ***yaradıb, biri-birinizə qənim kəsiləsiniz***." Mövcud olan dinlərin kitabları hamısı ortadadır. Oxuyun onları, sonra bir kərə də "Qurani-Kərim"i mütaliə edin, bunları tədqiq etsəniz, aradakı fərqi görərsiniz. Dinimiz mövcud dinlərin ən möcüzəlisidir (=sadə olduğu qədər də mükəmməlidir). Kitabımız - kitabların sonuncusu və nöqsansızıdır. Dinimizi bəyənməyənlər - bu dindən nəsibini almayanlar və ondan xəbərsizlərdir. Bu fikrə qarşı etiraz etmək üçün onlar "Quran"ın ən azı qısa məzmununu (=məalını, izahını, yorumunu - A.Y.) bilməlidirlər. "Quran"ın mənasını heç kim anlaya bilməz" və ya "Quran" tərcümə oluna



Merzifonda Amerikan missioner məktəbi tələbələri

bilməz" kimi iddialar və qənaətlər isə gerçəyə heç uyğun deyildir.

Uca Rəbbimiz bu kitabı bizə mətninə və içindəki buyruqlara əməl etməmizdən ötrü göndərdi. Yoxsa ki, onu bir müəmma kimi göndərib, bizi onu açmağa, anlamağa möhtac vəziyyətdə buraxmadı. "Quran"a "müəmma" deyənlər öz cahilliklərini örtmək, gizlətmək istəyən kəslərdir. "Qurani-Kərim" - açıq (=anlaşılan), sarih şəkildə yazılıb, məncə. Qədim alimlər özlərinin dəyərlərini artırmaqdan ötrü "Qurani-Kərim"i ucu-bucağı olmayan yorumlarla təqdim etməyə çalışıblar. Orada bir neçə kəlmə var ki, onların nəyə dəlalət etdiyi xüsusunda alimlər şübhəyə qərq olublar. Misal üçün, "ha-mim", "ayn-sin-qaf", "əlif-lam-mim" kimi. Mən vəhhabi deyiləm, amma "Gəlin, "Quran"ı olduğu kimi oxuyaq və ondakı buyruqların icrası üçün mənasını bilib-öyrənək" deyirəm. Peyğəmbərimiz "Vida həcci"ndə verdiyi əmrdə buyurmuşdur: "Möminlər hamısı qardaşdırlar. Qardaşın malı qardaş üçün halal olmaz. Əlbəttə, könül xoşluğuyla verməsi xaric. Sizə ilahi hökmləri təbliğ etdim (=çatdırım) və iki şeyi əmanət qoyuram, onlardan möhkəm yapışdıqca heç vaxt yolunuzu azmazsınız. Bunlardan biri - Allahın kitabıdır, digəri isə Allahın elçisinin sünnəsidir".[71]

Bizim rəhbər tutacağımız kitab əlimizdədir. Hədislər isə bir çox əsərlərdə nəql edilib. Peyğəmbərin sünnələri də bəllidir. Bunlarda tapmadığımız məsələlərlə bağlı qiyas (=müqayisə, qarşılaşdırma - A.Y.) ilə, ictihad ilə, icma ilə müəyyən qərara gəlməyimiz mümkündür. Əbu Hənifə Osman həzrətləri ilə Əli həzrətləri arasındakı anlaşmazlığı necə də gözəl həll etmiş və belə buyurmuşdu: "*Biz Osmanla Əli arasındakı məsələni Allahın*

*ixtiyarına veririk. Biz yalnız Peyğəmbərin səhabələrinin tərəfini tuturuq, onlardan başqa bir kimsənin ardınca getmərik*". Amma həç kim bu məqama diqqət yetirmir, hamı öz köhnə iddialarında israrla durur. Kimisi Osmanın tərəfini, kimisi Əlinin tərəfini tutur. Məhz bu üzdən ortaya çıxan sünnilik və şiəlik isə İslam dünyasını həqiqətən sarsıdır. Bir gör nə qədər qan tökülüb, amma hələ də mövcud düşmənçilik səngimək bilmir?!

İbn Batuta öz səyahətnaməsində qeyd edir ki: İsfahan ən böyük və gözəl şəhərlərdən olsa da, buradakı sünnilərlə rafizilər arasındakı fitnə və amansız qarşıdurma ucbatından bu yaşayış məntəqəsinin böyük bir qismi xarabalığı xatırladır. Bu qarşıdurma və nifaq bu gün də davam etməkdədir, hər iki tərəf bir-biriylə boğuşmaqdan heç cür bezmir. Bu da sizin üçün gerçək bir örnək! Bu da acınacaqlı bir hal! Ən azından iyirminci əsrdə bunun kimi hallar olmamalıdır. Osman həzrətləri ilə Əli həzrətləri kimi iki zatın 1300 il öncə aralarında doğan bir problemin həlli və haqlı ilə haqsızın ayırd edilməsi bizə düşməz. Axirətdə uca Mövla (=Yaradan) bu məsələni özü həll eyləyər. Buna tərəfsiz yanaşacaq olsaq, hər ikisinin tövründə (=davranışında, tutumunda - A.Y.) etiraz ediləcək cəhətlər vardır. Əli həzrətləri hər kəsə inanırmış, hər kəsi yaxşı, dürüst bir insan sanırmış, özü mərd və cəsur birisi olsa da, siyasətdə xətalı (=yanlış) davranışları varmış. Osman həzrətlərinin isə öz tərəfdarlarını dəstəkləmək, onları vəzifə və mövqelərə gətirərək əllərinə böyük yetkilər (=səlahiyyətlər, ixtiyarlar - A.Y.) vermək kimi zəif cəhəti varmış. Qul qüsursuz olmaz, qüsursuz olan yalnız Allahdır.

Ətbaına meyl etdiyi üçün Həzrəti-Osman
Qətlində sükut eylədilər Əli ilə əshab[73]

Hər iki tərəfdə də az-çox xəta olunca, əlavə bir söz söyləməyə ehtiyac qalmır. Bu şəxslərin hər ikisi həm axirətdə, həm də bu dünyada böyük məqamlar, sifətlər qazanmış adamlardır. Onlara vəzifəyə, mövqeyə can atmaq yaraşmazdı. Yunan şairlərindən Pandalides demişdir:

"*Pul! Ey daima güc, qüvvət nişanəsi olan pul! Sənin eşqinlə həm padişahlar həm də onların taxtları titrəyir*."

Vəzifəyə, mövqeyə qarşı duyulan ehtiras əslində sərvət ələ keçirməkdən ötrüdür. Sərvət isə şairin dediyi işi görər. Bu səbəbdən də İslam aləmində təfriqə yaradanlar, əlbəttə ki, "Quran"ın və müqəddəs sünnənin tələblərindən kənara çıxırlar. Fəsad toxumu səpməklə pis ad çıxarır, əllərini və vicdanlarını qana bulayırlar.

Qısaca desək, Allahın müqəddəs elçisi "***Asanlaşdırın, çətinləşdirməyin***"[74] deyə buyurub. İslamiyyəti asanlaşdırmaq, hər kəsi ona cəlb etmək - bütün müsəlmanların vəzifəsidir. Yalnız bircə şey vardır ki, o da asanlaşdırma zamanı həyanı, ədaləti, mərhəməti yoxa çıxarmamaqdır, çünki "bir millətin üzərində yaşadığı torpaqlarda bərəkət, qadınlarında həya və namus, hakimlərində ədalət, xalqında mərhəmət olmazsa, o millətin siyasi həyatının sonu gəldiyinə şübhə olmamalıdır" kəlamı var. Ona görə də çöküşün əlamətləri olan bu dörd maddənin bərqərar olmasına yol verilməməlidir. Axırda onu deyə bilərəm ki: Müsəlmanlar biri-birlərini sevməlidirlər. İslam Dinini Yayma Cəmiyyəti adıyla islamçı bir cəmiyyət quraraq, İslamiyyətin yayılmasına və onun ge-

niş kütlələrə çatdırılmasına çalışmalıyıq. Missionerlərin proqramlarında bizlərin də təqlid edəcəyi gözəl hərəkətlər və davranışlar vardır, çünki onların proqramları saysız-hesabsız təcrübələr yoluyla cilalanaraq bugünkü hala gətirilmişdir. Bu, bizi uzun-uzadı araşdırmalardan xilas edəcəkdir. İslamı Yayma Cəmiyyəti digər İslam ölkələrində şöbələr açmaqla yanaşı, oralarda indiyədək var olan cəmiyyətlərlə əlaqələr də qura bilər.

Bizim də mürşidlərimiz, dinimizdən bəhs edrək onu yayacaq insanlarımız olarsa və onlar da dünya malına tamah salmayaraq yalnız din uğrunda çalışmaq şərtiylə ömürlərini bu vəzifəyə sərf edərək, hər cür çətinliyə sinə gərərək dünyanı dolaşarlarsa, əlbəttə ki, dinimiz daha geniş miqyasda və sürətlə yayılar. Amma İslam cəmiyyəti gözəl bir məktəb yaratmalıdır, yaxşıca düşünülmüş, sadə, çətinliklərdən uzaq, zehnləri yormayacaq gözəl proqramlar sayəsində bu məktəbdə dini təbliğ edəcək şəxslər yetişdirməlidir. Bu mövzu - Məşiat (=Şeyxülislamlıq) idarəsinin boynuna düşən başlıca vəzifədir. Qısa zaman içində bu yolda da böyük uğurlar qazanacağımızı ümid edirik.

Mərhum Mustafa bəyin bizə danışdığı macərada missionerlərin bəzi sözlərini (=düşüncələrini) cavablandıracaq insanların aramızda var olduğuna şübhə yoxdur. Buna görə də bu xüsusu onların öhdəsinə buraxaraq, bir İslam dahisinin dediyi aşağıdakı misranı təkrar edirəm:

*Xuda cani-cihanəst,*
*Və cihan cümlə bədənəst.*

(Mənası: Tanrı - cahanın ruhudur və cahan başdan-ayağa bir bədəndir)

Allah vardır və insanların təsəvvür etdiklərindən daha böyükdür. Vəhdəti-vücud və vəhdəti-şühud nəzəriyyələri haqqında bir çox kitab yazılmışdır. Qənaətimə görə, hamısı birdir. Mərhum Süleyman Çələbi mövlud haqda əsərində "*Birdir Allah və Ondan başqa tanrı yoxdur*" deyir. Peyğəmbər əfəndimiz də buyurur ki, "***Allah vardır və ondan başqa bir şey yoxdur***."[75]Birlik - əbədidir, hər kəs necə bilirsə, hansı şəkildə qavrayırsa-qavrasın "***Allah - bəs, baqi - həvəs***" (=Mənası - Allah yetərlidir, bəsdir, geriyə qalan şeylər isə əhəmiyyətsizdir, yoxdur, quru həvəsdir - A.Y.). Xristian millətlərin bunca çalışmaları qarşısında, gəlin, ümidsizliyə qapılmayaq, çünki uca Peyğəmbərimiz "***Allah insanların önündə getməyi mənim ümmətimə bəxş etmişdir***"[76] hədisi-şərifiylə bizə İlahinin lütfünü müjdə kimi vermişdir. Müsəlmanlar hər zaman idarə etmək və dövlət quracaqları barədə müjdələnmişlər.

Merzifondakı amerikan məktəbinin müdiri, missioner mister Thris şagirdlərinə dərs verərkən sözü İslam aləmindəki birliyə gətirərək belə demişdi:

- "*İslam birliyini bu irq və məzhəb ixtilafları şəraitində həyata keçirmək nəhəng bir gəmi trosunu iynənin gözündən keçirməkdən daha çətindir.*"

Mən də o vaxt mister Thrisə:

- "*O nəhəng tros iynənin gözündən keçəcək qədər incə sapların birlikdə burulması yoluyla meydana gəlir. Mövcud halıyla bu tros iynənin gözündən keçə bilməsə də, açılaraq ayrı-ayrı saplar şəklində buna nail olmaq mümkündür. İynənin gözündən keçəndən sonra onlar burularaq təkrar tros halına salına bilərlər. "Möminlər - qardaşdırlar"[77] ayəsi ilə irəli sürülən müddəa millətlərarası ixtilafı yox etməyə qadirdir, məzhəb fərqləri isə*

*bizdə dərin düşmənçilik doğuracaq xüsus sayıla bilməz, çünki anlaşmaq mümkündür*" dedim. Bununla mən ona çox yaşlandığını və artıq istirahətə getməsinin lazım gəldiyini sezdirmişdim.

Buna cavab olaraq mister Thris:

- "*Boş-bekar dayanmaq - mənim üçün cəzadır*" dedi və həyatının sonuna qədər çalışacağını bildirdi.

Bunların yaratdığı saysız əngəllərə baxmayaraq, İslam dünyasını bir (=tək, vahid) mərkəz ətrafında birləşdirmək yenə də mümkündür, çünki dünya xəritəsini gözümüz önündə canlandırsaq, İslam ölkələrinin bir-birinə yaxın yerləşdiklərini görərik. İslam məmləkətləri Kəbətullah (=Allahın evi) sayılan Kəbənin çevrəsində yerləşirlər. Bu, məqsədimizin gerçəkləşdirilməsinə xidmət edəcəkdir. Məsələn, müsəlmanlar musəvilər kimi dağınıq və tör-töküntü halda deyillər. Elə Osmanlı dövlətinin formalaşmasında müsəlman millətlərin bu dövlət ətrafında toplanmasını, birləşməsini təmin edən məsələ - qılıncın deyil, bəlkə də ədalətin varlığı idi. Şəxsi istəkləri tərk edib, adil bir qanuna riayət edərək, gözəl və xoş şeyləri əmr etmək, bunları təşviq etmək, yaman (=şər) işlərə əngəl olmağa çalışmağı insaf sahibi olan hər kəs qəbul edər. Heç bir narahatçılığa qapılmadan digər dindaşlarımıza özümüzü sevdirə bilsək, hər vasitə ilə bizləri təfriqəyə doğru sürükləmək üçün əlindən gələni edən düşmənlərimizə üstün gələ bilərik. Səbir və düşüncə ilə hərəkət etmək, əzmli və qərarlı olmaq hər cür zərərli planları önləyər. Əzm və mətanət yüksəlişin və uğurun açarıdır. Durmadan çalışmaq -rifahın və bəxtəvər həyatın ilkin şərtidir. Mən Avropada olmuşam. Orada hərbi

attaşe işləyərkən Qərbdə yazılan bir çox dini kitabları oxudum. Şərq vilayətlərimizi gəzib dolaşan amerikan missionerlərlə təmaslarım oldu və onlardan bir çox şeylər eşitdim. İslam dünyası əleyhinə yazılan kitabları gözdən keçirdim. Rəbbimə həmd və şükür edərək deyirəm ki, inancımda zərrə qədər sarsılma olmadı. Hamımız İslamın əsaslarından möhkəm yapışdıqca, bu təməllərə sədaqətlə bağlandıqca, sağlam və güclü olarıq. Əksinə, islamçılıqdan uzaqlaşdıqca, ona soyuq yanaşdıqca zəif və gücsüz qalarıq.

Osmanlı dövlətinin müsəlman vətəndaşları əxlaqını korlamamaq şərtiylə mədəniyyəti qərbdən, qüvvəti isə şərqdən və cənubdan almalıdır. İslamiyyət birliyi, qardaşlığı və yüksəlişi əmr edir. Sükunəti, ətaləti, düşmənçiliyi və təfriqəni sevməz. Buna görə də o, başqalarının ancaq sözdə var olan (=qondarma), amma əməldə olmayan birliyini və qardaşlığını deyil, İslamiyyətin əmr etdiyi birliyi, qardaşlığı, ədaləti, bərabərliyi, hürriyyəti və yüksəlişi meydana qoymalıdır. Mülk (=dövlət) ədalət sayəsində mövcud olar, davam gətirər. Hətta küfrlə olsa belə. Amma zülmlə əsla ayaqda dura bilməz. Aləmlərin Rəbbi olan Allah Qurani-Kərimdə buyurmuşdur: ***"Allah sizə əmanətləri öz sahiblərinə (onları almağa və qoruyub saxlamağa layiq olan kimsələrə) verməyinizi və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi buyurur. Həqiqətən, Allahın bununla sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!"***[78]. Özü və sözü doğru, qəlbi saf və təmiz, düşüncəsi hiylədən və xıltdan uzaq, duyğuları kindən və qəzəbdən sıyrılmış, yaxşılığa, gözəlliyə, irşada (=doğru yolu tapmağa, Haqq yolunu tap-

maǧa - A.Y.) yönələn bir insan, sözünü də açıq-aşkar söyləyər. İçi çölünə, hərəkətləri düşüncəsinə uyǧun gəlməyən, öz davranışlarını, düşüncə və niyyətlərini açıq söyləyə bilməyən mənfəətçi insanlar isə hər zaman susmaǧa məcbur olarlar.

Fələstin torpaqlarında avropalı xaçlılara qalib gələn və insanlıq duyǧusuna hədsiz sadiq olan türklərin din hürriyyəti, xaçlıların yardımından məhrum olan xristianları ucdantutma müsəlman etmələri asan olduǧu halda onları dinlərindən döndərməyi rəva görmədikləri barədə kitablarda yazılıb. Bu durum və tarixi gerçək, xristianları türklər barədə səmimi (=dostcasına) düşündürəcək bir xüsusdur, xristianlardan gözəl davranış və sədaqət gözlənir. Amma neyləyəsən ki, edilən yaxşılıqlar tez unudulur və bu zəmanədə hər kəs, vicdanını qaraltmaq bahasına da olsa, sadəcə qazanc umur.

## İSLAM ALƏMİ HAQQINDA BƏZİ TARİXİ BİLGİLƏR

Əbrəhənin Məkkəni mühasirəyə almasının 52-ci gününə, Nuşirəvan Adilin Sasanilər taxtına çıxmasının 42-ci gününə, bir rəvayətə görə, Nuh tufanının 3882-ci ilinə və İsanın doğumunun 570-ci ilinə təsadüf edən fil ayında, rumi (=qriqorian təqvimindəki - A.Y.) aylardan aprelin 10-u, ərəb aylarından rəbiüləvvəl ayının 12-ci günü, bazar ertəsi gecəsi, üzü sübhə doğru dünyaya təşrif gətirən və peyğəmbərlərin sonuncusu olan Məhəmməd Mustafa əfəndimiz həzrətləri qırx yaşına dolandan sonra Allah tərəfindən yeni bir din (=şəriət) ilə insanlara və cinlərə peyğəmbər elan olundu. Miladi tarixiylə 610-cu ildə parlayan bu İslam nuru qısa bir zaman içində Yer üzünün bir çox bölgəsini nurlandırdı. Zaman keçdikcə İslam dininin işığı Şimali Sibirə, Şimal Buzlu okeanına, şərqdə Çin dənizinə, qərbdə Atlantik okeana, cənubda isə Ümid burnuna qədər irəlilədi, Asiyanın böyük bir qisminə, Afrikanın, demək olar ki, hamısına, Avropanın mərkəzinə doğru uzanmaqla şərq, cənub və cənub-şərqinə yayıldı. Atlantik okeanındakı adalara da gedib çıxdı. Bu böyük uğur İslamiyyət yolunda zəhmət çəkən mürşidlərin çoxunun bellərində ipdən bir kəmər, əyinlə-

rində adi bir köynək, əllərində bir neçə silah vardı, bunlardan savayı hər hansı təntənələri, göstərişləri, sərvətləri yox idi. Ən böyük gücləri dinə bağlılıqları, xoş niyyətləri və fədakarlıqları idi. İçləri fədakarlıq duyğularıyla dolub-daşırdı.

Daha sonra dəbdəbəli bir həyat, zənginlik, səltənət və ehtişam dolu dövrləri başladı. Amma dinə bağlılıqlarından, çəkdikləri əziyyətdən və cəhdlərdən, fədakarlıqlardan, əzm və qərarlılıqlarından heç nə əskilmədi. Məhz bu cür yüksək şəxsiyyətlərin Məhəmməd həzrətlərinin gətirdiyi dini yaymaq üçün can qoyduqları Yer üzü qitələrində ortaq inanca və dinə sahib olaraq yaşayan 400 milyondan artıq əhaliyə müsəlman, onların aləminə isə İslam aləmi deyilir. Bu aləmin coğrafiyasına, tarixinə, etnoqrafiyasına, indiki vəziyyətinə qısaca da olsa, bələd olmaq bütün möminlər üçün fərzdir. Çünki "*Bütün möminlər qardaşdırlar*"[79] ayəsinə görə, bütün müsəlmanlar, etnik köklərə, məzhəbə görə ayrı-seçkilik etmədən qardaşdırlar və qardaşlar da biri-birlərinin halından xəbərdar olmalıdırlar.

İslamiyyətin ruhu qarşılıqlı qardaşlıq və səmimiyyət tələb edir. Harada bu olmazsa, orada İslamiyyət də yoxdur. Avropalılar daima panislamizmdən, yəni müsəlmanların birliyindən söz edir, bundan son dərəcə qorxub-çəkinirlər. Haqlıdırlar da. Məyusluqla söyləməliyəm ki, bu önəmli qorxunun, çəkinmənin səbəbi olan İslam aləminin hansı gücə, qüvvəyə malik olduğunu, nələrə qadir olduğunu biz müsəlmanlar, hələ də nə bildik, nə də ki, öyrəndik.[80]

Bu mövzuyla bağlı yetərsizliklərimi bilməklə yanaşı, mən, qələmə aldığım "Aləmi-İslam coğrafiyası" adlı

əsərimi bu aləmə xidmətimin bir örnəyi kimi yaxın vaxtarda çap etdirəcəyəm. Əsərdə xətalarım çox ola bilər, nöqsanlar da olmamış deyildir. Qoy onları da bizdən sonra gələnlər düzəltməyə səy göstərsinlər. Avropalıları qorxudan İslam birliyi mənəvi baxımdan həmişə mövcuddur, amma sözügedən o birliyi bir hərəkata döndərmək üçün millətləri biri-birinə tanıtma ehtiyacı vardır. Digər müsəlmanlardan daha mədəni və inkişaflı olduğu təxmin olunan, daha geniş imkanlara və gücə sahib olduğu düşünülən osmanlılar İslam dünyasının hər tərəfindən xəbərdar olmasalar, onda Mərkəzi Sudandakı Busa İslam hökuməti və xalqı, Sakit Okeandakı Boro və Boton müsəlmanları görəsən Osmanlı dövləti barədə haradan xəbər tutacaqlar?! Osmanlı dövlətinin İslam dünyasının güvənilən arxası olacağından ümidvar olan müsəlman millətlər dövlətimizin hər əmrinə hazır olar, ona qüvvətli bir bağ ilə bağlanarlar.

Padşahımız və böyük xəlifəmiz Sultan Mehmed Vahidəddin həzrətləri, iffətli, dürüst, adil, mərhəmətli, cəsur və bir peyğəmbər xəlifəsində olması gərəkən özəlliklərə və keyfiyyətlərə sahib, yaradılışca zəki insandır. Əlli illik araşdırma və təcrübəsiylə onun malik olduğu zəkanı daha da gücləndirdiyi sayılmaqdadır. Dindarlığı, özünə olan güvəni, təşəbbüskarlığı, cəsarətli və hökmlü olması, elmə və fəzilətə dəyər verməsi, haqsızlıqlara və düşmənçiliyə qarşı çıxması kimi gözəl sifətlərə sahip olduğundan idarə etdiyi dönəmdə Osmanlı millətinin bəxtiyar və mürəffəh olacağına şübhə ola bilməz.

Ədalət dövlətləri gücləndirir, yaşadır, digər qövmləri özünə çəkir, bağlayır. Adil, güclü bir Osmanlı dövləti digər müsəlman dövlətləri üçün bir maqnit kimi çəkici

və cazibədardır. Qəzəb, tamah, ədalətsizlik, keyfə görə davranış və tərəfdarlıq (=tərəf tutma) isə dövlətləri yox olmağa sürükləyir. İslam yaranandan bəri ortaya çıxan zülm, haqsızlıq, millətin malını çalıb-çapma (=mənimsəmə), rüşvətçilik, israfçılıq, İslama zidd olan üstüörtülü işlər üzündən adı tarixdən silinib gedən dövlətlərin adlarını burada açıqlamaq istəyirəm:

1. Bəni-Ümeyyə hökuməti (Əməvilər)
2. Abbasiyyə hökuməti (Abbasilər)
3. Sətəmdar hökuməti
4. Gilani-Cəbəliyyə hökuməti
5. Banəndiyyə hökuməti
6. Bəni-Rüstəm hökuməti
7. Əndəlüs hökumətləri
8. Bəni-Mədrar hökuməti
9. İdrisiyyə hökuməti
10. Əğləbiyyə hökuməti
11. Fərqanə hökuməti
12. Bəni-Samaniyyə hökuməti
13. Bəni-Tahir hökuməti
14. Siciliya əmirlikləri
15. Hüseyniyyə hökuməti
16. Ələviyyə hökuməti
17. Səffariyyə hökuməti
18. Bəni-Tulun hökuməti
19. Haşimiyyə hökuməti
20. Bəni-Tabataba hökuməti
21. Bəni-Hamdan hökuməti
22. Sicistaniyyə hökuməti
23. Bəni-Ziyad hökuməti
24. Bəni-İlyas hökuməti
25. Sariyyə hökuməti
26. Əli Büveyh hökumətləri
27. İğşidiyye hökuməti
28. Bəni-Salariyyə hökuməti
29. Rükniyyə hökuməti
30. Bəni-Şahin hökuməti
31. Bəni-Əsfər hökuməti
32. Bəni-Badis hökuməti
33. Fatimiyyə hökuməti
34. Mərvan Kürdiyyə hökuməti
35. Bəni-Mə'mun hökuməti
36. Akbin hökuməti
37. Qəznəviyyə hökuməti
38. Bəni-Məzid hökuməti39. Bəni-Qaqəviyyə hökuməti
40. Bəni-Hamud hökuməti
41. Bəhamiyyə hökuməti
42. Mərdas Kəlabiyyə hökuməti
43. Xürrəmiyyə (Babəki) hökuməti
44. Səlcuqiyyə hökuməti
45. Şivənkar hökuməti
46. Murabitun-Məlsəmun hökuməti
47. Selihiyyə hökuməti
48. Bəni-Fəlitə hökuməti
49. Bəni-Artuq Hökuməti
50. Mənkuhiyyə hökuməti
51. Aliyyə hökuməti
52. Bənu-Şəddad hökuməti
53. Mərdas-Kürdi
54. Batmiyyeyi-İsmailiyyə
55. Xarəzm hökuməti
56. Bəni-Müseyyib Aqubi hökuməti
57. Badisiyyə hökuməti
58. Atabəg hökuməti
59. Əyyubiyyə hökuməti
60. Bamyan hökuməti

61. Luristan hökuməti
62. Həmmad-Bucayə hökuməti
63. Əli Səbuktəkin hökuməti
64. Hafsiyun hökuməti
65. Bəni-Məzid hökuməti
66. Bəni-Xurşid hökuməti
67. Lar hökuməti
68. Fətadeyi Hüseyniyyə hökuməti
69. Bənu-Həmzə hökuməti
70. Qabiliyyə hökuməti
71. Xaliciyyə hökuməti
72. Məriniyyə hökuməti
73. Qaraqurum, Çingiziyyə hökuməti
74. Muvahhidin hökuməti
75. Guriyyə hökuməti
76. Qara Hatay hökuməti
77. Vədadiyyə hökuməti
78. Rəsuliyyə hökuməti
79. Cubaniyyə hökuməti
80. Bəni-Müzəffər hökuməti
81. Bəni-Əhmər hökuməti
82. Cuciyyə hökuməti
83. Kurt (=Qurd) hökuməti
84. Bəhriyyun hökuməti
85. Ağ Ordu hökuməti
86. Pərvanə hökuməti
87. Qaraman hökuməti
88. Elxaniyyə hökuməti
89. Qızıl Əhmədlu hökuməti
90. Bəni-Tuğluq hökuməti
91. Əmmariyyə hökuməti
92. İlqaniyyə hökuməti
93. İticuyyə hökuməti
94. Tuğmaniyyə hökuməti
95. Məziniyyə hökuməti
96. Bəhməniyyə hökuməti
97. Kaşqar hökuməti
98. Ramazanoğulları hökuməti
99. Qaraqoyunlu hökuməti
100. Ağqoyunlu hökuməti
101. Dulqədiriyyə hökuməti
102. Xəzəriyyə hökuməti
103. Bəni-Kavus hökuməti
104. Cünbur hökuməti
105. Səfəviyyə hökuməti
106. Qulamani-Cəransa hökuməti
107. Klavuniyyə hökuməti
108. Sudiyyə hökuməti
109. Tahiriyyə hökuməti
110. Qəraniyyə hökuməti
111. Germiyan hökuməti
112. Aydınoğulları hökuməti
113. Əlcəzair hökuməti
114. Ludiyyə hökuməti
115. Krım hökuməti
116. Bəni-Vətas hökuməti
117. Arnavut hökuməti

Mövcud tarixlər gözdən keçirilərsə, burada saya-hesaba almadığımız daha neçə-neçə dövlətlər tapılar. Bunların arasında 374 il mövcud olan Barəndiyyə dövləti də daxil olmaqla, soyğunçuluq və gizli siyasi fəaliyyət şəraitində qırx il ömür sürən Şahniyyə dövləti, dinsizlik, əxlaqsızlıq və namussuzluqla bəzi özəl və gizli qüvvələr sayəsində 18 ilədək varlığını sürdürən İsmaili-Batini hökuməti də vardır. Bu İslam dövlətlərinin tarixləri

araşdırıldıqda yıxılma səbəblərinin aşağıdakılar olduğu ortaya çıxır:

1. Dinsizlik, həyasızlıq
2. Ədalətsizlik, zülm və yamanlıq
3. Dövlət malını çalıb-çapma, rüşvətçilik, pozğunluq, israf və möhtəkirlik
4. Vəzifə uğrunda qovğalar, ehtiras və tamah
5. Xarici ölkələrdə nələr baş verdiyini araşdırıb öyrənməmə, cəhalət, tənbəllik və hər hansı inkişafın yoxluğu.s

## Bu gün Yer üzündəki İslam dövlətləri

1. Dövləti-Aliyyəyi-Osmaniyyə
2. İran hökuməti
3. Əfqan hökuməti
4. Buxara hökuməti
5. Xivə hökuməti
6. Bəlucistan hökuməti
7. Krım hökuməti
8. Azəristan, Azərbaycan hökuməti
9. Şimali Qafqaz hökuməti
10. Malir Kutla nəvvablığı
11. Buxara nəvvablığı
12. Cincəri hökuməti
13. Gice hökuməti
14. Əhmədabad hökuməti
15. Cunakər hökuməti
16. Camingər hökuməti
17. Heydərabad hökuməti
18. Kümbad hökuməti
19. Palastnipur hökuməti
20. Radhenpur hökuməti
21. Bhopal hökuməti
22. Behalpur hökuməti
23. Rampur hökuməti
24. Tuk nəvvablığı
25. Hevar nəvvablığı
26. Balnebu nəvvablığı
27. Kücbahar nəvvablığı
28. Nizam hökuməti
29. Tervara hökuməti
30. Selangor hökuməti
31. Nuhgarisə Mübilan hökuməti
32. Cövhər hökuməti
33. Kədah hökuməti
34. Perlis hökuməti
35. Kəlantan hökuməti
36. Hayrapur hökuməti
37. Ray hökuməti
38. Ternağqanu hökuməti
39. Perak hökuməti
40. Pehnək hökuməti
41. Acin Ace hökuməti
42. Padanıh hökuməti
43. Singura hökuməti
44. Banke hökuməti
45. Riyu hökuməti
46. Biltun hökuməti
47. Palmübanig hökuməti
48. Lampunig hökuməti
49. Nəbkulin hökuməti
50. Linga hökuməti
51. Niyaz hökuməti
52. Bata hökuməti
53. Cambiyyə hökuməti
54. Siyak hökuməti
55. Hanitan hökuməti
56. Dehli hökuməti
57. Babi hökuməti
58. Banyak hökuməti
59. Piti hökuməti
60. Tanahamse hökuməti

61. Tanahalise hökuməti
62. Vennenavi hökuməti
63. Ratilan hökuməti
64. Sikunu hökuməti
65. Nasuvangunu hökuməti
66. Buiyyiyat hökuməti
67. Banigkali hökuməti
68. Panig Saniğ hökuməti
69. Banlav hökuməti
70. Butun hökuməti
71. Buru hökuməti
72. İsindure hökuməti
73. Ternate hökuməti
74. Tidur hökuməti
75. Timur hökuməti
76. Ruti hökuməti
77. Buğur hökuməti
78. Samar hökuməti
79. Seram hökuməti
80. Pantiyanak hökuməti
81. Sumbah hökuməti
82. Siyanitan hökuməti
83. Makindağ hökuməti
84. Matan hökuməti
85. Kaç hökuməti
86. Ricnik hökuməti
87. Sampiluniğ hökuməti
88. Buriney (=Bruney) hökuməti
89. Dayak hökuməti
90. Kəşmir hökuməti
91. Puti Hökuməti
92. Bədaxşan hökuməti
93. Şaravak hökuməti
94. Ruşen hökuməti
95. Simpaniğ hökuməti
96. Sintaniğ hökuməti
97. Kuti hökuməti
98. Pantam hökuməti
99. Surakarte hökuməti
100. Cokcakarte hökuməti
101. Samaraniğ hökuməti
102. Sumbave hökuməti
103. Şiribun hökuməti
104. Madura hökuməti
105. Çorbaya hökuməti
106. Kambiniğ hökuməti
107. Banduniğ hökuməti
108. Manihkısar hökuməti
109. Kutinigan hökuməti
110. Umman hökuməti
111. Burbulingu hökuməti
112. Hazarmut hökuməti
113. Basuruan hökuməti
114. Küveyt imarəti
115. Katif imarəti
116. Bəhreyn hökuməti
117. Nəcd hökuməti
118. Muhammira hökuməti
119. Ciyancur hökuməti
120. Lahic Abdali hökuməti
121. Zalig sultanlığı hökuməti
122. Sabbai hökuməti
123. Fazli hökuməti
124. Abdulvahid hökuməti
125. Aqrabi hökuməti
126. Sabihi hökuməti
127. Qərb sultanlıqları hökuməti
128. Havaşib hökuməti
129. Allakgı hökuməti
130. Nəsab hökuməti
131. Bəyza hökuməti
132. Fas hökuməti
133. Tunis hökuməti
134. Aşanti hökuməti
135. Aşirə hökuməti
136. Affar hökuməti
137. Ağa hökuməti
138. Uqanda hökuməti
139. Ova hökuməti
140. Məndərə hökuməti
141. Basutus Bicvane hökuməti
142. Busa hökuməti
143. Bundu hökuməti
144. Tumbuktu hökuməti
145. Fanti hökuməti
146. Bambuk hökuməti

147. Sirgu hökuməti
148. Saklave hökuməti
149. Turu hökuməti
150. Zengiyar hökuməti
151. Sambu hökuməti
152. Seneqal hökuməti
153. Havdame hökuməti
154. Bagirmi hökuməti
155. Bamyara hökuməti
156. Darfur hökuməti
157. Gandu hökuməti
158. Sukutu hökuməti
159. Husa hökuməti
160. Afnu hökuməti
161. Vaday hökuməti
162. Bərnuh Burnu hökuməti
163. Darunega hökuməti
164. Futaçalun hökuməti
165. Futa hökuməti
166. Mandenene hökuməti
167. Darfiritet hökuməti
168. Diyafunun hökuməti
169. Kanım hökuməti
170. Dinega hökuməti
171. Fula hökuməti
172. (orijinalda ötürülüb)
173. Katuri hökuməti
174. Kabur hökuməti
175. Kauku hökuməti
176. Katagun hökuməti
177. Kuvar hökuməti
178. Kumur hökuməti
179. Muhili hökuməti
180. Mayute hökuməti
181. Hinduvane Anjuvan hökuməti
182. Manima hökuməti
183. Misir hökuməti
184. Sinusiyyə hökuməti

Adlarını saydığımız bu dövlətlərin hökmdarları da, xalqı da tamamən müsəlmandır. Hökmdarların sarayları, dəbdəbəli yaşam tərzləri və vəkilləri vardır. Ancaq bəziləri yarımüstəqil, çoxusu isə Avropa dövlətlərinin himayəsi altındadır. Missionerlər bu İslam ölkələrində istədikləri kimi at oynadırlar. Görəsən bizim millətdən neçə nəfər bu ölkələrə səyahət edərək onların kim olduğunu bizə anlatmışdır? Səfirlərimiz, konsullarımız nə işlə məşğuldurlar? Bilmirəm! Yalnız çox kədərləndiyim və heyfsləndiyim bir məsələ var: Avropada sırf qumarxananı xatırladan bir Monako şahzadəliyi, cəmi dörd jandarması olan San-Marino cümhuriyyəti, eyni qüvvət və sayda bir də Andorra cümhuriyyəti, Lüksemburq, Lehistan dukalığı (=Polşa knyazlığı - A.Y.) və şahzadəliyi Avropada hazırlanan illik hesabatlarda ayrıca hökumət kimi tanıdıldıqları halda, milyonlarla əhalisi (=vətəndaşı) olan

iri-iri İslam hökumətlərindən heç söz edilmir. İslamiyyətə qarşı düşmənçilik açıq-aşkar aparılır. Belə olan halda İslam dünyası özünü ələ almalı, mövcud qüvvətini və qüdrətini onlara tanıtmalıdır. Xristian dövlətlərinin ərazisində yaşayan müsəlmanlar Avropa hesabatlarında nəzərə alındıqlarından, biz onları burada təkrarlamağa elə bir ehtiyac duymadıq.

*Samsameyi eylədikce təslil*
*Təslimi-süyuf edərdi əda.*
*Tarix deyir ki, bi muhaba*
*Bir orduyu bərabər etdi tənkil.*

(Mənası - İti qılıncının sıyrıldığını görüncə düşmənlər qılınclarını yerə atardılar. Tarix də bu xüsusda səmimi şəkildə etiraf edir ki, o, bütöv bir ordunu tərksilah eylədi)

İslam aləmi yetərincə böyükdür, çox-çox güclüdür, çox təsirə və önəmə malikdir. Ancaq ədalətsizlik, yönətimindəki (=idarəetməsindəki) yetərsizlik, məmnuniyyətsizlik (=narazılıqlar) və bunlar kimi neçə-neçə üzüntülü məsələlər bu zəhmli gücü içəridən dağıtdı, zəif saldı. Dinin əmr etdiyi ədalət, güclü bir yönətim nə vaxtsa o xırdalaşan qüvvələri birləşdirəcək və nəticədə bütün dünya titrəyəcəkdir. Əgər bir igid bir ordunu məğlub edə bilirsə, vaxtı gələndə bir igid bu hünəri göstərəcəkdir. Mövcud İslam dövlətləriylə qarşılıqlı münasibətlərin qurulması və mədəni birliyin təmini hazırda üzərində çalışmağı tələb edən önəmli bir xüsusdur.

İndi isə düşünüb tapdığım "**İslam Dinini Yayma Cəmiyyəti**"nin necə təşkilatlanacağı planı üzərində dayanaq.

## **İSLAMI YAYMA** (=TƏBLİĞ) **CƏMİYYƏTİ**

İslamı Yayma Cəmiyyəti böyük Osmanlı dövlətinin və müsəlmanların göstərəcəyi nəqd yardımlarla (=ianələrlə) fəaliyyət göstərə bilər. İslamı Yayma Cəmiyyəti ingilislərin missioner təşkilatına bənzər bir vəzifəni yerinə yetirməklə məşğul olacağından, missioner dərnəyi ingilis hökuməti və xalqından hansı yardımı və köməyi görürsə və hansı xidmətləri göstərirsə, bizim İslam Cəmiyyətimiz də dövlət tərəfindən eyni şərtlərlə təmin olunmalıdır. Bu yolla bir çox faydalar əldə oluna bilər. Əgər bu fəaliyyət İstanbulun Çağaloğlu səmtində qapısının üstündə "Cəmiyyəti-Xeyriyyəyi-İslamiyyə" lövhəsi vurulan bir evdə üç-beş insanın bir araya gəlib, söhbətləşmələrindən ibarət olacaqsa, onda belə bir təşkilat qurmağa təşəbbüs göstərməyinə dəyməz.

Qısası, missionerlərin müsəlmanlar barədə təbliğ etməyə çalışdıqları metod çərçivəsində onlara eyni şəkildə qarşılıq verəcək bir fəaliyyətə girişmək lazımdır. Burada başlıca şərt budur: Bu işə başçılıq edəcək şəxs hümməti (=birliyi), bu yolda çalışanlar isə qeyrəti və istiqbalı (=gələcəyi) əsas götürməli, keçici olan dünya həyatını düşünməməklə gərəkli tədbirləri almalıdırlar. Onsuz da dünya həyatı nədir ki, onun iqbalı da nə olsun?!

*Nik-bəxtan rövnəqi-iqbalə məğrur olmasın,*
*La-bəqadır əksi iqbalin, bulur bir gün zəval.*

(Mənası - Bəxti güclü olanlar iqballarının parlaqlığına çox da inanmasınlar, çünki iqbal sözünü tərsinə oxusan, la bəqa (=yox olma)

alınar ki, bu da bir gün özünü göstərər.)

Ən yaxın əsrlərdə siyasət aləmində istədiyi kimi at oynadan, bütün arzularını gerçəkləşdirən, savaş meydanlarında zəfərlər qazanan Napoleon və Fridrix kimi zəmanələrinin böyük şəxsiyyətləri bugün qara torpaqda çürümüş, adları və nişanələri kağız səhfələrində qalmışdır. Əgər bu yazılanlara dəyər verilirsə və axirətə iman gətirilmirsə belə, müəyyən vicdani hərəkətlərə gərək duyulur. Yox, əgər buna qiymət verilmirsə, dinə uyğun davranılmırsa, hökumət və kəramət sayılan dövrlərdə alınacaq hər bir tədbir ən azından məntiqli olmalıdır. Edilən iş büt çıxmazsa (=bütə çevrilməzsə), ona etiraz edən tapılmazsa, o - halal, məşru və məqbul sayılır. Hətta çarəsiz qalan Fərid paşa barədə haqsız olaraq yazılan bir qəsidədə deyilir ki:

*Hasili-dünya və ma-fihanı hərcü-mərc edib,*
*Kəndimə (=özümə) namı-Hülakü xanı ünvan eylərəm.*

Bu zat evinə girmək üçün təyin olunan yoldan başqa bir istiqamətdən getməyi heç bacarmazmış. Qarışqanı filə çevirən millətimiz həddini aşan uyğulamalara girişənlər barədə nələr söyləmir ki!

Vidinli Tevfik paşanın bir sözünü xatırlatmaq istərdim. Bu mərhum zat bir rəsmi toplantıda deyib ki: Bu məmləkətdə ciddiyyət (=ciddilik) təqdir edilməz, yaxşı şey pis, pis isə yaxşı sayılır. Buralarda ciddiyyətdən bəhs eləmək - Saksoniya boşqabında eşşəyin qabağına saman qoymaq kimidir.

Əcəb doğru sözlərdir! Məmləkətimizdə şəxsiyyəti gözümçıxdıya salmaq hər dövrdə dəbdədir. Güclü şəxsləri kənarlaşdırmaq - bütün zəmanələrdə üstünlük tanınan yol olub. Türkiyənin geri qalmasına, zəifləməsinə səbəb olan xüsuslardan birincisi, bəlkə də elə budur.

Mən:

Ağlamaq, sızlamaq, yalvarmaq … hamısı boş,
Taleyin səni səslədiyi bu həyatda
Sona qədər həyatını yaşa və işinə önəm ver,

Onsuz da gec-tez mənimtək səssizlikdə öləcəksən[81]

misralarının müəllifi Alfred de Vinyi (=Alfred Viktor de Vigny (1797-1863) Fransanın romantik üslubda yazıb-yaratmış şairi - A.Y.) ilə həmfikir deyiləm.

Saf vicdanımın səsiylə, öz gücüm və bilgilərim çərçivəsində bəzi düşüncə və baxışlarımı ortaya qoydum. Bunlar doğru da ola bilər, yanlış da. Tək məqsədim - millətimə xidmətdir. Qüsurlu olsa da, zamanın gedişatına toxunsa da, bu davranışım xoş qarşılanmalıdır. Keçmiş sədrəzəmlərdən (=baş nazirlərdən, baş vəzirlərdən - A.Y.) mərhum Fuad paşanın əlli il öncə ölüm döşəyində ikən cənnətməkan Sultan Əbdüləziz xana yazdığı vəsiyyətnamədə bəzi önəmli cümlələr vardır. Onların bir qismini aşağıda verirəm. Bunlar bütün zəmanələr üçün örnək ola bilər:

**Padşahım!** Allah təala Sizə şərəfli olduğu qədər də təhlükəli sayılacaq bir vəzifə həvalə etmişdir. Uca zatınız da bu vəzifəni gərəkən şəkildə yerinə yetirməkdən ötrü Osmanlı səltənətinin təhlükədə olduğunu düşünməyə məcbursunuz. Qonşularımızın sürətlə inkişafı və əcdadımızın ağlasığmaz xətaları bizi bu gün, içində olduğumuz vəziyyətə gətirib çıxarmışdır. Belə bir dəhşətli təhlükədən qorunmaq üçün mükəmməl zatınızın da keçmişi bir tərəfə buraxması, bizi yeni bir yüksəliş yoluna sövq etməsi lazım gəlir. Bizləri yox edə biləcək bu fəlakətdən qurtarmaqdan ötrü İngiltərə qədər sərvətə, Fransa qədər maarifə (=elmə, təhsilə), Rusiya qədər əsgərə sahib olmalıyıq. Bizlər üçün gərəkli olan bu yüksəliş - Avropa millətləri dərəcəsinə çatmaqdır. İslamiyyət insanın maddi və mənəvi tərəfdən dirçəlməsinə imkan verən bütün şərtləri ehtiva edir. Buna görə də siyasi və mülki sistemimizi dəyişdirmək, qanunlarımızı zəmanəyə uyğun yeniləmək-İslamın əsaslarından üz döndərmək deyildir. Madam ki, bizim inancımıza görə, İslamiyyət bütün gerçəkləri, bütün elmi, irfanı qəbul edir, deməli, biz, bütün faydalı kəşfləri və yeni elmi ixtiraları (harada olursa-olsun və hansı millətə aid olursa-olsun) almaq, mənimsəmək vəzifəsini daşıyırıq. Düşmənlərimizi öz

imkanlarımızla (=təkbaşına) məğlub edə bilməyəcəyimizə görə, xaricdə özümüzə dürüst müttəfiq axtarmağa məcburuq. Müxtəlif irqlərə (=millətlərə) mənsub xristian vətəndaşlarımızın dini baxımdan öz aralarında bir-birləriylə yaxınlaşmalarına əngəl olmağa çalışmalıyıq. Onların dövlət maraqlarımızı hər cür dini məsələdən üstün tutmalarından daha yaxşı bir yönətim (=idarəetmə) nizamı ola bilməz. Ancaq biz, Osmanlının ən müxtəlif ünsürlərini cinslərə (=növlərə) və məzhəblərə ayırmalı, onların qarşılıqlı mənfəətlərinə uyğun gələcək şərtləri (=səbəbləri) hazırlamalıyıq.

Bugünkü gün də bu sözlər eynilə təkrarlana bilər. Bu vəsiyyətləri bütün müsəlmanlar üçün faydalı bir dərs olaraq diqqətə alacaq bir İslamı Yayma Cəmiyyəti və bu cəmiyyətin üzvləri çox böyük xidmətlər göstərə bilərlər. Çünki bir din fəlsəfəsiz var ola bilmədiyi kimi, siyasətsiz də ötüşə bilməz. Buna görə də məsələyə iki baxış bucağından yanaşılmalıdır:

**1. Mənəvi baxımdan**

**2. Siyasi baxımdan.**

Mənəvi yön birbaşa fərdlərin və şəxslərin vicdanına təsir göstərir. Siyasi yön isə bu baxışları mənimsəyən cəmiyyətin həyatının və bəxtiyarlığının əsasını formalaşdırır.

Bu əsəri yazmaqda məqsədim - İslam dünyasını sayıqlığa çağırmaqdır, qarışdırmaq yox. Quranda buyurulur ki: "***O kəsləri ki, Allahla (Ona iman gətirmək və itaət etmək barəsində) əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır (möminlərlə dostluğu, qohum-əqrəba ilə əlaqələri kəsir) və yer üzündə fitnə-fəsad törədirlər. Məhz belələri (dünyada və axirətdə) ziyana uğrayanlardır!***"[82] Səmimi bir imanla inandığım Allah məni hüsranda buraxmasın. Amin.

Mən xalqın imanına əngəl yaratmıram. Xalqla lağlağı da etmirəm. Dünyanın mövcud quruluşunu, insanların qurtuluşunu və səadətini təmin edəcək işlərin görülməsinə tərəfdaram. Uca Mövla bütün möminləri öz lütfüylə islah eyləsin, qəzəbiylə həlak etməsin, onsuz da daha zülmə və qəzəbə dözümümüz qalmamışdır.

Osmanlı məmləkətində siyasi problemlər əskik olmaz. Bunların birisi keçici olaraq həll olunduqda, heç xatirə və xəyala gəlməyən bir digəri meydana çıxır, çünki biz müsəlmanlara, xristianlığı qəbul etmədiyimiz müddətcə yer üzündə rahatlıq və hüzur verilməməsi xaçpərəstlər tərəfindən qəti qərarlaşdırılıb. Bu kitabçada başqaları tərəfindən danışılan, nəql olunan və mənim bəzi səbəblərə görə gündəmə çıxardığım nəzəriyyəni avropalılar heç diqqətə, nəzərə almırlar. Biz müsəlmanlar - birlikçiyik, müvəhhidik (=bir olan Allaha inanırıq). Təslisə (=üçlü tanrı sisteminə) inanmırıq və heç bir vaxt inanmayacağıq, çünki bu mümkün deyil. Kosmoqrafiya haqda yüz minlərcə səhifə yazan, araşdırma və kəşflərə imza atan, fəlsəfə sahəsində əsərlər yaradan, ağılları hər şeyə hər kəsdən daha artıq dərəcədə yatqın olan, çoxbilmiş Avropa missionerləri əgər həqiqətləri qavramaqda acizlik göstərirlərsə, əcdadlarından miras kimi qalan və üstəlik, ağlasığmaz, uydurma olan bir inanca inanırlarsa və bizləri də inadla o köhnə və batil inanca sürükləmək istəyirlərsə, deməliyəm ki, bu adamlarda düşüncə, ağıl, mühakimə və məntiq baxımından heç nə yoxdur. Və Allah özü bunlara bir əncam çəksin deyib keçirəm. Mən heç vaxt özümün kifayət qədər doğru və məqbul dinimdən imtina etmərəm. Müsəlmanlıq, həm də tam mənada müsəlmanlıq, bizləri heç vaxt və heç kəsə qarşı başıaşağı etməz.

Məkanı cənnət olacaq Fatih Sultan Mehmet xan (Bizans imperiyasının paytaxtı Konstantinopolu, yəni İstanbulu 1453-cü ildə fəth edən və otuz il (1451-1481) Osmanlı xanədanının imperatoru olan II Mehmet (1432-1481) nəzərdə tutulur - A.Y.) kimi hər cür tərifə layiq şanlı bir padşah Bizans imperatorluğunu yıxaraq, dünyanın mərkəzi olan İstanbulu ələ keçirmişdi. Avropaya, Asiyaya və Afrikaya hökm edən bu qüdrətli sultana II Bepi (=1458- 1464-cü illərdə Roma papası olmuş, əslən siyenalı Enea Silvio Pikkolomini, yəni II Piy nəzərdə tutulur - A.Y.) deyilən Papa aşağıdakı məzmunda sayğısızlıqla dolu bir məktub göndəribmiş:

Əgər siz və xalqınız İslam dinindən imtina etsəniz, Şərq

xristianlığına lider olmanız barədə fətva verəcəyəm və hər şey unudulub gedəcək."

Nəinki Şərq xristianlığına, heç dünya xristianlığına hakim olmaq vəd edilsəydi belə, nəinki Fateh Sultan Mehmet xan kimi böyük hökmdar, hətta cahil bir bağban belə bu təklifi qəbul edərdimi?! Görünür, Papa Bepi bunu heç düşünməmişdi. İndiki zəmanədə isə ingilislərlə fransızlar bunu nəzərə almırlar.

Keçmişdən bəri ingilislər bu dini məsələ ilə məşğul olsalar da, heç vəchlə bir nəticəyə nail ola bilmirlər. Bugün İsa həzrətlərini şəhid etdiklərinə bütün xristianların inandıqları israillilərə belə ingilislər (xüsusilə də müsəlmanlara zərər verməkdən ötrü) siyasi bir imkan tanıyırlar. Qüdsi-Şərifi məmuniyyətlə onlara verirlər. Ümid etmirəm ki, digər xristian millətlər bu zəhərli tikəni udsunlar. Dünyada xristianlar yalnız ingilislərlə onların daha betəri sayılan amerikanlardan ibarət olsaydı, bəlkə də bu iş gerçəkləşərdi[83]. Ondan-bundan mədəd uman 4 - 5 insandan ibarət bir dəstə nəinki Qüdsü (=Yerusəlim şəhəri - A.Y.), heç kiçik bir kəndi də işğal edə bilməz. Görəsən israillilərin bu dəstəsi bir ovuc jandarma məmuruyla Qüdsə gəldi?!

İngilislər də artıq siyasət işinin ağını çıxardıblar. Almanları əzməkdən ötrü dini ənənələrini belə ayaqlar altına atdılar. Bundan daha betər, daha alçaq bir şey ola bilməz. Deyəsən ingilis lordları arasında bu məsələyə önəm verən dostlarımızın sayı çox olsa belə, onların çıxardığı qərarlar cəmisi bir neçə ay keçərli olur. Sonra isə bir heç!

Mən ticarətlə məşğul olan musəvi vətəndaşlarımıza bu cür oyunlara aldanmamalarını, öz iş-gücləriylə məşğul olaraq mövcud həyat tərzlərini pozmamalarını tövsiyə edirəm.

Bu kimi məsələlər keçmiş dönəmdə ortaya atılsa da, Sultan II Əbdülhəmid xan tərəfindən şiddətlə rədd edilmişdir. Mərhum Əbdülhəmid İslam dünyası üçün çox zərərli olacaq bənzər məsələlərdə çəkinmədən, həm də son dərəcə ağıllı qərarlar verirdi. Amma neyləyəsən ki, ətrafındakılar fərli adam

deyildilər. İndi o dövr keçmişə qarışıb, bir tarix oldu. Bu gün isə gerçək müsəlmanlar hər şeyin yaxşı və pis yönlərini bilməli, amma Allahın təqdirinə sığınmalıdırlar.

Mövla görəlim neylər, Neylərsə - gözəl eylər.

Allah o qədər böyük, o qədər adildir ki, Onun etdiyini heç bir qul bacarmaz. İmhal (=möhlət, müddət, zaman) etsə də, ihmal etməz (=unutmaz, diqqətsizlik etməz). Yəni möhlət tanıyar, amma ihmal (=unutqanlıq, səhlənkarlıq) etməz. Allah hər şeyi bilir, hər şeyi görür və bunu əsas götürərək yaratdıqları arasında öz uca ədalətini gerçəkləşdirir.

Müsəlmanlar arasındakı ayrılmaları, bölünmələri və bunlara yol açan səbəbləri ortadan qaldırmaq vacibdir. Müsəlman türklər bir-biriylə vuruşan iki tərəfdən adətən zəif olanına yardım edirlər. Birinci Dünya savaşında da eyni yolu seçdilər. Düşmənlərimiz 1 milyard 150 milyon nəfərlik əhaliyə, bir o qədər də pula və maddi imkanlara sahib idilər. Müttəfiqlərimiz isə 150 milyon əhaliyə və buna uyğun sərvətə və imkana malik idilər. Biz də bu iki tərəfdən nisbətən zəif olanına yardım elədik. Amma yardımına tələsdiyimiz millətlərin bizə qarşı nankorluq etdikləri barədə qəzetlər də yazmışdı.[84]

*Bizə bizdən olur hər nə olursa*

Bunu bilməli və ona görə hərəkət etməliyik. Ən dözülməz cəhət isə odur ki, hələ də müsəlmanlar bir-birinə düşmən gözüylə baxırlar. Necə də acınacaqlı bir haldır!

Əxlaqsız bir müsəlmanın hər halda bir əcnəbidən daha az zərərli olduğunu bilməli, son zamanlarda özünü göstərməyə başlayan səthi düşüncələri zehinlərimizdən silməliyik, bir-birimizdən güvənlə, həm də dörd əllə yapışmalıyıq. Əks halda, fəlakət qaçılmazdır. Çox çalışmalıyıq kəlməsi tənbəllərin belə dilindən düşürmür. Əlbəttə ki, çox çalışmalıyıq. Amma necə?! Hamballar da səhərdən axşama kimi dayanmadan işləyir və bunlara biz əsla tənbəl deyə bilmərik. Görəsən belə çalışmaq bizi qurtuluşa apararmı? Dinimiz bizə çalışmaqla bağlı bir çox prinsiplər öyrətməkdədir. Əxlaq və davranışlarımız haqda bir çox əmrlər verilib, tövsiyələr açıqlanıb, işlədəcəyimiz siyasət

göstərilib. Bax, bunları öyrənməyimiz, bilməyimiz və ona uyğun biçimdə hərəkət etməyimiz lazımdır. Can, mal və namus güvənliyi olan yerdə insanlar mürəffəh (=rifah içində, xoş güzəran içində - A.Y.) olurlar. Xalqın rifahının təmin olunduğu ölkələrdə din, ədalət, hürriyyət və mədəniyyət vardır, elə inkişaf da oralarda olur. Rifahla hüzurun (=sakitliyin, asayişin - A.Y.) olmadığı yerdə bu sadaladıqlarımızın heç birisi olmaz. Əksinə, onların yerini əxlaqsızlıq, zülm, zorakılıq, səfalət (=yoxsulluq, dilənçilik - A.Y.) alar. Ən sonda isə belə ölkələr çökər, çünki bütün dinlərin, qanunların və dövlətlərin məqsədi - insanları sakit və bəxtəvər bir həyata qovuşdurmaqdır. Bəziləri “Dünyada həqiqət və ciddiyyət yoxdur. Hər kəs boş işlərlə başını qatmaqdadır” deyirlər. Xeyr, təkrar edirəm ki: Rifah və səadət varsa, din, dövlət və həqiqətlə yanaşı, bütün qalan şeylər də vardır. Əgər bunlar yoxsa, heç nə yoxdur. Xalqın rifah səviyyəsini yüksəltmək, iqtisadiyyatı yoluna qoymaq, cəmiyyət həyatını yaxşılaşdırmaq lazımdır ki, xalqın əxlaqı da düzəlsin. Ev, dolanışıq, bolluq, yaşayışın asanlaşması, sabitlik və gələcəkdən əminlik şərtdir. İslam dini çox əhatəli olmaqla yanaşı, fitrət dinidir. Peyğəmbərimizin aşağıdakı hədisi buna işarət etməkdədir: Hər uşaq fitrət əsasında doğular. Daha sonra atası-anası onu yəhudi, xristian və ya məcusi edər.[85] “Bir kimsə zamanı gəlmədən bir şey arzulasa, ona həsrət qalar” deyimi də doğrudur. İnşallah vəziyyətimizi düzəltmə zamanı gəlib çatmışdır. İnşallah, işlərimiz yoluna düşər.

Yetər ki, biz dinimizdən möhkəm yapışaq, gözəl əxlaq sahibi olaq. Onda görərsiniz ki, işlərimiz qısa bir zamanda necə düzələcək.

Sonda onu deyirəm ki, tam mənada müsəlman olsaq, Allah təala heç xatirimizə, xəyalımıza gəlməyən, nə alman puluyla, nə də ingilis hiyləsi ilə ortaya çıxdığına inanmadığım rus inqilabi kimi hadisələri ard-arda bu böyük dövlətlərin də başına gətirməklə bizi onlardan xilas edər. İnancsızlıq, dinsizlik şəraitində isə heç bir niyyət gerçəkləşə bilməz.

# DİPNOTLAR

[1] Əzyəb - həm bir yerin, həm də bir küləyin adıdır.
[2] "Hiraz" adı bəzən "Haraz" kimi də oxunur.
[3] Deyləmi, əl-Firdövs bi-Məsuril-Xitab, II, 75
[4] İbn Hibban, Sahih, II, 510.
[5] Müslim, əl-Camiüs-Səhih, I, 10, ¹ 5; Əbu Davud, Sünən, IV, 408, ¹4992; Hakim, əl-Müştədrək, I, 112.
[6] Bu kəlmə "müddəi" və ya "müddəa" şəklində də oxuna bilər.
[7] Tirmizi "İstizan",17; Nəsai, "Kəsamə",48; "Müsnəd", 2/266; Darimi, "Diyat", 33;
[8] Əslində belə bir hədis yoxdur. Təxmin edirik ki, Peyğəmbər həzrətlərinin Zeyd bin Sabitə süryani dilini öyrənməsini əmr etməsi (bax: Tirmizi, İstizan, 22) belə bir deyimin ortaya çıxmasına səbəb olmuşdur. Əlavə mənbə kimi bax: Nasirüddin Albani, "Silsilətü-əhadisis-səhihə", 1/366.
[9] Namaz surələri də daxil olmaqla, "Qurani-Kərim"in qısa surələrinin bir arada toplandığı və "Ammə" surəsi ilə başlayan son cüzü nəzərdə tutulur.
[10] Müəllimin bu beyti irticali (=bədahətdən) söylədiyi təxmin olunur.
[11] Çox yəqin ki, "Siqhlərlə" olmalıdır.
[12] Təvəlli - "imam Əlinin və övladlarının tərəfini tutma", təbərri isə "Muaviyyədən və övladlarından uzaq durma" mənasında işlənir.
[13] "İxlas" surəsinin son ayəsi.
[14] Təslis inancı.
[15] Ətraflı bilgi üçün baxın: Bəha Sait "Türk yurdu", 5-ci cild, 1927-ci il.
[16] Buxari, "Elm", 10; İbn-Macə "Müqəddimə", 17.
[17] "Ali-imran" surəsi, 3/187.
[18] Bu mövzuyla bağlı baxın: M.Çelik "Süryani kilsəsinin tarixi",

İstanbul, 1987, I cild və Richard E.Rubenstein "İsa necə tanrı oldu?" (çevirmən - Cem Demirkan), İstanbul, 2004.

[19] Bu deyim J.J.Russoya deyil, Volterə aiddir. (Jan Jak Russo (1712-1780) və gerçək adı Mari Fransua Arue olan Volter (1694-1778) məşhur fransız yazıçıları və filosoflarıdır – A.Y.)

[20] Bu tip ayələr üçün baxın: 14-cü surə "İbrahim", ayə 27; 16-cı surə "Nəhl", ayə 93; 35-ci surə "Fatır", ayə 8; 74-cü surə "Mudəssir", ayə 31. Biz bənzər ayələri belə tərcümə etməkdəyik: "Allah dilədiyini (=diləyəni) zəlalətdə qoyar". Bu baxımdan Allah istəyinə görə bir insanı zəlalətdə buraxmaz. Hidayətə çatma (=varma) qeyrəti öncəliklə insandan gəlməlidir. Başqa sözlə, yuxarıdakı "Bizlərə nə isə təvəccöh etməmək (=göstərməmək) qalır" fikri "Qu'ran" baxımından kökündən yanlışdır.

[21] – 6-cı surə "Ənam", 59-cu ayə.

[22] Allah heç bir millətin zəlalətdə qalmasını istəməz. İnsan topluluqları özləri müxtəlif səbəblər üzündən zəlalət yoluna baş vurarlar. Allah onları bundan xəbərdar qılmaq üçün peyğəmbərlər göndərər. Batil əməllərdən əl çəkməyənlərə isə Allah işlədikləri yamanlıqları gözəl bir şeymiş kimi göstərməyə başlayar.

[23] "Bəqərə" surəsi, 2/142, 143.

[24] "Həcc" surəsi, 22/16.

[25] Mister Con da hidayət məsələsində insanın hürriyyət və iradəsini diqqətə almamaqdadır. Bununla bağlı digər ayələri də nəzərə alacaq olsaq, onda bu qənaətin dəqiq olmadığı söylənə bilər. Qarşılaşdır: 18-ci surə, "Kəhf", ayə 29.

[26] "Füsus", 195/ Türkçə çevirisi: 122

[27] Buxari, "Ədəb", 80; Müslim, "Cihad", 11.

[28] Bu varlığın heç bir dəyəri yoxdur. Haqq – bir aynadırsa, dünya – onun üstünə qonan tozdur.

[29] Boyaçılıqda işlədilməklə qurğuşun, karbonat və hidoksiddən ibarət zəhərli bir maddə.

[30] Burada onun qəsd etdiyi Osmanlı türkcəsində "sağır kaf" adlanan hərfin dildə yaratdığı fərqlilikdir. Latın əlifbasına keçiddən sonra bu xüsus aradan qalxsa da, hərflərin yetərsizliyi ucbatından bəzi səslər itirilmişdir.

[31] Üçüncü surə "Ali-imran", 21-ci ayə.

[32] Beyhəki, 4/58. Hədisin tam mətni üçün baxın: Tabərani "əl Mücəmul-Kəbir", 2/58, hədis¹ 1659. Qənaətimizə görə, bu söz Məhəmməd həzrətlərindən daha çox Əli həzrətlərinə aid edilməkdədir.

[33] Altıncı surə "Ənam", 102-ci ayə.

[34] Əlli beşinci surə “Rəhman”, 26-27-ci ayələr.
[35] İyirmi səkkizinci surə “Qəsəs”, 88-ci ayə.
[36] “Məcəllə”, maddə 39.
[37] “Həcəri-əsvəd” totem sayıla bilməz.
[38] Təbiətdəki mineral maddələr, heyvanlar və bitkilər. Ağaca sitayişi kimin əmr etdiyi məlum deyildir. Bu, əlbəttə ki, Çarlz Darvin ola bilməz. Cümlədə nə isə çatmır.
[39] Əllinci surə “Qaf”, 16-cı ayə
[40] - Sadəcə dünya və dünyayla bağlı işlərdən anlayana “arif” deyilməz. Arif - dünya və dünya ilə bağlı işləri deyil, onun o biri üzünü bilən kəsdir.
[41] Üçüncü surə “Ali-imran”, 5-ci ayə
[42] Üçüncü surə “Ali-imran”, 15-ci ayə
[43] İkinci surə “Bəqərə”, 207-ci ayə
[44] Bu, bütün peyğəmbərlərə aiddir. Onların bir-birinin soyundan olmaqları ifadəsi həm bioloji baxımdan, həm də müdrik olmaqları, insanlara İlahinin mesajlarını gətirmələrini də özündə birləşdirir.
[45] Üçüncü surə “Ali-imran”, 34-cü ayə
[46] Səkkizinci surə “Ənfal”, 17-ci ayə
[47] Üçüncü surə “Ali-imran”, 119-cu ayə
[48] Dördüncü surə “Nisa”, 48-ci ayə
[49] Altıncı surə “Ənam”, 19-cu ayə
[50] Dördüncü surə “Nisa”, 116-cı ayə
[51] Dördüncü surə “Nisa”, 149-cu ayə
[52] İkinci surə “Bəqərə”, 87-ci ayə
[53] Beşinci surə “Maidə”, 75-ci ayə
[54] Dördüncü surə “Nisa”, 36-cı ayə
[55] “Əhəd” kəlməsinin ərəbcə yazılışında “h” hərfindən sonra “mim” (“m”) hərfi gələrsə, o dəyişib “Əhməd” sözünə, yəni Peyğəmbərin adına çevrilir.
[56] Beşinci surə “Maidə”, 75-ci ayə
[57] İkinci surə “Bəqərə”, 116-cı ayə
[58] İkinci surə “Bəqərə”, 256-cı ayə
[59] İsanın Allahın hüzuruna yüksəldilməsi nəzərdə tutulur.
[60] Üçüncü surə “Ali-imran”, 55-ci ayə
[61] Üçüncü surə “Ali-imran”, 59-cu ayə
[62] Dördüncü surə “Nisa”, 171-ci ayə
[63] Dördüncü surə “Nisa”, 156-157-ci ayələr
[64] Beşinci surə “Maidə”, 46-cı ayə
[65] On yeddinci surə “İsra”, 85-ci ayə

[66] Dördüncü surə “Yuhənna”, 24-cü ayə

[68] Üçüncü surə “Ali-imran”, 25-ci ayə

[69] Əraf - Tanrının inayətini (=rəğbətini, yardımını, diqqətini - A.Y.) qazanandan sonra, öləndən sonra bağışlanmamış ölümcül günahlardan, qüsurlardan və pis xasiyyətlərdən tam mənada arınmamış, insan ruhunun bulunduğu ziddiyyətli durumdur. Bu durumdakı ruhlar cənnətə girməzdən öncə günahlarından təmizlənməyə məcburdurlar. (“Ana Britannica”, “Əraf” maddəsi, İstanbul, 1993. Bu terminin İslam dinindəki yeriylə bağlı baxın: DİA “Əraf” maddəsi.)

[70] “Məcəllə”, maddə 39

[71] Əhməd bin Hənbəl "Müsnəd", III bölüm, 111.

[72] İbn Batuta "İbn Batuta səyahətnaməsi", 1-ci bölüm, s. 280 (A. Sait Aykut nəşri, İstanbul, 2000.)

[73] Osman həzrətləri öz ətrafındakıları hədsiz dəstəklədiyindən o qətlə yetirildiyi zaman Əlinin tərəfdarları və digər səhabələr səslərini çıxartmadılar.

[74] Buxari "Əhkam", 60; Darimi "Müqəddimə", 24

[75] Buxari Bədül-xalq , 59. Bu hədisi: “Başlanğıcda yalnız Allah vardı. Ondan başqa bir şey yox idi” şəklində də anlamaq olar.

[76] Tam olaraq bununla səsləşən bir hədisə rast gəlmədik. Mövzuat kitablarında “Allah ümmətimə əlviyyəni ikram etdi” şəklində bir deyim vardır. Hesab etmək olar ki, bundan da qəsd edilən - Peyğəmbər həzrətlərinin Livaul-Həmd adlandırılan bayrağıdır. İbn Həcər bu hədisin münkər (=inkar olunan, qəbulolunmaz - A.Y.) olduğunu söyləyir. Baxın: Lisanül-mizan, 2/581

[77] 49-cu surə Hucurat, 10-cu ayə

[78] Dördüncü surə Nisa, 58-ci ayə

[79] Qırx doqquzuncu surə Hucurat , 10-cu ayə

[80] Hələ də bunu öyrənmiş deyilik! (S.)

[81] Bu şeri bizim xahişimizlə dilimizə tərcümə edər professor Mehmet Bayraktara təşəkkür edirəm.

[82] İkinci surə Bəqərə , 27-ci ayə

[83] Bu məsələ kitab müəllifinin ölümündən 13 il sonra baş tutub.

[84] Birinci Dünya müharibəsi zamanı Qüds şəhəri ingilislər tərəfindən işğal ediləndə müttəfiqimiz sayılan Almaniya ərazisindəki kilsələrdə bu zəfəri bayram edərcəsinə zənglər çalınmışdı.

[85] Buxari Cənaiz, 80; Müslim Qədər, 22 - 23.